Xalqın qəzeti!

# Xalq qəzeti

№ 100 (30794) 16 may 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Prezident İlham Əliyev Albaniyaya işgüzar səfərə gəlib



**Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniya Respublikasının Baş naziri Edi Ramanın və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısında iştirak etmək üçün Tiranaya işgüzar səfərə gəlib.**

Tirana şəhərinin Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Albaniya Baş nazirinin müavini, infrastruktur və energetika naziri Belinda Balluku və digər rəsmi şəxslər qarşıladılar.

*AZƏRTAC*

## Avropa Siyasi Birliyi – Praqa uğurundan Tirana nikbinliyinə

### Prezident İlham Əliyevin İrəvan və Paris üçün suksvanq xəttinə baxış




**Prezident İlham Əliyev Avropa Siyasi Birliyinin (ASB) bu gün Albaniyanın paytaxtı Tiranada keçiriləcək növbəti sammitində iştirak edir. 2022-ci ildə Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə yaradılmış bu siyasi platforma Azərbaycan ictimaiyyətinə yaxşı tanışdır. Yazımız isə bu tanışlığın nəyə, hansı cəhətlərə əsaslanması və uğur formulu ilə bağlıdır.**

Əvvəla, tam əminliklə deyə bilərik ki, ASB dövlətimizin başçısının strateji baxışının, uzaqgörən xarici siyasət xəttinin növbəti təntənə müstəvisidir. Bu platforma Azərbaycana digər Avropa ölkələri ilə siyasi dialoq aparmaq, Cənubi Qafqazdakı vəziyyətlə bağlı mövqeyini ifadə etmək və beynəlxalq ictimaiyyətin diqqətini regiondakı vacib məsələlərə yönəltmək imkanı verir.

Digər tərəfdən, hazırda ölkəmiz "köhnə qitə"nin enerji təchizatında getdikcə daha vacib rol oynayır. Ayrı-ayrı panellərdə, eləcə də fərdi təmaslarda enerji təhlükəsizliyi məsələləri müzakirə olunduğundan Bakı ASB-yə mövcud sahədəki əməkdaşlığı genişləndirmək müstəvisi kimi də yanaşır. Bütün bunlar öz yerində. İndi isə daha vacib məqama keçid alaq.

*

Məlum olduğu kimi, ASB-nin ilk toplantısı 2022-ci ilin oktyabrında Praqada keçirilmişdi. Həmin sammitdə Prezident İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Fransa Prezidenti E.Makronun iştirakı ilə qeyri-rəsmi görüş olmuşdu. Yeri gəlmişkən, Makron danışıqlar masasına özünü son dəqiqələrdə ata bilmişdi. Onun məqsədinin nəyə hesablandığını və sonradan özünü necə göstərdiyini vurğulayacağıq.

Hələlik isə bildirək ki, ASB-ni Bakı–İrəvan münasibətlərinin tənzimlənməsi baxımından uğurlu siyasi düzən saymaq mümkündür. Hərçənd, bu müstəvi heç də rəsmi tənzimləyici platforma deyildi. Uğur isə ondan ibarətdir ki, ilk dəfə olaraq Praqada Ermənistanın baş naziri N.Paşinyan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan etmiş və bu amil danışıqların perspektivi üçün nikbinlik yaratmışdı. Amma…

"Əmması" odur ki, Praqada tərəflər 2022-ci ilin dekabrında yenidən görüşmək barədə razılığa gəlsələr də, "Brüssel formatı" çərçivəsində, yəni Ş.Mişelin vasitəçiliyi ilə növbəti təmas gerçəkləşmədi. Makron ASB-nin sammitindən heç iki həftə keçməmiş yerli televiziyaya müsahibəsində Azərbaycanı "işğalçı" adlandırdı, Rusiyanı isə müttəfiqi Ermənistanın maraq və mənafelərini satmaqda günahlandırdı. Beləliklə o, Brüssel masasında oturmaq şansını itirdi. Yəni, Fransa Prezidenti aşkar tərəfkeşlik xətti götürdü. N.Paşinyan isə bildirdi ki, dekabrda Azərbaycan Prezidenti ilə görüşə yalnız Makronun iştirak edəcəyi təqdirdə qatılacaq. Ölkəmiz bunu qəbul edə bilməzdi və etmədi. Nəticədə Ş.Mişelin vasitəçilik missiyası fiaskoya uğradı. Ancaq iflas hələ qarşıda idi…

*(ardı 3-cü səhifədə)*

## Azərbaycanda rəqəmsallaşma dövrü



Səhifə ⇨ 7

## Məhəmməd Şahbaz Şərif İlham Əliyevə təşəkkür edib



**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Pakistanın Baş naziri dövlətimizin başçısına Hindistanın ölkəsinə qarşı hərbi hücumları və atəşkəsin əldə olunduğu haqqında məlumat verib. Məhəmməd Şahbaz Şərif baş vermiş böhran zamanı Azərbaycanın göstərdiyi diplomatik, siyasi dəstəyə və Pakistan xalqı ilə həmrəyliyinə görə təşəkkürünü ifadə edib, bunun ölkələrimiz arasında qardaşlıq münasibətlərinin nümunəsi olduğunu bildirib.

Dövlətimizin başçısı regionda atəşkəsin təmin olunduğunu məmnunluqla qeyd edib, Azərbaycan xalqı və dövləti tərəfindən Pakistana dəstəyin və həmrəyliyin ifadə edildiyini bir daha diqqətə çatdırıb.

Telefon danışığı zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat Xidməti*

## Hindistanı Fransa kimi görmək istəmirik

**Azərbaycanın Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Azərbaycan–Hindistan münasibətlərinin perspektivinə münasibət bildirib. O, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin genişləndirilmiş iclasında "Qlobal Cənubun yüksəlişi və Qərb: Azərbaycanın rolu, əməkdaşlıq və inkişaf üçün yeni imkanlar" mövzusundakı müzakirədə Hindistanın vacib ölkə olduğunu da vurğulayıb.**



Qeyd edək ki, Hindistan Azərbaycanın müttəfiqi, bütün sahələrdə yüksək əlaqələrə malik qardaş Pakistanla, yumşaq desək, soyuq münasibətlərdədir. Bu günlərdə Hindistan – Pakistan qarşıdurmasının xeyli gərginləşməsindən, əsl müharibə ab-havasının yaranmasından və bu ab-havanın hələ sovuşmadığından xəbərdarıq. Ancaq ölkəmizin xarici işlər naziri müavininin fikirlərindən gəlinən nəticə odur ki, rəsmi Bakı Nyu-Dehli ilə münasibətlərini İslamabadla əlaqələri kontekstində dəyərləndirmir.

Ayrıca onu bildirək ki, ölkəmiz Hindistan və Pakistan arasında uzun illər davam edən Kəşmir münaqişəsində neytral və balanslı mövqe tutur. Azərbaycan münaqişənin beynəlxalq hüquq çərçivəsində və BMT-nin qətnamələrinə uyğun, dinc yolla həllinin tərəfdarıdır. Beynəlxalq hüquq nəyi tələb edirsə, mövqeyimiz ona uyğun açıqlanır. Ümumən, Azərbaycanın Kəşmir məsələsinə yanaşması diplomatik xarakter daşıyır. Ölkəmiz münaqişəyə sülh yolu ilə son qoyulmasının vacibliyi üzərində dayanır, konfliktin gərginləşməsinə səbəb olacaq mövqe tutmaqdan çəkinir.

*(ardı 4-cü səhifədə)*

## Milli kimlik vicdan azadlığı kontekstində



Səhifə ⇨ 6

### *Ana Qasımova:*

## "Ürəyimiz Azərbaycanla döyünür"




Səhifə ⇨ 13

# Albaniya Respublikasının Baş naziri Zati-aliləri cənab Edi Ramaya

**Hörmətli cənab Baş nazir!**

Ölkənizdə keçirilmiş parlament seçkilərində başçılıq etdiyiniz Albaniya Sosialist Partiyasının qələbəsi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Lideri olduğunuz partiyanın bu yeni uğuru Albaniyanın rifahı naminə həyata keçirdiyiniz ümummilli siyasətə, çoxşaxəli fəaliyyətinizə verilən yüksək qiymətin ifadəsi, xalqınızın Sizə olan inam və dəstəyinin bariz təzahürüdür.

Azərbaycan ilə Albaniya arasında qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edən dövlətlərarası münasibətlərin və əməkdaşlığın səviyyəsi məmnunluq doğurur. Əminəm ki, ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın həm ikitərəfli, həm də çoxtərəfli əsasda müvəffəqiyyətlə davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Albaniya xalqının firavanlığı naminə məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 may 2025-ci il**

# “Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 dekabr tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 dekabr tarixli 387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1541 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1** 1-ci hissədə, 2.1-ci və 2.2-ci bəndlərdə “və yenidənhazırlanma növləri” sözləri “istiqaməti” sözü ilə əvəz edilsin.

**2** 4-cü hissə üzrə:

2.1. 4.1-ci bənddə “növü” sözü “istiqaməti” sözü ilə əvəz edilsin;

2.2. 4.2-ci bənd ləğv edilsin;

2.3. 4.3-cü bənddə “və yenidənhazırlanma növləri” sözləri “istiqaməti” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 may 2025-ci il**

# MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 72-ci iclası



**Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının videokonfrans formatında növbəti 72-ci iclası keçirilib.**

Dövlət Statistika Komitəsindən bildirilib ki, qurumun sədri Tahir Budaqovun sədrliyi ilə keçirilən videokonfransda MDB Dövlətlərarası Statistika Komitəsinin sədri, üzv dövlətlərin statistika qurumlarının rəhbərləri və rəhbər müavinləri, MDB İcraiyyə Komitəsinin və Avrasiya İqtisadi Komissiyasının nümayəndələri iştirak ediblər.

Şuranın iclasında MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 2024-cü ildə fəaliyyəti, MDB Dövlətlərarası Statistika Komitəsinin 2024-cü ildə gördüyü işlər, 2026-2027-ci illər üçün “MDB statistikasının inkişafı” layihəsinə dair təkliflər və digər məsələlər haqqında müzakirələr aparılıb, müvafiq qərarlar qəbul olunub.

***XQ***

# Azərbaycan–Pakistan logistika əməkdaşlığı



**Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin tərkibində fəaliyyət göstərən “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Rövşən Rüstəmov Pakistanın dəmir yolları üzrə dövlət naziri Bilal Azhar Kayani ilə görüşüb.**

QSC-dən bildirilib ki, görüşdə beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan və Pakistan arasında dəmiryol sahəsində əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub.

Beynəlxalq nəqliyyat marşrutları üzrə əməkdaşlığın daha da genişləndirilməsi, iki ölkə arasında yük dövriyyəsinin artırılması, eləcə də Pakistan–Əfqanıstan–Türkmənistan–Azərbaycan marşrutu üzrə konteyner daşımalarının təşkili imkanları müzakirə olunub.

***XQ***

# Əli Əsədov Çinin Azərbaycandakı səfiri ilə görüşüb



**Mayın 15-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Lu Mey ilə görüşüb.**

Nazirlər Kabinetindən bildiriblər ki, görüşdə Prezident İlham Əliyevin və Çinin Sədri Si Cinpinin birgə səyləri nəticəsində Azərbaycan–Çin münasibətlərinin dinamik inkişafı məmnunluqla vurğulanıb.

Prezident İlham Əliyevin Çinə son dövlət səfərinin əhəmiyyəti qeyd edilib. Dövlət başçılarının imzaladıqları “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat”ın iki ölkə arasındakı münasibətləri daha yüksək səviyyəyə qaldırdığı diqqətə çatdırılıb.

Görüşdə Azərbaycan ilə Çin arasında ticarət-iqtisadi və humanitar əməkdaşlığın aktual məsələləri müzakirə edilib, qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

***XQ***

# Azərbaycan–Macarıstan parlamentlərarası münasibətlər müzakirə olunub



**Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Macarıstan Milli Assambleyasının sədr müavini Sandor Lezsakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan və Macarıstan arasında dostluq, qarşılıqlı hörmət və sıx əməkdaşlığa əsaslanan strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğu qeyd olunaraq, ölkələrimizin siyasi, iqtisadi, enerji, nəqliyyat, kənd təsərrüfatı, təhsil və digər sahələrdə fəal əməkdaşlıq etdikləri diqqətə çatdırılıb. Yüksəksəviyyəli, o cümlədən dövlət və hökumət başçılarının qarşılıqlı səfərlərinin münasibətlərin daha da genişlənməsindəki vacib rolu xüsusi vurğulanıb.

Söhbət zamanı ölkələrimiz arasında digər sahələrdə olduğu kimi qanunvericilik orqanları arasında da geniş əlaqələrin mövcudluğu qeyd edilib. Parlament sədrlərinin, həmçinin dostluq qruplarının və deputatların qarşılıqlı səfərlərinin, fəal təmaslarının bu əlaqələrə dinamizm verdiyi bildirilib. Parlamentlərimizin Parlamentlərarası İttifaq, ATƏT PA, NATO PA və digər beynəlxalq parlament təşkilatlarında da əməkdaşlığından məmnunluq ifadə olunub.

Milli Assambleyanın sədr müavini Macarıstan Parlamentinin spikeri Laslo Koverin salamlarını və xoş arzularını Milli Məclisin sədrinə çatdırıb. O, ölkəsinin dost Azərbaycanla münasibətlərin inkişafına böyük önəm verdiyini ifadə edib.

*

**Milli Məclisin sədri Sahibə Qafarova mayın 15-də Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Lu Mey ilə görüşüb.**

S.Qafarova Azərbaycanın və Çinin bütün sahələrdə aktiv qarşılıqlı fəaliyyət göstərdiyini, siyasi sahə ilə yanaşı, digər sahələrdə də uğurlu əməkdaşlıq əlaqələrinin mövcud olduğunu söyləyib. O, bu gün ölkələrimiz arasında münasibətlərin özünün ən yüksək inkişaf mərhələsinə - hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə qalxdığını vurğulayıb.

Söhbət zamanı Prezident İlham Əliyevin Çinə dövlət səfərinin əhəmiyyəti qeyd edilərək, iki ölkə arasında imzalanan “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat”ın münasibətlərimizin yüksək səviyyəsinin daha bir göstəricisi olduğu vurğulanıb.

Görüşdə parlamentlərimiz arasında əlaqələrin ölkələrimiz arasında münasibətlərin mühüm tərkib hissəsini təşkil etdiyi diqqətə çatdırılaraq, parlamentlərarası əməkdaşlığın, o cümlədən parlamentlərin dostluq qrupları və komitələri arasında əlaqələrin inkişafından məmnunluq ifadə olunub.

Görüşdə Azərbaycan və Çinin beynəlxalq müstəvidə də əməkdaşlıq etdikləri qeyd olunub, ölkələrimizin daim bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədikləri məmnunluqla vurğulanıb.

*

**Milli Məclisin sədri Sahibə Qafarova həmin gün Qazaxıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Alim Bayel ilə də görüşüb.**

Parlamentlərimiz arasında əlaqələr haqqında danışan Milli Məclisin sədri vurğulayıb ki, Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri də parlamentlərimizin qarşılıqlı fəaliyyətidir.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində parlamentarilərimizin qarşılıqlı fəaliyyətinin əhəmiyyəti də vurğulanaraq, xüsusilə TÜRKPA çərçivəsində əməkdaşlığın önəmi diqqətə çatdırılıb.

Səfir Alim Bayel də ölkələrimiz arasında yüksəksəviyyəli əlaqələrdən məmnunluğunu bildirərək, Azərbaycan ilə Qazaxıstan arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində görülən işlər haqqında danışıb.

***XQ***

# Baş Prokurorluqda əməliyyat müşavirəsi

**Dünən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə Baş Prokurorluğun, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının məsul şəxslərinin iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.**




Müşavirədə çıxış edən Baş prokuror 2025-ci ilin 4 ayı ərzində prokurorluq orqanlarının fəaliyyəti və görülmüş işləri təhlil edərək qarşıda duran vəzifələrə dair bir sıra tapşırıqlar verib.

Qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin qurucusu və banisi olduğu müasir Azərbaycanda Prezident cənab İlham Əliyevin çağdaş dövrün çağırışlarına uyğun islahatlar həyata keçirməsi hüquq sahəsində də müasirləşməni təmin edib və bu islahatlar prokurorluq orqanlarının fəaliyyətinə müsbət təsirini göstərib, xidməti fəaliyyətdə keyfiyyət və səmərəlilik nəzərəçarpacaq dərəcədə yüksəlib. Lakin əldə edilmiş nailiyyətlərə kifayətlənilməməli, mövcud vəziyyət təhlil edilməklə, habelə qabaqcıl beynəlxalq təcrübə öyrənilərək fəaliyyətin daha da səmərəli olması üçün tədbirlərin icrası davam etdirilməlidir.

Çıxış zamanı həmçinin qeyd olunub ki, prokurorluq orqanları tərəfindən dövlətin təhlükəsizliyinə qəsd edən cinayətlərə qarşı mübarizə bundan sonra da gücləndirilməli, cinayətkarlığın bütün növlərinə qarşı mübarizə sahəsində və qanunçuluğun qorunmasında digər hüquq-mühafizə orqanları ilə koordinasiyalı fəaliyyət davam etdirilməlidir.

Baş prokuror prokurorluğun qanunla müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə, o cümlədən prosessual rəhbərlik və prosessual nəzarət, ibtidai araşdırmanın keyfiyyətinin və tezliyinin artırılması, qətimkan tədbirlərinin seçilməsi, dövlət ittihamının müdafiəsi, vətəndaşların müraciətlərinə baxılması sahəsində işin səmərəliliyinin artırılması istiqamətində konkret göstərişlər verib.

Bundan başqa Baş prokuror əhalinin hüquqi biliyinin artırılması istiqamətində konkret sahələr üzrə maarifləndirmə tədbirlərinin həyata keçirilməsinin, ali təhsil müəssisələrinin hüquq fakültələri ilə gənc hüquqşünaslarının yetişdirilməsi işində yaxından əməkdaşlıq edilməklə tədris prosesində prokurorluq əməkdaşlarının iştirakının davam etdirilməsinin vacibliyini vurğulayıb.

Çıxış zamanı həmçinin ikitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsinin beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsinin zəruriliyi diqqətə çatdırılıb və prokurorluq əməkdaşları tərəfindən xarici ölkələrdə təlim-tanışlıq tədbirlərində iştirak etməklə qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqinin təmin edilməsinin vacibliyi qeyd olunub.

Baş prokuror tərəfindən “Elektron Prokurorluq” informasiya sisteminin bütün prokurorluq orqanlarında tətbiq olunduğu, bu sistemin həmçinin cinayət-prosessual fəaliyyətin rəqəmsal müstəviyə keçməsinə imkan verdiyi bildirilməklə müasir çağırışlara uyğun olaraq sistemin daim təkmilləşdirilməsi və mümkün fəaliyyət istiqamətləri üzrə süni intellektin tətbiq edilməsi imkanlarının nəzərdən keçirilməsi ilə bağlı göstərişlər verilib.

Müşavirə zamanı həmçinin xidməti fəaliyyətin konkret sahələri üzrə yol verilmiş nöqsanlar səsləndirilməklə onların aradan qaldırılması istiqamətində görülməli işlər, qarşıda duran vəzifələr barədə geniş müzakirələr aparılıb.

Yekunda Baş prokuror prokurorluq əməkdaşlarının bundan sonra da Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə üzərlərinə düşən vəzifələri layiqincə icra edəcəklərinə, vətəndaşlarının hüquq və azadlıqlarının müdafiəsi, cinayət təqibi və cinayət təqibindən kənar icraatın həyata keçirilməsində qanunların icrasına nəzarətin ən yüksək səviyyədə həyata keçirəcəklərinə əminliyini ifadə edib.

***XQ***

# Avropa Siyasi Birliyi – Praqa uğurundan Tirana nikbinliyinə

(əvvəli 1-ci səhifədə)

ASB çərçivəsində Azərbaycan–Ermənistan münasibətləri növbəti dəfə bu platformanın 2023-cü ildə Moldovada keçirilmiş sammiti zamanı müzakirə olundu. Həmin vaxt masada yenə Fransa Prezidenti var idi. Almaniyanın hazırda sabiq olan Federal Kansleri Olaf Şolts da həmçinin. Yəni, müəyyən mənada, paritet yaranmışdı. Daha doğrusu, paritet görüntüsü. Amma elə o zaman aydın idi ki, ASB Bakı və İrəvan arasında danışıqlar formatı şansını itirib. Hərçənd, birliyin 2023-cü ildəki Qranada sammiti bununla bağlı, az da olsa, nikbinlik yaradırdı.

Məsələ ondadır ki, Azərbaycan dövləti vasitəçilik missiyasında Ş.Mişellə yanaşı, Makronun, daha sonra Şoltsun təmsilçiliyinə xüsusi etiraz etməmişdi. Makron vasitəçilik yox, Paşinyana "bacılıq" elədi, yəni aşkar tərəfkeşliyi ilə yadda qaldı. Alman kanslerə gəldikdə, o, Fransa Prezidenti olan yerdə ədalət tərəzisini işə salmağı bacarmadı. Əslində, ölkəmizin rəhbərliyi bu gedişatı əvvəldə də dərk edirdi. Ancaq rəsmi Bakı təmasların davamlılığını, sülh yolunda ləngimələrin yaranmamasının vacibliyini prinsipial məqam kimi nəzərə aldı və ASB-nin Qranada sammiti çərçivəsindəki görüşə razılıq verdi. Amma bir şərtlə ki, danışıqlar masasına Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da əyləşməlidir.

Lakin masanı özlərinin "haqqı bilənlərin" erməni təəssübkeşliyi o qədər güclü oldu ki, şərtimiz keçmədi. Belədə Azərbaycan tərəfi Qranada görüşündən imtina etdi. Ölkəmiz prinsipal davrandı və başqa cür ola bilməzdi. İmtina həm də ona görə haqlı idi ki, ASB-nin 2023-cü ilin oktyabrında İspaniyanın Qranada şəhərində keçirilmiş sammitində Qərbin ermənipərəstlik xətti özünün pik həddinə çatdı. Görünür, Silahlı Qüvvələrimizin bir ay əvvəlki lokal xarakterli uğurlu antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ermənipərəstlərin kürkünə birə salmışdı. Bəli, onların əvvəlki manevr imkanları heçə enmişdi. Azərbaycan mütləq güclü tərəfə çevrildiyindən duruma əsaslı təsir göstərmək iddiaları baş qaldırmışdı.

Beləliklə, iddialılar – Mişel, Makron, Şolts və Paşinyan Qranada kluarlarında birləşərək bəyanat qəbul etdilər. Azərbaycanın iştirakı olmadan imzalanmış sənəddə, ayrıca olaraq, Ermənistanın müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığına sarsılmaz dəstək ifadə olundu. Deməli, bəri başdan ortaya tərəfkeşlik qoyuldu. Ardınca Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında münasibətlərin normallaşdırılmasına yönəlmiş səylərə sadiqlik bildirildi ki, bu, ümumi şablon idi, heç bir gerçək əhəmiyyət daşımırdı.

Açıq tərəfkeşliyə gəlincə, sənəddə xüsusən 2023-cü ilin sentyabrından sonra (lokal xarakterli antiterror tədbirlərindən – red.) Qarabağdan köçmüş ermənilərin öz evlərinə



və yaşayış yerlərinə qayıtmaq hüququnun təminatı, prosesin beynəlxalq monitorinq altında və insan hüquqlarına hörmətlə həyata keçirilməsi zərurəti qeyd olundu. Məsələnin belə qoyuluşu rəsmi İrəvanın, ümumən dünya erməniliyinin Qarabağ avantürasının davamına "xidmətdən" başqa bir şey deyildi.

Bəyanatda tərəfkeşliyin növbəti təzahürü isə Ermənistana əlavə humanitar yardımın göstərilməsinə və bütün sahələrdə Avropa İttifaqı–Ermənistan münasibətlərinin gücləndirilməsinə dair bəndin yer alması idi. Bu müddəa ilə Azərbaycan, bir növ, şantaj edilirdi. Yəni, təxminən belə: əgər Bakı İrəvan üçün sərfəli sülhə razılaşmasa, Qərb Ermənistanı özünü müdafiə çətiri altına götürəcək. Bir sözlə, haylar üçün növbəti illüziya.

Fikrimizin təsdiqi baxımından deyək ki, 2024-cü ilin fevralında Avropa Parlamentində Ermənistanın Aİ-yə üzvlüyə namizədliyi imkanlarına baxmağı təklif edən qətnamə çıxarıldı. Sənəd İrəvanın Qərbyönlü xarici siyasət kursuna keçidinə və Rusiyadan asılılığının azaldılmasına dəstəyin göstəricisi idi. Əlbəttə, sonradan Aİ–Ermənistan yaxınlaşmasının başqa təzahürləri də qeydə alındı. Bunun başlangıcı məhz ASB-nin Qranada sammitində qoyuldu. Ümumən, belə nəticə hasil oldu ki, Ş.Mişelin həmin vaxtadək pozitiv təsir bağışlayan vasitəçiliyi incə düşünülmüş oyun imiş. Oyunun tam şəkildə üzə çıxması Aİ Şurası Prezidentinin missiyası üçün iflas aqibətini yaşatdı. Yəni 2022-ci ilin dekabrındakı fiasko iflasla sona çatdı.

Prinsipial xəttinə sadiq qalan Azərbaycan məlum Qranada bəyanatını qəbul etmədi. Ölkəmizin rəhbərliyi həmçinin bildirdi ki, rəsmi Bakı İrəvanla danışıqlardan imtina etmir və Brüssel prosesi çərçivəsində sülh gündəliyinə sadiqdir. Nəticə etibarilə, onu deyə bilərik ki, sözügedən sammit Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması və regional sabitliyin təmin olunması baxımından heç bir əhəmiyyət daşımadı. Elə ona görə də Azərbaycan Ermənistanla birbaşa danışıqlar xəttini irəli sürdü və ötən müddət göstərdi ki, ən optimal format da elə budur.

*

Sonda qeyd edək ki, Prezident İlham Əliyevin şəxsində Azərbaycan dövləti ASB-nin bu gün öz işinə başlayacaq Tirana sammitində, ümumən, bu formatın müsbətli-mənfili tərəflərini nəzərə alaraq təmsil olunur. Heç şübhəsiz, toplantı üçün Cənubi Qafqaz gündəliyi və Azərbaycan–Ermənistan sülhü də aktual olacaq. Çünki həm mövcud müstəvidə müxtəlif cəhətlərini canlandırdığımız keçilmiş yol var, həm də ümumən region beynəlxalq aləmin diqqət mərkəzindədir.

Bəli, pafoslu səslənsə də deyək ki, dünya Cənubi Qafqazda dayanıqlı sülhün təmin olunmasını gözləyir və hər bir halda ASB-nin Praqa sammitinin əvvəldə diqqətə çatdırdığımız nikbin ovqatı bunun üçün əsasdır. Həmin sammitdən sonra Bakı və İrəvan arasında bir çox irəliləyişlər əldə olunub. Ən əsası, hazırda tərəflər sülh müqaviləsinin bütün bəndlərini razılaşdırıblar.

Onu da xüsusi vurğulamalıyıq ki, Praqada Prezident İlham Əliyev Fransa, Aİ və Ermənistanın Azərbaycana qarşı məkrli planını pozmuşdu. Dövlətimizin başçısının çoxgedişli uğurlu kombinasiyası nəticəsində Makron–Paşinyan ikilisi Azərbaycanın ərazi bütövlüyünü tanımağa və Alma-Atı Bəyannaməsinə istinad etməyə məcbur qalmışdı. İkili heç də hər şeyi öz xoşu ilə etməmişdi. Buna şahmatda suksvanq deyilir. Yəni, onların başqa gediş imkanları qalmamışdı. Görünür, ona görə Fransanın İrəvandakı səfiri Olivye Dekotini bildirir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini Praqada yox, 1991-ci ildə Alma-Atı Bəyannaməsi ilə tanıyıb. Çünki Paris ermənipərəstlik xəttindəki ağır məğlubiyyətini indi də həzm edə bilmir.

Bəli, Azərbaycanın suverenliyinin tam təminatının bünövrəsi məhz Praqada qoyulmuşdu. Nəzərə alaq ki, 2022-ci ildə Qarabağda hələ Rusiya Sülhməramlı Kontingenti də var idi, artıq canını tapşırmış separatçı rejim də varlığını sürdürürdü. Onu da nəzərə alaq ki, bəzi rusiyalı ekspert və siyasətçilər, habelə Ermənistandakı revanşist kəsim Praqada qəbul edilmiş bəyanatı indinin özündə də tənqid edirlər.

Ümumiləşdirmə apararaq belə qənaətə gəlmək olar ki, ASB platforması ölkəmiz üçün uğurludur. Üstəlik, bu müstəvidə gələcək uğurlar üçün də təminat var. Əlbəttə, ən böyük uğur təminatı Azərbaycan dövlətinin Prezident İlham Əliyev tərəfindən həyata keçirilən mükəmməl xarici siyasət xəttidir və ASB-nin Tirana sammitinin də ölkəmizin növbəti nailiyyətlərinə şahidlik edəcəyinə tam əminik.

***XQ-nin analitik qrupu***

# Dünyanın dəyişən nizamı kimlərə nə vəd edir?

## *Azərbaycan diplomatiyası bütün platformalarda uğura hesablanıb*

**Bu gün dünyanın siyasi xəritəsinin əsaslı şəkildə deformasiyaya uğradığını müşahidə edirik. Köhnə düzən pozulmaqda, qloballaşma isə böhranlara səbəb olmaqdadır. Belə narahat dönəmdə özünün daxili resurslarına arxalanan Azərbaycan beynəlxalq arenada düşünülmüş və balanslaşdırılmış siyasət yürüdür. Bu, həm bölgə ölkələri, həm də dünya oyunçuları ilə münasibətlərdə sistemli şəkil alıb. Əlbəttə, bu zaman əsas prioritet milli maraqların gözlənilməsidir.**

Qloballaşma elə sürətlə gedir ki, uzaq qitələrdə baş verənlər bu və ya başqa formada yerli hakimiyyətlərə və siyasi şəraitə təsirsiz ötüşmür. Son nəticədə kimin qazanıb, kimin itirəcəyini müəyyən etmək belə çətindir. Biz hələ pərdə arxasında gedən oyunları demirik. Qərbi Kaspi Universitetinin professoru, politoloq, sabiq diplomat Fikrət Sadıxovla söhbətimiz Azərbaycanın qlobal təşəbbüsləri, Şərq–Qərb marşrutu üzrə sərgilədiyi diplomatik demarşları, eləcə də bölgədə və dünyada baş verən, əsəbləri tarıma çəkən olaylar, bu kontekstdə güc mərkəzlərinin sərgilədiyi mövqe və hərəkətləri ətrafındadır.

**– Azərbaycan Prezidentinin Çinə səfəri, Qərbdə hələ də müzakirə mövzusudur. Bu səfər "kollektiv Qərb"də müəyyən təlaş yaradıb. Səfərdən dərhal sonra Aİ rəsmisinin Bakıya təşrif buyurması da təsadüf sayıla bilməz...**

– Çin özəl maraqları, prinsipial mövqeyi ilə seçilən nəhəng bir dövlətdir. Rəsmi Pekin bir çox məsələlərdə Qərblə, digər aktorlarla münasibətlərini ardıcıl şəkildə həyata keçirir. Azərbaycan liderinin Çinə səfər etməsi, strateji tərəfdaşlıq barədə sənəd imzalaması həmin "kollektiv Qərb"in bəzi üzvlərinin maraqlarına nəinki cavab vermir, bu, onların narahatlığına səbəb olur. Əsas səbəb Azərbaycan–Çin münasibətlərinin siyasi cəhətdən ən yüksək səviyyəyə qalxmasıdır. Ardınca Vyetnam liderinin Bakıya rəsmi səfərinin bu narahatlığı daha da artırdığını söyləyə bilərik. Azərbaycanın Cənubi Asiyanın sürətlə inkişaf edən bu ölkəsi ilə də münasibətlərin Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanatla möhkəmləndirilməsi tamamilə yeni bir iqtisadi-siyasi platforma yaratmış oldu. Bu isə heç şübhəsiz, bəzi dövlətləri narahat etməyə bilməzdi.

Çinlə münasibətlərimizə xüsusi rəng qatan bir amil də Pekinin Hindistan–Pakistan qarşıdurmasında İslamabadın yanında olmasıdır. Çünki bizim kimi Çin də bu münaqişədə Pakistanın haqlı olduğunu başa düşür. Bu, heç də subyektiv yanaşma deyil. Həm tarixi, həm də geostrateji baxımdan ədalət Pakistanın tərəfindədir. Türkiyə ilə yanaşı, Çinin də Pakistanı dəstəkləməsi Azərbaycanın maraqlarına cavab verir və biz Pekinin İslamabadla həmrəyliyini ölkəmizə verilən qiymət və əhəmiyyət kimi qəbul edə bilərik. Məhz bu kontekstdən yanaşsaq, Avropa İttifaqının yüksək rütbəli nümayəndəsi Kaya Kallasın Bakıya məlum səfərini Azərbaycan–Çin əlaqələrinin güclənməsindən Avropanın əndişələnməsi ehtimalını gündəmə gətirir. Axı, Aİ Asiyada yeni güc mərkəzinin yaranmasını çox yaxşı anlayır. Görünür, Qərb bu gücdən ya səmərəli istifadə etmək barədə düşünür, ya da asiyalı oyunçuları bir-birindən təcrid etmək, neytrallaşdırmaq fikrindədir. Aİ-nin bu yeni geosiyasi platformaya qarşı çıxış edə biləcəyini də nəzərdən qaçırmaq olmaz. Hesab edirəm ki, Qərbin yeni birliyə qarşı atacağı heç bir addımı müsbət sonuclanmayacaq. Çünki müsbət nəticə əldə etmək üçün onun nə gücü, nə də imkanı var. Əslində, indiki durumda Aİ müəyyən dərəcədə Azərbaycandan asılıdır. Ölkəmiz Avropanın on iki ölkəsinə neft və qaz nəql edir, onların enerji təhlükəsizliyini təmin edir. Yəni, Bakı Qərb platformasında da münasibətlərin inkişafa yönəlməsinə etiraz etmir. Bunu yaxşı anlayan Kaya Kallas, güman edirik ki, bölgədə sülhün və sabitliyin yaranmasının tərəfdarıdır. Amma bunu hansı formada və istiqamətdə həyata keçirəcəkləri hələ məlum deyil. Məlum olan odur ki, Brüssel Azərbaycanın bölgədə güc və söz sahibi olduğunu qəbul etməyə başlayıb...

**– Fikrət müəllim, ABŞ Prezidentinin Cənubi Qafqaz siyasətinin konturları görünməkdədir. Donald Trampın İlham Əliyevə Novruz təbrikində yazdığı "Sizinlə işləməyi səbirsizliklə gözləyirəm" mesajı maraqla qarşılandı. Yəni, bu, münasibətlərin perspektivinə işarədir? Bu barədə nə düşünürsünüz?**

– Donald Tramp Administrasiyasının xarici siyasət xətti əvvəlki komandanın yanaşmasından xeyli fərqlənir. Yeni tarix bunu dəfələrlə sübuta yetirib: respublikaçılar Cənubi Qafqaza, Azərbaycana münasibətdə qarşılıqlı maraqların gözlənildiyi addımları atıblar, başqa sözlə, bu məsələyə daha praqmatik yanaşma sərgiləyiblər. Biz bu ənənəni indi də müşahidə edirik. Vaşinqton çox yaxşı bilir ki, bölgədə Azərbaycanın oynadığı rol kifayət qədər böyük və təsirlidir. Onu da dərk edir ki, ölkəmiz Birləşmiş Ştatların Yaxın Şərqdəki müttəfiqi sayılan İsrail ilə də münasibətləri düzgün məcrada qurub. Orada münaqişənin hələ davam etməsinə baxmayaraq, Bakı İsraillə münasibətləri yüksək səviyyədə saxlayır və ikitərəfli əlaqələri inkişaf etdirməkdə maraqlıdır. Ağ evdəki yeni komanda bunu da bilir və qiymətləndirir. Azərbaycan, eyni zamanda, Fələstin xalqının da üzləşdiyi problemlərə biganə qalmır. Ramalla şəhərində diplomatik nümayəndəliyimizin fəaliyyət



göstərməsi təsadüfi deyil. Bakının bu addımı məsələyə həssas yanaşması kimi qəbul edilməldir. Baxmayaraq ki, bəzi dövlətlər Azərbaycanın bu mövqeyinə narazılıqlarını bildiriblər. Amma Bakının öz prinsipial mövqeyindi bundan sonra da davam etdirəcəyinə əminəm.

**– İndi də dünyanın nəzərlərinin dikildiyi Yaxın Şərqdə baş verənlərə nəzər yetirək. Beynəlxalq ekspertlərin bir çoxu bu qənaəti bölüşür: Fələstin məsələsi həll olunana qədər Yaxın Şərqdə sabitlik olmayacaq. Bu fikirlə razılaşırsınızmı?**

– Bu münaqişə hər iki dövlətin yaradılması barədə yarandığı vaxtdan – 1948-ci ildən başlayaraq alovlanma mərhələsini adlamayıb. Çoxsaylı silahlı toqquşmaların nəticəsində HƏMAS kimi radikal qüvvələr meydana gəlib. Yaxın Şərqin indiki hərbi-siyasi mənzərəsi belə təsəvvür yaradır ki, İsrailin bu təşkilata qarşı atdığı bəzi addımları sülhə gətirib çıxara bilər. Bu perspektiv nə qədər şübhəli görünsə də, hər halda, radikalizm aradan qaldırılmalıdır. Belə radikal qüvvələrin orada mövcudluğu Yaxın Şərqin digər ölkələrinin və xalqlarının maraqlarına cavab vermir. Axı, silahlı qarşıdurmadan onlar da əziyyət çəkirlər. İnfrastruktura ciddi ziyan vurulur. Görünən odur ki, bu bölgədə yeni siyasi nizam yaradılmaldır. Bizə belə gəlir ki, ABŞ-ın vasitəçiliyi ilə burada sülhə gəlməkdən ötrü qarşılıqlı razılaşmanın əldə olunması, hansısa sazişin imzalanması üçün imkan yaranacaq.

**– Azərbaycan–Rusiya münasibətlərində "soyuq" dövr hələ başa çatmayıb. Sizcə, Şimal qonşumuzla münasibətlərin normallaşmasına mane olan səbəblər hansılardır?**

– Azərbaycan–Rusiya münasibətləri bir sıra sənədlər – tərəfdaşlıq, strateji müttəfiqlik üzərində qurulub. Eyni zamanda, onu da yaxşı başa düşürük ki, Moskvanın bölgə ilə bağlı atacağı addımlar səmərəli nəticələr verə bilər. Etiraf etməliyik ki, Rusiyanın Cənubi Qafqazda, xüsusilə də, Ermənistan üzərində təsir imkanları və rıçaqları kifayət qədər böyükdür. Uzun illər boyu Rusiyanın bir əyaləti olan Ermənistan elə indi də bu missiyasından o qədər də irəli getməyib. Bunu baş nazir Nikol Paşinyanın atdığı son addımları əyani surətdə təsdiqləyir. Keçmişin acı aqibətini "unudan" Paşinyan Moskvaya 9 May paradına gedir, Rusiya barədə yüksək pafoslu bəyanatlar verir. Üstəlik, ikitərəfli münasibətlərin inkişaf etməsini yüksək qiymətləndirdiyini bildirir.

Azərbaycan–Rusiya münasibətlərindən danışanda, təbii ki, ölkəmiz Şimal qonşusu ilə ən müxtəlif səviyyələrdə əməkdaşlıqdan heç vaxt imtina etməyib. Bununla bərabər, müəyyən məsələlərlə bağlı bəzi istiqamətlərdə qəti mövqeyimizi nümayiş etdirmişik. Əgər paytaxtın mərkəzində yerləşən "Rus evi"nin gənc əməkdaşlarını kəşfiyyat fəaliyyətinə cəlb edirlərsə, sərnişin təyyarəmiz Rusiya səmasında vurulursa və buna görə təzminat ödənmirsə, çoxlu insan tələfatına səbəb olan qəzaya görə rəsmi üzrxalıq edilmirsə, günahkarlar cəzalandırılmırsa, Bakının buna kəskin reaksiyası normal qəbul olunmaldır. Başqa cür ola da bilməz. Dövlətimizin başçısının Moskvadakı parada getməməsi qarşı tərəfin davranışına adekvat münasibətin və mövqeyin əyani göstəricisidir.

**– Azərbaycanın Türkiyə–İsrail münasibətlərində oynadığı rolu, ümumiyyətlə, nizamlayıcı missiyası barədə fikrinizi bilmək istərdik.**

– Bakı müxtəlif qütbləri təmsil edən qüvvələrin görüşü və dialoqu üçün davamlı olaraq şərait yaradıb. ABŞ və Rusiya Silahlı Qüvvələri Baş Qərargah rəislərinin görüşü məhz Bakıda təşkil edilib. Türkiyə və İsrail nümayəndələri arasında texniki görüşə də evsahibliyi etmişik. Yəni, Bakı dialoq, barış və əməkdaşlıq meydançası kimi etibarlı imic qazanıb. Azərbaycan rəhbərliyi bundan sonra da bu gərəkli missiyanın davamına hazır olduğu dəfələrlə bəyan edib. Bakının tərəfsiz və ədalətli dialoq məkanı, təhlükəsizlik şəraitində danışıqların aparıldığı coğrafiya olduğunu dünyanın aparıcı dövlətləri də qəbul edirlər. Bu imicin formalaşmasında Azərbaycan Prezidenti İlham Əliyevin diplomatik təcrübəyə, möhkəm iradəyə söykənən siyasi qətiyyətini qeyd etməmək mümkün deyil. Hətta münaqişə edən tərəflər dövlətimizin başçısına güvənir və etimad göstərirlər.

**– Son vaxtlar Ermənistanla sülh sazişinin imzalanması məsələsi, sanki, arxa plana keçiib...**

– İrəvanda çox gözəl başa düşürlər ki, Bakının məlum iki şərti yerinə yetirilməsə, heç bir sülh sazişindən söhbət gedə bilməz. Bu, Azərbaycanın prinsipial və dəyişməz mövqeyidir. Ermənistan rəhbərliyi bundan yayınmaq üçün müxtəlif jestlər edir, çapalayır, bəyanatlar verir. Amma son vaxtlar Hayastanın bəzi rəsmilərinin dilindən eşidirik ki, gec-tez yeni konstitusiya qəbul ediləcək və Bakının digər şərtlərinə də əməl olunacaq. İrəvanda ATƏT-in Minsk qrupundan imtina edilməsinin vacibliyini başa düşdüklərini də bildirirlər. Bu reallığı Bakı İrəvana həm diplomatik dildə, həm də başından "döyə-döyə" başa salmağı bacardı. Doğrudur, qarşı tərəf yenə məntiqsiz arqumentlər irəli sürür, guya, bu məsələlərə sülh sazişi imzalandıqdan sonra da baxıla bilər. Bax, bunu anlamaq çətindir. Əgər ortada Qarabağ adlı problem yoxdursa, qalan iki məsələnin sazişlə eyni vaxtda, yaxud sazişi imzaladıqdan sonra həll edilməsinin nə fərqi var? Deyəsən, İrəvan özünə sonuncu dayaq nöqtəsini, saman çöpünü saxlamağa çalışır. Guya, düşdüyü mürəkkəb vəziyyətdən belə yollarla çıxa bilər. Kökündən yanılırlar. Azərbaycan atdığı bütün addımları ilə göstərdi ki, o, bölgədə möhkəm və davamlı sülhə mütləq çatacaqdır. Qarşı tərəf bu reallığı nə qədər tez başa düşsə, onun üçün xeyirli olar.

***Söhbəti qələmə aldı:***
***İmran BƏDİRXANLI***
***XQ***

# “Megobari aktı” – hədəf Gürcüstandır, yoxsa Tramp?

## *“Köhnələr” dostluğun nə olduğunu bilmirlər*

**Prezident Donald Trampın Yaxın Şərq turnesi çərçivəsində Səudiyyə Ərəbistanına səfəri zamanı bildirdiyi fikirlər onu deməyə əsas verdi ki, ABŞ-ın indiyədək həyata keçirdiyi xarici siyasət kursunda başqa dövlətlərin işinə qarışmaq motivi olub və ölkə daha bu ampluada qalmayacaq. O zaman, görəsən, Birləşmiş Ştatlar Konqresinin Nümayəndələr Palatası tərəfindən qəbul edilmiş “Megobari aktı” nə deməkdir? Yoxsa, “köhnələr” inadlarından qalmırlar?**

Əvvəla, onu bildirək ki, “megobari” sözü gürcü dilindən tərcümədə dost deməkdir. Hətta, bu söz özündə dostluğa daha özəl münasibəti ifadə edir. Amma “Megobari aktı”nda dostluqdan əsər-əlamət yoxdur. Elə gürcü tərəfin də yanaşması fikrimizin təsdiqidir.

Deməli, Gürcüstan parlamenti “Megobari aktı” ilə bağlı bəyanat hazırlayıb. Bu barədə məlumatı spiker Şalva Papuaşvili verib və o, sənədin rəhbərlik etdiyi qurumun Xarici Əlaqələr Komitəsinə təqdim



olunduğunu bildirib. Cənab Papuaşvili onu da deyib ki, ABŞ Konqresinin qəbul etdiyi akt “Gürcüstana qarşı düşmənçilik deməkdir”.

*

“Köhnələrdən” söz düşmüşkən isə deyək ki, tam adı “Gürcüstanın hesabatlılıq, davamlılıq və müstəqilliyini qurmaq üçün seçimlərini səfərbər etmək və genişləndirmək aktı (“Mobilizing and Enhancing Georgia’s Options for Building Accountability, Resilience, and Independence Act”)” olan “Megobari aktı” Konqresin Nümayəndələr Palatasında ilk dəfə 2024-cü ilin mayında təqdim olunmuşdu. Yəni, ABŞ-ın sabiq administrasiyasının zamanında. O administrasiya ki, Gürcüstanın daxili işlərinə qarışmaq yolu tuturdu və bunun ən pik həddini ölkədə keçirilmiş parlament seçkiləri zamanı gördük. Birləşmiş Ştatların, o cümlədən, Qərbin müxtəlif emissarları var gücləri ilə gürcü xalqının seçiminə qarşı çıxmağa çalışdılar. Onlar xeyli müddət davam etmiş iğtişaşlar düzənləyərək iqtidar komandasını devirməyə cəhd göstərsələr də, istəklərinə nail ola bilmədilər.

Bəli, konqresmen Co Uilyams tərəfindən təqdim olunmuş “Megobari aktı” əvvəl qəbul edilməmişdi. Bu ilin yanvarında isə yenə həmin Uilyams həmkarları Stiven Koen, Riçard Hanson və Mark Vizi ilə birlikdə sənədi yenidən gündəmə gətirdi. Akt Konqresin müvafiq komitələrində müzakirə olundu. Senatın Xarici Əlaqələr Komitəsi qanun layihəsini martın 27-də nəzərdən keçirdi. Bugünlərdə isə Nümayəndələr Palatası layihəni qəbul etdi.

Qeyd edək ki, “Megobari aktı”, mahiyyətcə, lap başlanğıcda Gürcüstanda prezident üsul-idarəsini möhkəmləndirməyə xidmət məqsədini daşıyırdı. Məsələ ondadır ki, akt hazırlananda qonşu ölkədə ikitirəlik hökm sürürdü. Qərb o zamankı Prezident Salome Zurabişvilini müdafiə edirdi. Layihənin də belə bir müdafiə məqsədindən qaynaqlandığı aydındır.

Bir maraqlı məqam da var ki, ötən il Gürcüstanda hakim komanda əleyhinə etiraz aksiyaları ilə paralel şəkildə, Ermənistanda da baş nazir Nikol Paşinyana qarşı Baqrat Qalstanyanın hərəkatı qeydə alınmışdı. Həmin vaxt Qərb, o cümlədən, ABŞ Gürcüstanda yaşananları xalq inqilabı, Ermənistana olanları isə qanuni hakimiyyəti devirmək niyyəti kimi qiymətləndirmişdi. Bu, açıq-aşkar ikili yanaşma və riyakarlıq idi. Yəni, “Megobari aktı”nın prezident üsul-idarəsini möhkəmləndirmək məramı məhz bu riyakarlıqdan qaynaqlanırdı.

İndi vəziyyət fərqlidir. Zurabişvili prezidentlikdən gedib. Yəni, gürcü xalqı möhkəm dayandı və öz iradəsini qanuni hakimiyyəti dəstəkləməklə ortaya qoydu. Üstəlik, ABŞ-da da hakimiyyət dəyişikliyi yaşandı. Mövcud durumda “Megobari aktı”nın başqa məqsədləri haqqında söz açmağa ehtiyac yaranır. Məsələn, Gürcüstanın Qərbə inteqrasiyasını sürətləndirmək, onu Rusiya ilə əməkdaşlıqdan daşındırmaq, təxminən Ermənistanın gününə salmaqdan danışmağa dəyər. Görəsən, Birləşmiş Ştatlara hazırda belə bir dəst-xətt lazımdırmı?

D.Trampın Səudiyyə Ərəbistanındakı çıxışına nəzərən demək olar ki, Vaşinqton buna ehtiyac duymur. Çünki Birləşmiş Ştatlar lideri ABŞ-ın əvvəlki administrasiyalarını Yaxın Şərqdəki hərbi müdaxilələrə görə tənqid atəşinə tutub və “sabiqləri” dağıdıcılıqda ittiham edib. Bayden – Blinken administrasiyasının da Gürcüstana münasibəti dağıdıcılıq idi. Bundan başqa, Ağ ev rəhbəri neokonservatorları, liberal yönümlü QHT-ləri, ayrı-ayrı Qərb fondlarını pisləyib və onları trilyonlarla dolları havaya sovurmaqda günahlandırıb.

Onu da yada salaq ki, Tramp 2025-ci ildə dövlət başçısı səlahiyyətlərinin icrasına başlayar-başlamaz "Executive Order 14169" (Birləşmiş Ştatların xarici yardımının yenidən qiymətləndirilməsi və düzəldilməsi) adlı sərəncam imzalayaraq, ABŞ-ın xarici yardım proqramlarını 90 gün müddətinə dayandırdı. O, həmin proqramların bir çoxunu “bizə nifrət edən ölkələrə milyardlarla dollar vermək” kimi qiymətləndirərək, yardımlara son qoydu. Həmçinin, Tramp ABŞ Beynəlxalq İnkişaf Agentliyini – USAID-i ləğv etdi, addımının hökumət israfçılığının qarşısını almaq və səmərəliliyi artırmaq məqsədi daşıdığını açıqladı. Bu, o USAID idi ki, Gürcüstanda dövlət çevrilişi üçün külli miqdarda vəsait xərcləyirdi.

O zaman yenə meydana “Megobari aktı”na nə ehtiyacın olduğuna dair haqlı sual çıxır? Digər tərəfdən, ABŞ özü Rusiya ilə münasibətləri nizamlamaq yolu tutursa, belə bir sənədə ümumiyyətlə lüzum yoxdur. Yəni, Vaşinqtona Moskva ilə əlaqələr qurmaq olar, Tbilisiyə yox? Həm də oaxı hakim “Gürcü arzusu”, prinsipcə, tam müstəqil xətt yürüdür, xarici siyasətini yalnız milli maraqlardan çıxış edərək balanlaşdırılmış şəkildə qurur. Məsələn, Ermənistan kimi avantürist niyyətlər naminə, necə deyərlər, hansısa tərəfə yıxılmır. Mövcud məqam mütləq nəzərə alınmalıdır.



Üstəlik, Trampın Ər-Riyadda bildirdikləri fikirlərdən gəlinən daha bir nəticə budur ki, ABŞ qarşıdakı müddətdə regional liderlərlə əməkdaşlığa, terrorizmlə mübarizəyə, habelə, qarşılıqlı iqtisadi maraq yaradacaq layihələrə köklənəcək. Bir sözlə, Vaşinqton Birləşmiş Ştatların əvvəlki administrasiyasının zamanında olduğu kimi, neoimperialist ovqatdan geri duracaq. Hesab edirik ki, bu məqam da son dərəcə vacibdir.

*

Qeyd edək ki, “Megobari aktı” Gürcüstan iqtidarı tərəfindən əvvəllər də mənfi qarşılanıb. Bir müddət əvvəl “Gürcü arzusu” Partiyasının liderlərindən biri, Tbilisi meri Kaxa Kaladze Birləşmiş Ştatların ötən illər ərzində Gürcüstan üzrə agentlər şəbəkəsinin yaradılmasına yüz milyonlarla vəsait xərclədiyini vurğulamış və bu vəsaitin lazım gəldikdə Gürcüstanda dəfələrlə həyata keçirilməsinə cəhd göstərilən dövlət çevrilişini gerçəkləşdirməyə sərf olunduğunu diqqətə çatdırmışdı. Bütün bu işlərin isə USAID və müxtəlif fondlar tərəfindən icra edildiyi məlumdur: “Dərin dövlət məğlub deyil. Biz ölkəmizin maraqlarını qoruyuruq. Əgər Tramp onu (köhnə sistemi – red.) məğlub edə bilsə, biz bunu alqışlayacağıq. Böyük və ya kiçik ölkə olmasından asılı olmayaraq, heç kəsə maraqlarımızı tapdalamağa və onlardan, məsələn, Ukraynadakı kimi sui-istifadəyə imkan verməyəcəyik”.

*

Əlqərəz, hazırda Ş.Papuaşvili bildirir ki, “Megobari aktı” üç yanlış məqama əsaslanır. Bu yanlışlardan birincisi, Gürcüstanda demokratiya sahəsində ciddi geriləmənin baş verdiyinin iddia edilməsidir. İkinci məqam Gürcüstan hökuməti tərəfindən Avroatlantik inteqrasiya prosesinə maneçiliyin törədildiyinin vurğulanmasıdır. Üçüncü iddia isə Gürcüstanın “Rusiya, Çin və digər avtoritar rejimlərlə” (sonradan “digər avtoritar rejim” ifadəsinin İranı nəzərdə tutduğu dəqiqləşdirilib – red.) münasibətlər qurmasının yolverilməzliyidir.

“Megobari aktı” ABŞ-ın hazırkı D.Tramp Administrasiyasının yürütdüyü xarici siyasət kursuna tamamilə zidd mahiyyət daşıyır və belə bir durumda Gürcüstanın hansısa ayrı-seçkiliklə üzləşməsi, onun daxili işlərinə qarışmaq mahiyyətinin saxlanılması mümkünsüz görünür. Görünür, bu məqam Gürcüstan parlamenti tərəfindən də nəzərə alınır. Ona görə qurumun bəyanatında diplomatiklik gözlənilir. Ş.Papuaşvili də bildirib ki, “ölkəyə (Gürcüstana – red.) qarşı sərt və ədalətsiz münasibət, eləcə də ikili standartlar yalnız bir səbəblə əlaqələndirilə bilər - “dərin dövlət” Gürcüstanın hökumət rəsmiləri ilə keçirilən görüşlər zamanı “ikinci cəbhənin açılması (Rusiyaya qarşı – red.)” tələbinin yerinə yetirilməməsini bağışlamayıb”. Nəzərə alsaq ki, parlament sədrinin “dərin dövlət” ifadəsi özündə ABŞ-ın rəhbərliyindəkiləri ehtiva edir, o zaman bir qədər əvvəl fikirlərini diqqətə çatdırdığımız K.Kaladzenin mövcud məqamı daha dolğun şəkildə gündəmə gətirdiyini vurğulamalıyıq. Cənab Kaladze demişdi ki, Birləşmiş Ştatlardakı “dərin dövlət” hələ məğlub olmayıb və köklərə malikdir.

Sonda belə nəticəyə gəlmək mümkündür ki, D.Tramp təkcə bəyanatlarla kifayətlənməməli, Birləşmiş Ştatların hazırkı kursuna zidd fəaliyyətə üstünlük verən daxildəki “köhnələrə” qarşı da mübarizə aparmalıdır. Çox düşünməyə isə ehtiyac yoxdur. Mübarizə dostluq mənasını verən, mahiyyətində dostluqdan əsər-əlamət olmayan, əksinə, açıq düşmənçiliyə hesablanmış “Megobari aktı”nın tarixin zibilliyinə göndərilməsindən başlamalıdır. Tramp Administrasiyası belə bəsit sənədlərin Birləşmiş Ştatların beynəlxalq nüfuzunu zədələdiyinin fərqinə varmalı, həssas davranmalıdır və hesab edirik ki, ABŞ Prezidentinin Səudiyyə Ərəbistanındakı mütərəqqi ruhlu manifestindən sonra bunun baş verməsi yalnız an məsələsidir. Fikrimizcə, gürcü tərəfi də bu qənaətdədir. Ümid edək ki, K.Kaladzenin təbirincə desək, Gürcüstanın ABŞ-la münasibətlərində yeni mərhələ başlayacaq. Özü də çox tezliklə.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Hindistanı Fransa kimi görmək istəmirik



*(əvvəli 1-ci səhifədə)*

Bir vacib məqamı da vurğulayaq ki, Pakistan Azərbaycana Qarabağ münaqişəsində dəstəyini daim ifadə edib və Ermənistanı tanımayıb. Bu fonda Bakı Kəşmir məsələsində İslamabadın narahatlıqlarını başa düşür və ona anlayışla yanaşır. Elə buna görədir ki, nazir müavini Hindistanın həm iqtisadi, həm də siyasi mövqe nöqteyi-nəzərdən inkişaf etməkdə olan ölkə olduğunu, Bakının həmişə Nyu-Dehli ilə münasibətlərinə dəyər verdiyini bildirməklə yanaşı, belə bir fikri də dilə gətirib: “Gərək hər iki dövlət eyni dərəcədə yanaşaraq münasibətlərini qursunlar”.

Bəs hər iki dövlətin eyni dərəcədə yanaşmasının zəruriliyi nə deməkdir? Hesab edirik ki, Y.Rəfiyev mövcud məqama, kifayət qədər, diplomatik tonda münasibəti ilə yadda qalıb. Hindistan–Pakistan məsələsində Azərbaycanın mövqeyinin beynəlxalq hüquqa əsaslandığını vurğulayan nazir müavini ölkəmizin Nyu-Dehlidən gözləntisi üzərində dayanaraq deyib: “Xüsusilə kövrək dönəmdən keçən Azərbaycan – Ermənistan münasibətlərində Hindistan və digər üçüncü tərəflər məsələyə diqqətlə yanaşmalıdırlar. Burada gözləntilərimiz bütün dövlətlərdən, o cümlədən, Hindistandan budur ki, bu prosesə xələl gətirə biləcək hansısa konkret addımlar atılmasın”.

Bəli, cənab Rəfiyevin Azərbaycan – Ermənistan münasibətlərinin kövrək dönəmdən keçdiyini vurğulaması incə diplomatik mesaj sayılmalıdır. Yəni, faktiki olaraq, rəsmi Bakı Nyu-Dehlini bu kövrəkliyi nəzərə almağa çağırır. Başqa sözlə desək, Azərbaycan Hindistan – Pakistan məsələsində beynəlxalq hüquqa əsaslanırsa, eyni həssaslığı Hindistan da göstərməlidir.

Əlbəttə, Nyu-Dehli əvvəllər Qarabağ münaqişəsində neytral mövqe sərgiləyib, problemin dinc yolla aradan qaldırılmasına önəm verdiyini bildirib. Ölkəmiz də öz tərəfindən Hindistanın Fransa kimi Ermənistanla tarixi və siyasi əlaqələrinin mövcudluğu faktını qəbul edib. Ancaq rəsmi Bakı 2020-ci ildən sonra Nyu-Dehlinin İrəvana silah satışının intensiv xarakter aldığını nəzərdən qaçıra bilməz. Ermənistanla Hindistan arasında 2019-cu ildə bağlanmış Strateji Tərəfdaşlıq Sazişini də həmçinin.

Məlumdur ki, Hindistan son illərdə Ermənistanın əsas silah tədarükçülərindən birinə çevrilib. Bildirildiyinə görə, Fransanın patronajlığı ilə həyata keçirlən qarşılıqlı əməkdaşlıq Ermənistanın müdafiə qabiliyyətini artırmaq və Rusiyadan asılılığını azaltmaq məqsədi daşıyır. Bu baxımdan Nyu-Dehlinin İrəvana “Pinaka” çoxlüləli raket sistemlərini satdığını qeyd etmək olar. Bununla əlaqədar imzalanmış müqavilənin dəyəri 245 milyon dollardır.

Eyni zamanda, onu da bildirməliyik ki, hər bir dövlətin hansısa digər dövlətlə hərbi əməkdaşlıq həyata keçirməsi, prinsipcə, onun daxili məsələsidir. O cümlədən, Azərbaycanın xarici ölkələrlə hərbi əməkdaşlığı da. Ancaq burada incə nüans var. Hesab edirik ki, cənab Rəfiyevin kövrəklik ritorikası məhz həmin nüansı nəzərə almaq yönümlü çağırışdır.

Bəli, Azərbaycanın çağırışı ədalətə əsaslanır. Ermənistan otuz ilə yaxın müddətdə işğalçı siyasət yürüdüb. Bu siyasətdən xalqımız böyük ziyan görüb. 2020-ci ilin 44 günlük müharibəsi və 2023-cü ildəki lokal xarakterli antiterror tədbirləri ilə ölkəmiz haqqı olanı özünə qaytardı. Azərbaycan, həmçinin Ermənistana sülh əlini uzatdı. Sülh isə Hindistanın da təbii maraqlarının olduğu Cənubi Qafqazda inkişafı və dinamikanı təmin etmək baxımından son dərəcə vacibdir. Ancaq İrəvan avantürist niyyətindən daşınmır və Bakı ilə sülhə gəlməkdən yayınır, yenə müxtəlif vasitələrlə ərazi iddiası məntiqinə “sadiqlik” nümayiş etdirir. Beynəlxalq hüquqa zidd təmayül budur.

Hindistan belə bir duruma həssas yanaşmalı və nəzərə almalıdır ki, Ermənistan onunla və Fransa ilə əməkdaşlığı sülhü və əmin-amanlığı təhdid edən məqsədlər naminə istifadə etməyindən geri çəkilmir. İstər Azərbaycan dövləti, istərsə də xalqı tarixi münasibətlər baxımından Hindistanı Fransa kimi görmək istəmir. Ölkəmizin XİN rəhbərinin müavini Y.Rəfiyevin də üzərində dayandığı başlıca məqam məhz budur.

***R.ƏVƏZ***
***XQ***

# “Zəkaların mübarizəsi” olimpiadasının final mərhələsi



**Mayın 15-də Heydər Əliyev Mərkəzində ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdlərinin iştirakı ilə “Zəkaların mübarizəsi” olimpiadasının final mərhələsi keçirilib.**

Heydər Əliyev Fondu və Elm və Təhsil Nazirliyinin birgə layihəsi olan olimpiadanın final mərhələsi ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilib. Bu mərhələ bilik yarışı və şahmat turnirindən ibarət olmaqla komanda yarışı formatında baş tutub.

Final mərhələsinin rəsmi açılış mərasimində çıxış edən Heydər Əliyev Fondunun nümayəndəsi Cəmil Əliyev qeyd edib ki, Fondun fəaliyyətində əsas prioritet istiqamətlərdən biri təhsil sahəsidir. Fond təhsilin inkişafı məqsədilə ölkənin bütün bölgələrində – hətta ən ucqar kəndlərində belə – yeni məktəb binalarının tikintisinə və mövcud məktəblərin əsaslı təmirinə xüsusi önəm verir. Bu layihələrin başlıca məqsədi şagirdlərimizin keyfiyyətli təhsil almasını təmin etməkdir.

Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev Elm və Təhsil Nazirliyi tərəfindən istedadlı şagirdlərin aşkar olunması və inkişaf etdirilməsi məqsədilə bir çox layihələrin həyata keçirildiyini, bu olimpiadanın da həmin təşəbbüslərdən biri olduğunu deyib. Fuad Qarayev olimpiadanın təşkilində əsas məqsədin gənc nəsildə strateji düşünmə, düzgün qərar vermə və liderlik bacarıqlarını inkişaf etdirmək olduğunu bildirib.

Final mərhələsində bilik yarışı istiqaməti üzrə Bakı şəhərinin Xəzər, Nəsimi, Yasamal, Xətai, Nərimanov rayonları və Gəncə, Naxçıvan, Mingəçevir, Şəki şəhərləri, Abşeron, İsmayıllı, Lerik, Saatlı, Bərdə, Qazax, Qusar, Zəngilan, Neftçala rayonlarının komandaları, şahmat turniri üzrə isə Bakı şəhərinin Xətai, Xəzər, Sabunçu, Səbail, Yasamal rayonlarından, Gəncə, Naxçıvan, Sumqayıt, Şəki şəhərləri, Ağcabədi, Ağsu, Beyləqan, Cəbrayıl, Göyçay, Quba, Masallı, Neftçala və Tovuz rayonlarından olan komandalar mübarizə aparıb.

Bilik yarışı üzrə finalda iştirak hüququ əldə edən komanda sayı 18, iştirakçı sayı isə 108 nəfər olub. Olimpiadanın bilik yarışında məktəblilər riyaziyyat, rəqəmsal texnologiyalar, təbiət və humanitar elmlər, mədəniyyət və incəsənət sahələri üzrə sualları cavablandırıblar.

Şahmat turniri üzrə isə 12 müxtəlif regiondan 1 qalib komanda, Bakı şəhərindən 5 ən yaxşı komanda, Naxçıvan Muxtar Respublikasından 1 komanda olmaqla cəmi 90 iştirakçıdan ibarət 18 komanda final mərhələdə iştirak hüququ əldə edib.

# Qlobal güc paritetinin dəyişən koordinatları

## ABŞ–Çin kontekstində liderlik və strateji qarşıdurma

**VII MƏQALƏ**

XXI əsrdə beynəlxalq münasibətlər sistemində müşahidə edilən ən mühüm və həlledici transformasiyalardan biri Amerika Birləşmiş Ştatları ilə Çin Xalq Respublikası arasında dərinləşən və kompleks xarakter daşıyan strateji qarşıdurmadır. İkitərəfli münasibətlər artıq sadəcə iqtisadi rəqabət, ticarət müharibəsi və texnoloji liderlik uğrunda mübarizə ilə məhdudlaşmır; məsələ daha dərinə – qlobal normativlərin, idarəetmə modellərinin və beynəlxalq düzənin gələcək forması uğrunda ideoloji və struktur mübarizəyə yönəlmişdir. Yəni, bu qarşıdurma iki müxtəlif dünya nizamı vizyonunun toqquşması kimi çıxış edir. Bir tərəfdə Qərbin təşviq etdiyi liberal-demokratik və açıq bazara söykənən beynəlxalq sistem, digər tərəfdə isə Çin tərəfindən təqdim edilən "avtoritar modernləşmə" modeli və alternativ qlobal idarəetmə yanaşması.



Siyasi analiz və beynəlxalq münasibətlər nəzəriyyəsi çərçivəsində bu dinamikanı başa düşmək üçün əsasən realizm və struktur realizm (neorealizm) yanaşmalarına istinad edilir. Realist baxışa görə, beynəlxalq sistemdə anarxik mühit hökm sürdüyündən dövlətlər öz milli maraqlarını qorumaq üçün güc axtarışında olurlar. Məhz bu prizma ilə Çin – yüksələn güc kimi – öz iqtisadi və siyasi təsirini genişləndirməyə çalışarkən, mövcud hegemon güc olan ABŞ bu yüksəlişi öz qlobal liderliyinə təhdid kimi qəbul edir. Bu vəziyyət klassik "Fukidid tələsi" nəzəriyyəsi ilə uyğunluq təşkil edir: yüksələn güc (Çin) mövcud hegemonun (ABŞ) üstünlüyünü təhdid etdikdə, tarixən bu dinamika tez-tez qarşıdurma ilə nəticələnmişdir. "Fukidid tələsi" anlayışı qədim yunan tarixçisi Fukididin Peloponnes müharibəsi ilə bağlı apardığı təhlildən qaynaqlanır. Fukidid yazırdı ki, "Spartanı müharibəyə sövq edən əsas səbəb Afina gücünün artması və bu yüksəlişin Spartada yaratdığı qorxu idi". Həmin fikir beynəlxalq münasibətlər nəzəriyyəsində əsas realist tezislərdən birinə çevrilib: mövcud hegemon güc ilə yüksələn güc arasındakı sistemli qarşıdurma.

Nəzəriyyəyə əsasən, beynəlxalq sistemdə hegemon gücün statusu dəyişməyə başladıqda, yeni güc mərkəzinin yüksəlişi sabitliyi pozur və tərəflər arasında qarşılıqlı şübhə və strateji qorxu yaranır. Bu isə müharibə və ya ciddi qarşıdurma riskini artırır. Yəni, məsələ yalnız yüksələn gücün niyyətləri ilə deyil, həm də mövcud hegemonun bu yüksəlişə necə reaksiya verməsi ilə bağlıdır. Tarixdə bu cür dinamikaların çox zaman açıq münaqişə ilə nəticələndiyi müşahidə olunub.

Bu konsepti müasir dövrə tətbiq edən Harvard Universitetinin professoru Qraham Ellison "Fukidid tələsi"ni sistemli şəkildə öyrənib və ABŞ–Çin münasibətləri kontekstində geniş şəkildə təhlil edib. Ellisonun Harvard Belfer Mərkəzində apardığı araşdırmada son 500 ildə hegemon gücün dəyişməsi ilə bağlı 16 əsas hal təhlil olunur və bunlardan 12-nin münaqişə ilə nəticələndiyi göstərilir.

ABŞ hazırkı beynəlxalq sistemin əsas iqtisadi, hərbi və texnoloji lideri kimi çıxış edir. Lakin son onilliklərdə Çinin sürətli iqtisadi inkişafı, hərbi gücünü artırması, qlobal miqyasda diplomatik və texnoloji təsirini genişləndirməsi ABŞ tərəfindən ciddi strateji təhlükə kimi qiymətləndirilir. Bütün bunlar ABŞ-ın Çinlə bağlı siyasətində daha sərt mövqeyin yaranmasına səbəb olub. Çin isə öz növbəsində, bu reaksiyanı "saxlanma strategiyası" kimi qəbul edir və öz maraqlarını daha qətiyyətli şəkildə müdafiə etməyə başlayır.



Çin və ABŞ arasında dərinləşən geosiyasi və ideoloji qarşıdurma artıq təkcə güc balansına əsaslanan mübarizə deyil; bu rəqabət getdikcə daha çox mədəni, sivilizasiya və idarəetmə modelləri səviyyəsində qlobal normativ çərçivələrin üzərində aparılan mübarizəyə çevrilir. Əgər ABŞ öz liberal-demokratik dəyərlər sistemini – insan haqları, azad bazar iqtisadiyyatı və çoxtərəfli beynəlxalq əməkdaşlıq prinsipləri ilə müdafiə edirsə, Çin bunun əksinə olaraq, dövlət nəzarətinin üstünlük təşkil etdiyi, iqtisadi inkişafla siyasi sabitliyin uzlaşdırıldığı avtoritar modernləşmə modelini irəli sürür.

Modelin əsas fərqi ondadır ki, o, inkişaf üçün mütləq şəkildə demokratik institutlara ehtiyac olmadığını, əvəzində güclü və səmərəli mərkəzləşdirilmiş idarəetmə, uzunmüddətli planlaşdırma və sosial sabitlik kimi amillərin eyni dərəcədə uğur gətirə biləcəyini göstərməyə çalışır. Çin bu yanaşmanı ideoloji ekspansiya alətinə çevirməklə, xüsusilə, Qlobal Cənubda – Asiya, Afrika və Latın Amerikası ölkələrində – öz təsirini artırır. Deməli, bu regionlarda liberal modernləşmə modellərinin bəzən uğursuzluqla nəticələnməsi və Qərb tərəfindən təqdim olunan yardım və islahat şərtlərinin daxili suverenliyə zidd olması Çin modelinə marağı artırır.

Pekin öz inkişaf yolunu "özünəməxsus Çin xüsusiyyətləri daşıyan sosializm" kimi təqdim etsə də, əslində, bu yanaşma daha geniş miqyasda "alternativ modernləşmə" ideyasını təmsil edir. Burada əsas ideya ondan ibarətdir ki, inkişaf etmiş iqtisadiyyat və yüksək texnologiyalar yalnız liberal-demokratik sistemlər daxilində mümkün deyil. Çin modeli siyasi avtoritarizm ilə iqtisadi dinamizmin birgə mövcud ola biləcəyini sübut etməyə çalışır ki, bu da ABŞ-ın uzun illər təbliğ etdiyi "demokratiya və inkişaf əl-ələ verir" tezisini şübhə altına alır.

Bu mənzərə Çin – ABŞ qarşıdurmasını, sadəcə, ticarət, texnologiya və ya hərbi sahədəki rəqabətdən çıxarıb, normativ və ideoloji səviyyəyə qaldırır. Artıq söhbət hansı dövlətin daha güclü olmasından deyil, hansı inkişaf yolunun daha legitim və universal model olaraq qəbul ediləcəyindən gedir. Qlobal dəyərlər sistemi, normativ hakimiyyətin kimin əlində olacağı və beynəlxalq münasibətlər sistemində "doğru idarəetmə"nin necə təyin olunacağı kimi fundamental suallar gündəmə gəlir.

Çin və ABŞ arasındakı mövcud mübarizə XXI əsrin geopolitikasında yeni ideoloji dualizmin yaranmasına səbəb olur: bir tərəfdə demokratiya, insan haqları və liberal kapitalizm, digər tərəfdə isə stabillik, inkişaf və milli suverenlik üzərində qurulan dövlət mərkəzli model. Bu dualizm beynəlxalq nizamın gələcək strukturuna, beynəlxalq hüququn inkişaf trayektoriyasına və qlobal norma və dəyərlərin kim tərəfindən müəyyən olunacağına dair dərin transformasiyaların siqnalını verir.

Belə bir geosiyasi mənzərədə beynəlxalq münasibətlərdə sabitlik və normativ ardıcıllıq yerini qeyri-müəyyənliyə, qarşılıqlı şübhələrə və gücə əsaslanan siyasətə verir. Bu da qlobal sistemin idarə olunmasını daha da mürəkkəbləşdirir, beynəlxalq hüququn effektivliyini zəiflədir və diplomatiyanın qarşısında yeni çağırışlar yaradır. Deməli, XXI əsrdə Çin–ABŞ münasibətləri qlobal siyasətin yalnız iki güc arasında məhdudlaşan rəqabəti deyil, həm də dünya düzəninin gələcək strukturunu müəyyən edəcək əsas siyasi mübarizə nöqtəsidir. Qarşıdurmanın mahiyyətini anlamaq üçün yalnız iqtisadi və hərbi göstəricilərlə kifayətlənmək olmaz. Buraya ideoloji üstünlük uğrunda informasiya müharibələri, texnoloji rəqabət, diplomatik manevrlər və beynəlxalq təşkilatlarda təsir uğrunda mübarizə də daxildir.

ABŞ və Çin arasındakı sistemli qarşıdurma gələcək qlobal güc paritetinin necə formalaşacağını və beynəlxalq münasibətlər sisteminin hansı prinsiplərə əsaslanacağını müəyyən edəcək əsas geosiyasi meyar kimi çıxış edir. Nəticə etibarilə, bu iki yanaşma arasında yaranan ideoloji qarşıdurma beynəlxalq sistemdə yeni bir mərhələnin başlanğıcını göstərir. Qlobal Cənub ölkələri artıq tək bir normativ mərkəzdən – Qərbdən – asılı deyil. Onlar alternativ model kimi Çin nümunəsinə baxaraq fərqli inkişaf trayektoriyalarını müzakirə etmək imkanına sahibdirlər.

Bütün bu amillər isə beynəlxalq sistemdə əvvəllər hökm sürən normativ monolitin parçalanması və çoxtərəfli ideoloji plüralizmin meydana çıxması deməkdir. Beləliklə, XXI əsrdə ideoloji rəqabət, sadəcə, siyasi rejimlərin deyil, həm də inkişafın mənası və yolunun necə təyin olunacağına dair qlobal mübahisənin əsasına çevrilib.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Qərəzin dili: Lapşin yenidən səhnədə

## *"Hərşeyşünas"ın son açıqlamaları sülhə deyil, qarşıdurmaya yol açır*

**Azərbaycan ərazisində "boz zona" kimi 33 il mövcud olmuş, varlığına 2023-cü ilin sentyabrında antiterror əməliyyatı ilə son qoyulmuş separatçı rejimə başçılıq etmiş şəxslərin məhkəməsi Ermənistandakı revanşistləri və dünyakı erməni diasporunu, habelə ermənipərəstləri bərk narahat etməkdədir. Belələrindən biri də Aleksandr Lapşindir.**

Özünü gah səyyah, gah jurnalist, gah hüquq müdafiəçisi, gah da bloger kimi təqdim edən bu şəxsin adı Azərbaycan ictimaiyyətinə yaxşı tanışdır. O, 2011–2012-ci illərdə Azərbaycan dövlətindən icazə almadan işğal altında olan ərazilərimizə qanunsuz səfər etdiyi üçün adı Xarici İşlər Nazirliyinin "qara siyahı"sına salınmış, beynəlxalq və dövlətlərarası axtarışa verilməsi ilə əlaqədar 2016-cı il dekabrın 15-də Belarus Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Minskdə saxlanılmış, 2017-ci il fevralın 7-də hüquqi prosedur çərçivəsində ölkəmizə ekstradisiya olunmuşdu. Bu hadisə Ermənistan–Belarus münasibətlərində gərginliyə səbəb olmuş, həmçinin İsrail və Rusiyada (Lapşin bu iki dövlətin vətəndaşlığını daşıyır–S.H.) xarici siyasət gündəminin mövzusuna çevrilmişdi. Nəticədə, başabəla səyyah ətrafındakı beynəlxalq qalmaqala beş dövlət cəlb edilmişdi.

Bakı Ağır Cinayətlər Məhkəməsi 2017-ci il iyulun 20-də A.Lapşini Cinayət Məcəlləsinin 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçmə) maddəsi ilə təqsirli bilərək 3 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum etmişdi. Prezident İlham Əliyevin humanist siyasətindən Lapşin də yararlanmış, o, dövlətimizin başçısının 2017-ci il sentyabrın 11-də imzaladığı əfv sərəncamı ilə cəzasının çəkilməmiş hissəsindən azad olunmuşdu.

Qeyd etdiyimiz kimi, Lapşin Azərbaycan dövlətinin, şəxsən cənab İlham Əliyevin humanizmi sayəsində azadlığına qovuşsa da, ölkəmizə qarşı düşmənçilik mövqeyini, bədnam çıxışlarını dayandırmayıb. O, müsahibələrində və yazılarında Azərbaycanın suverenliyinə zidd mövqe sərgiləyir və ermənipərəst ritorikasını açıq şəkildə ifadə edir. Həbsdə olduğu dövrdə Ermənistanın təbliğat maşını tərəfindən "söz və sərbəst hərəkət azadlığı qurbanı" kimi təqdim olunan Lapşin İkinci Qarabağ müharibəsindən sonra da gündəmdədir. Lakin bu dəfə "sülh çağırışları" fonunda Azərbaycanın ərazi bütövlüyünü və suveren hüquqlarını şübhə altına alan çıxışları ilə. Onun bəyanatları, sosial şəbəkələrdə və bloqunda paylaşdığı fikirlər açıq şəkildə ermənipərəst, təhrifedici və ikili standartlarla doludur.



Bugünlərdə erməni jurnalist Lana Mşetsyanın "YouTube" kanalında aparıcısı olduğu "Fakt üzrə" verilişinin qonağı olan Lapşinin Bakı Hərbi Məhkəməsində mühakimə olunan erməni "qlavarlar"la bağlı fikirləri də bu qəbildəndir. İlk olaraq jurnalistin Lapşini "Ermənistanın böyük dostu" kimi təqdim etməsi diqqəti cəlb edir. Lapşin xislətinə uyğun olaraq, ədalət mühakiməsi sözünü "dırnaqarası" adlandırıb. O, hesab edir ki, Bakıdan ilk növbədə "Artsax liderləri"ni deyil, 2020-ci ildən "əsir" götürülən "sıravi, vətənpərvər oğlanları, hərbçiləri" çıxarmaq lazımdır: "Ən ağlasığmazı odur ki, biz onların adlarını belə bilmirik, orada saxlanılanların siyahısı yoxdur. Artsax liderlərinə gəlincə, bəli, indi Ruben Vardanyanın qəhrəmanlaşdırılması gedir, orada qalan şəxslərin hamısı unudulur. Məndə belə davamlı hiss var. Yaxşı hiss deyil, ümid edirəm ki, yanılıram. Azərbaycanlılar bu vəziyyətdən birtəhər çıxmaq (?) üçün kimisə qurban verəcəklər (?). Qorxuram ki, bir müddət sonra Artsax liderlərindən birinin və yaxud digər şəxsin intihar etdiyini və ya infarkt keçirdiyini eşidək".

Vaxtilə cəzaçəkmə müəssisəsində intihara cəhd edən Lapşin kamerasında hansısa "maskalı adamlar" tərəfindən boğulduğunu iddia edib. Daha sonra Nikol Paşinyana öyüd-nəsihət verməyə girişib. Bu fikirlər onun normal düşünmək qabiliyyətində olmadığın ortaya qoyub: "Əgər sırf nəzəri cəhətdən siz və mən Nikol Vovayeviçin yerində olsaydıq və yenə nəzəri olaraq bu adamların müqabilində bizdən, məsələn, Zəngəzur dəhlizi və ya başqa bir şey istənilsəydi, nə cavab verərdik?! Bu, həqiqətən də, çox ağrılı bir vəziyyətdir, məncə. Başa düşürəm ki, biz tərəzinin bir tərəfində sıravi əsgərlərin və Artsax liderlərinin həyatını, digər tərəfində isə Ermənistanın suverenliyinin itirilməsini (?) qoysaq, ikincinin daha vacib olacağını görəcəyik. Amma bunu ailələrə izah etmək təbii ki, mümkün olmayacaq".

Lapşinin verilişdə səsləndirdiyi belə fikirlər, onun yalnız siyasi deyil, eyni zamanda, emosional manipulyasiya yolu ilə auditoriyanı çaşdırmaq və Azərbaycan əleyhinə rəy formalaşdırmaq niyyətində olduğunu açıq şəkildə göstərir. Əvvəla qeyd edək ki, L.Mşetsyanın Lapşini "Ermənistanın böyük dostu" kimi təqdim etməsi təsadüfi deyil. Bu təqdimat Lapşinin artıq bir tərəfin – yəni Ermənistanın informasiya platformasında açıq şəkildə mövqeyini ortaya qoyduğunu sübut edir. Bu halda onun "müstəqil jurnalist", "sülh fəalı" və ya "tərəfsiz müşahidəçi" kimi təqdim olunması absurddur. Üstəlik, Lapşinin Azərbaycan məhkəməsinə "ədalət mühakiməsi" sözünü dırnaqarasına salaraq, ironiya ilə yanaşması, hüquqi və suveren proseslərə qarşı açıq hörmətsizlikdir. Azərbaycanın suveren ərazisində hərbi cinayət törətməkdə təqsirləndirilən şəxslərin qanun qarşısında cavab verməsi beynəlxalq hüququn tələbidir. Bu prosesə ironik yanaşmaq, əslində, qurbanı təqsirləndirməyə yönəlmiş manipulyasiyadır.

Lapşin bu çıxışında iki əsas texnikadan istifadə edir. Bunlardan biri "insaniləşdirmə" (o, məhkum olunmuş separatçı döyüşçüləri "vətənpərvər oğlanlar" adlandırır–S.H.), digəri "qurban obrazı yaratma"dır. Guya, Azərbaycanda onların "adları belə bilinmir", "siyahı yoxdur və hamı unudulub". Bu, klassik dezinformasiya və duyğu manipulyasiyası nümunəsidir. Azərbaycan 2020-ci ildən bu günə qədər saxlanılan erməni hərbçilərlə bağlı məlumatları beynəlxalq qurumlara, o cümlədən Beynəlxalq Qırmızı Xaç Komitəsinə təqdim edib. Lapşinin bu faktları bilərəkdən gözardı etməsi onun qərəzli niyyətinin göstəricisidir.

Lapşin bir tərəfdən R.Vardanyanın Ermənistanda "qəhrəmanlaşdırılmasından" narahat olduğunu bildirir, digər tərəfdən isə Azərbaycanın bu şəxslərə qarşı ədalətli məhkəmə prosesinə şübhə ilə yanaşır. Bu, ikili standartdır. Əgər Lapşin Vardanyanın "qəhrəman" olmasından narahatdırsa, onda onun məhkəmə qarşısında cavab verməsini dəstəkləməli idi. Amma əksinə, bu prosesə "qurban vermək", "intihar", "infarkt" kimi emosional yüklü sözlərlə şübhə toxumu səpir. Bu isə artıq sırf dezinformasiya və psixoloji manipulyasiyadır.

Onun həbsdə olduğu zaman, guya, "maskalı adamlar" tərəfindən boğulması, intihara cəhd etməsi və s. haqqında dedikləri illərdir özünü "qurban" kimi təqdim etmək strategiyasının davamıdır. Bu, sadəcə olaraq, şəxsi təcrübəsini şişirtməklə diqqət çəkmək və Azərbaycanı "söz azadlığı düşməni" kimi göstərmək məqsədi daşıyır. Halbuki, o, humanizm prinsipi və mərhəmətli yanaşma əsasında cəzasının çəkilməmiş hissəsindən azad edilmiş şəxsdir.

Lapşin, guya, təmkinli və realist yanaşma ilə çıxış edirmiş kimi görünməyə çalışır: "Əgər Ermənistan Zəngəzur dəhlizini güzəştə getsə, suverenliyini itirə bilər". Burada o, Ermənistan cəmiyyətini Azərbaycanın təşəbbüslərinə qarşı qaldırmağa çalışır.

Bu müsahibə ilə Lapşin bir daha sübut edir ki, o, erməni lobbisi tərəfindən ələ alınmış və obyektivlik hissini itirmiş bir şəxsdir. Onun dilində ədalət mühakiməsi ironiya, separatçılar "vətənpərvər oğlanlar", məhkəmə prosesləri isə "qurbanvermə əməliyyatı" kimi təqdim olunur. Bu, klassik informasiya savaşı taktikasının bir hissəsidir. Lapşin erməni təbliğat maşınının "yararlı müttəfiqi" rolunu oynayır və Azərbaycanın haqlı mövqeyinə qarşı planlı şəkildə çıxış edir.

Ümumiyyətlə, Ermənistan uzun illərdir informasiya müharibəsində fərqli alətlərdən istifadə edir. Jurnalistlər, siyasətçilər, blogerlər və qeyri-hökumət sektorunda fəaliyyət göstərən şəxslər bu alətin tərkib hissəsidir. Lapşin bu mənada "söz azadlığı" pərdəsi altında öz mövqeyini formalaşdıraraq, ermənipərəst tezislərin yayılmasına xidmət edir. O, heç bir halda neytral analitik adlandırıla bilməz. Keçmişi, şəxsi ambisiyaları və siyasi motivasiyası onun çıxışlarının məqsədli olduğunu göstərir. Lapşin bir müddət Azərbaycanda saxlandıqdan sonra azad edilməsini proseslərə obyektiv yanaşmaq üçün fürsət kimi deyil, şəxsi revanşist hisslərinin ifadəsi üçün istifadə edir. Ermənilər isə onun bu ritorikasını alqışlayaraq, öz təbliğatlarının tərkib hissəsinə çeviriblər.

Bir məqamı da qeyd etmək lazımdır ki, A.Lapşinin şəxsi kompleksləri (Azərbaycanda həbs olunması, sonrakı deportasiya və beynəlxalq arenada diqqət çəkmək arzusu) onu davamlı şəkildə ölkəmiz əleyhinə danışmağa vadar edir. İkincisi, maddi maraqlar – müxtəlif erməni lobbi qurumları və təşkilatları tərəfindən dəstəkləndiyi ehtimalları istisna deyil. Üçüncüsü, reputasiya və tanınmaq ehtiyacıdır. O, "münaqişə bölgəsi üzrə ekspert" kimi görünmək üçün daha səs-küylü və qalmaqallı çıxışlara üstünlük verir. Halbuki, o, bu vasitələrlə nəinki sülhə xidmət edir, əksinə, regionda yenidən qarşıdurma və qütbləşmə ritorikasını körükləyir. Belə "müstəqil blogerlər", əslində, informasiya cəbhəsinin əsgərləridir. Amma, sülhün deyil, qərəzin və təbliğatın əsgərləri...

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Ramiyə MƏMMƏDOVA, politoloq**

– "Ermənistanın böyük dostu" kimi təqdim edilən Aleksandr Lapşin kimi şəxslər, əslində, bu ölkənin böyük düşmənləridir. Çünki onlar Ermənistanın rifahının, gələcək inkişafının Azərbaycanla sülh müqaviləsinin imzalanmasından, regionda kommunikasiyaların açılmasından, eləcə də Türkiyə ilə əlaqələrin normallaşmasından keçdiyini bilsələr də, bunu dilə gətirmirlər. Onların bu yanaşması Ermənistanın regionda təcriddə qalmasına, iqtisadi vəziyyətin pisləşməsinə səbəb olur. Ancaq Hayastanın düşdüyü vəziyyət Lapşin kimilərin vecinə də deyil. Çünki onları yalnız şəxsi mənfəətləri maraqlandırır.

Onun Bakıda keçirilən məhkəmə prosesi barədə söylədiyi fikirlər də məsələlərə qeyri-obyektiv yanaşmasının göstəricisidir. Ümumiyyətlə, Lapşin Azərbaycana dərin nifrət və düşmən münasibəti bəsləyir.

Konstitusiya və Suverenlik İli – 2025

# Milli kimlik vicdan azadlığı kontekstində



**Hər bir xalqın milli kimliyi onun əsrlər boyu formalaşan, zənginləşən dövlətçilik irsində öz əksini tapır. Tarix boyu qazanılmış siyasi varislik ənənələri bu kimliyin əsas dayaqlarından biri kimi çıxış edir. Milli dövlətçiliyin qorunması və davamlı inkişafı yalnız tarixi şəraitin əlverişliliyi və xalqın milli iradəsi ilə deyil, eyni zamanda, lider amili ilə də sıx bağlıdır.**

Bəşəriyyətin keçdiyi tarixi inkişaf yoluna nəzər saldıqda aydın olur ki, xalqın taleyində həlledici rol oynayan əsas faktorlardan biri də məhz yüksək idarəçilik bacarığına malik liderlərin mövcudluğudur. Tarixin sərt sınaqlarından keçmiş təcrübələr sübut edir ki, strateji düşüncə qabiliyyəti, dövlətçilik təfəkkürü və təşkilatçılıq bacarığı olmayan rəhbərlərlə millətlərin gələcəyi təhlükə altına düşmüş, hətta bir çox hallarda onlar dünya siyasi xəritəsindən silinmə təhlükəsi ilə üzləşmişlər.

Bu baxımdan liderin siyasi iradəsi təkcə gündəlik idarəçilik məsələlərini deyil, bütövlükdə təmsilçisi olduğu xalqın, dövlətin taleyini müəyyənləşdirən həlledici amil kimi çıxış edir. Tarixi inkişaf prosesində liderlik yalnız şəxsi keyfiyyətlərin təzahürü deyil, həm də milli dövlətçilik ideyasının reallaşması üçün vacib şərtdir.

Bütün bunların fonunda hazırda azərbaycanlı ictimai fikrində mütləqləşmiş qənaətlərdən biri də məhz budur ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi ilə siyasi hakimiyyətə qayıdışı Azərbaycanı müstəqil dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsindən qorumuşdur. Məhz Ümummilli liderin qətiyyətli addımları sayəsində respublikada ictimai-siyasi sabitlik, qanunçuluq təmin edilmiş, xaos və anarxiya burulğanından qurtulan cəmiyyət yeni ictimai-iqtisadi formasiyanın tələblərinə cavab verən mütərəqqi inkişaf yoluna qədəm qoymuşdur. Bu mərhələdən iqtisadi, siyasi, hüquqi və digər sahələrdə kompleks islahatlar həyata keçirən Heydər Əliyev dövlət müstəqilliyinin möhkəmləndirilməsini və Azərbaycanın davamlı inkişaf yoluna çıxarılmasını həmin dövrün başlıca milli ideyasına çevirmişdir. Bu ideya respublikanın demokratik, hüquqi, dünyəvi dövlətə çevrilməsi, ərazi bütövlüyü və suverenliyinin bərpası, beynəlxalq miqyasda mənafelərinin etibarlı şəkildə qorunması kimi ümdə məqsədləri özündə ehtiva etmişdir.

Ümumiyyətlə, Ümummilli liderin dövlətçilik konsepsiyasında milli kimliyin qorunub saxlanılması, onun əsasını təşkil edən dil, adət-ənənə və dinin ictimai şüurda möhkəmlənməsi məsələləri xüsusi yer tutur. Bu kontekstdə milli kimliyi xarakterizə edən dini etiqad azadlıqlarının konstitusion-hüquqi əsaslarının formalaşdırılması, ölkəmizin tolerant və multikultural məkan kimi tanınması üçün zəruri tədbirlərin həyata keçirilməsi Ulu öndərin müstəqil Azərbaycan dövləti qarşısında ən böyük xidmətlərindən biridir. Bütün bunların nəticəsidir ki, insan hüquqları üzrə ixtisaslaşmış müxtəlif beynəlxalq təşkilatların hesabatlarında ölkəmizdə son 30 ildə dini etiqad azadlığının yüksək səviyyədə təmin edildiyi, müxtəlif dini qurum və konfessiyalar arasındakı münasibətlərin qənaətbəxş olduğu, dini azlıqların maraq və mənafelərinin qorunduğu razılıqla vurğulanır. Azərbaycanda din dövlətdən ayrı olsa da, mövcud dünyəvi dövlət quruluşu dini-mənəvi dəyərlərin inkişafı naminə atılan addımlarla, habelə sağlam İslami dəyərlərlə ziddiyyət təşkil etmir.

Ümummilli lider Heydər Əliyev multikulturalizm ideyasına yüksək dəyər verərək Azərbaycan dövləti hüdudlarında yaşayan bütün xalqların hüquqlarının etibarlı təmin olunmasına, onların vicdan azadlığının təminatına çalışmışdır. Səmavi dinlərin inkişafının dəstəklənməsi məqsədilə müxtəlif dini icmaların, o cümlədən katolik kilsəsinin dövlət qeydiyyatına alınması, yeni kilsələrin, sinaqoqların istifadəyə verilməsi bunu bir daha sübut edir. Vatikan dövləti ilə əldə olunmuş razılıq əsasında Bakının İzzət Orucova küçəsində Roma katolik kilsəsi inşa edilmiş, Roma papası II İohann Pavel 2002-ci ildə Bakıya səfəri zamanı bu addımı alqışlayaraq dini və milli tolerantlıq nümunəsi kimi dəyərləndirmişdir.

Ümumiyyətlə, milli kimlik anlayışı həm fəlsəfi, həm də hüquqi anlayışdır. Fəlsəfi baxımdan milli kimlik milli düşüncəni, mədəniyyəti, dili, dini, milli ideyanı özündə ehtiva edir. Hüquqi baxımdan isə milli kimlik qanunvericiliklə tənzimlənən 3 özül əsasında formalaşmışdır: dil, din və adət-ənənə.

Ümummilli liderin birinci hakimiyyəti dövründə milli kimlik yeni ideya kimi irəli sürülmüş, daha sonra inkişaf etdirilərək milli ideologiya səviyyəsinə qaldırılmışdır. Bu gün biz bu ideologiyanı Azərbaycanda yaşayan müxtəlif etnik qruplar və millətlər arasında tolerantlıq prinsiplərinin əsasında münasibətlərin qorunub saxlanılmasında mühüm əhəmiyyət kəsb edən bir fenomen kimi qiymətləndiririk. Ümummilli lider öz çıxışlarında dəfələrlə qeyd etmişdir ki, dövlətimizin taleyüklü məsələlərinin həll edilməsi zamanı çoxmillətli Azərbaycan xalqı vahid bir millət kimi birləşir. Bu özünü 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbulu ilə əlaqədar keçirilən referendum zamanı da göstərmiş, millətindən və etnik mənsubiyyətindən asılı olmayaraq hər kəs dövlətinin Əsas Qanununun qəbuluna səs vermişdir.



Ümummilli lider çıxışlarında haqlı olaraq qeyd edirdi ki, Konstitusiyanın qəbulu milli ideologiyanın təntənəsidir. Bu mühüm, dövlət əhəmiyyətli sənədin qəbulu ilə əlaqədar keçirilən referendumda çoxmillətli Azərbaycan xalqı vahid millət kimi birləşdi. Ölkə Konstitusiyasında qeyd edilir ki, Azərbaycan xalqı vahiddir, Azərbaycan Respublikası bütün Azərbaycan Respublikasının vətəndaşlarının ümumi və bölünməz vətənidir: Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının varisliyini təcəssüm etdirir.

Dinə münasibət istənilən millətin ən həssas hisslərindən biridir və uzun müddət bu münasibət hüquqi əsaslardan məhrum olmuşdur.

Azərbaycan SSR-in 1921-ci il Konstitusiyasında zəhmətkeşlərin həqiqi vicdan azadlığının təmin edilməsi üçün kilsə dövlətdən, məktəb isə kilsədən ayrılır, dini və antidini təbliğat azadlığı bütün vətəndaşlar üçün tanınır. Elə təsəvvür yaranır ki, SSRİ dövləti ərazisində yalnız xristian dininin mövculuğu qəbul edilir və vətəndaşların yalnız bu dinin təbliği və antitəbliği istiqamətində azadlığı tanınır. Halbuki, o zaman SSRİ məkanında xristianlıqla yanaşı İslam, iudaizm və s. dinlər də mövcud idi. Söhbətin yalnız kilsənin dövlətdən və məktəbin kilsədən ayrılmasından getməsi, fikrimizcə, digər dinlərə etiqad edən vətəndaşların vicdan azadlığı baxımından hüquqlarının məhdudlaşdırılması kimi qiymətləndirilməlidir.

1927-ci il Konstitusiyasında da bu müddəalar olduğu kimi təkrar edilmişdir.

1937-ci il Konstitusiyasında vətəndaşlara vicdan azadlığını təmin etmək məqsədilə Azərbaycan SSR-də "din dövlətdən və məktəb dindən ayrılmışdır" kimi təsbit edilmişdir. Habelə, qeyd olunmuşdur ki, bütün vətəndaşlar dini ayinləri icra etməkdə və din əleyhinə propaqanda aparmaqda azaddırlar (maddə 131).

Göründüyü kimi, artıq vicdan azadlığının əsas göstəricilərindən biri kimi kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması deyil, bütövlükdə dinin dövlətdən və məktəbin dindən ayrılması hesab olunurdu. Digər tərəfdən bu maddədə dinin təbliğindən və anti-təbliğindən söhbət getmir, yalnız ölkə vətəndaşlarının dini ayinləri icra etmək azadlığından bəhs edilirdi.

1978-ci il Konstitusiyasında isə dinə münasibət milli birliyə mane olan kontekstdə verilmişdir. Qeyd edilmişdir ki, Azərbaycan SSR vətəndaşlarının vicdan azadlığı, yəni hər hansı dinə etiqad etmək və ya heç bir dinə etiqad etməmək, dini ayinləri icra etmək və ya ateizm təbliğatı aparmaq hüququ təmin olunur. Bununla bərabər Konstitusiyada yalnız məscid və kilsənin dövlətdən, məktəbin məsciddən və kilsədən ayrılması təsbit edilmişdir. Halbuki o dövrdə də Azərbaycan müxtəlif dinlərə etiqad edən çoxmillətli bir dövlət kimi tanınırdı və yalnız məscidin və kilsənin xatırladılması digər dinə etiqad edən vətəndaşlara məsələn, iudaizm dininə münasibətdə ayrı-seçkilik kimi qiymətləndirilməlidir.

Dini etiqad azadlığına tolerant münasibət, hər bir kəsin dini etiqad azadlığının təmin edilməsinin hüquqi əsasları yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə öz məntiqi həllini tapdı. Layihəsi Ulu öndərin rəhbərlik etdiyi Konstitusiya Komissiyası tərəfindən hazırlanan Azərbaycan Respublikasının Konstitusiyasının 48-ci maddəsində qeyd edilir ki:

I. Hər kəsin vicdan azadlığı vardır.

II. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

Konstitusiyanın bu müddəasında çoxmillətli Azərbaycanda dini müxtəlifliyin qorunmasına, geniş imkanlar yaratmaqla bərabər, həm də hər bir şəxsə sərbəst şəkildə hər hansı bir dinə etiqad etmək, dinə münasibətdə öz neytral mövqeyini saxlamaq və ya heç bir dinə etiqad etməmək imkanı verilməsinin hüquqi əsası kimi nəzərdə tutulur. Halbuki bəzi ölkələrin konstitusiyasında əhalinin böyük əksəriyyətinin etiqad etdiyi dinin dəyişdirilməsi qadağan edilir. Məsələn, Yunanıstan konstitusiyasının (11 iyun 1975-ci ildə qəbul edilmişdir) 13-cü maddəsinə görə bir ölkədə prozenitizm, yəni yeni dini əlaqəyə və ya məzhəbə xidmət etmək qadağandır.

İlk baxışdan elə görünür ki, vicdan azadlığı hüdudsuzdur. Hüdudsuzluq isə hüquqi baxımdan özbaşınalığı da özündə ehtiva edir. Odur ki, Konstitusiyada Ümummilli liderin təşəbbüsü ilə vicdan azadlığının hüdudlarını müəyyən edən normalar da nəzərdə tutulmuşdur. İlk hədd Konstitusiyanın 18-ci maddəsində öz əksini tapmış və göstərilmişdir ki: İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır. Digər qadağalar Konstitusiyanın 48-ci maddəsində aşağıdakı kimi təsbit edilmişdir:

III. Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir.

IV. Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır.

Konstitusiyanın bu normasının təminatı ümummilli lider Heydər Əliyevin hüquqi islahatlarının nəticəsi olaraq qəbul edilmiş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin bir sıra müddəalarında öz əksini tapmışdır. Məcəllənin 167-ci maddəsində dini ayinləri icra etməyə mane olmaya, 167-1-ci maddəsində dini etiqad etməyə məcbur etməyə, 167-2-ci maddəsində qanunsuz olaraq dini ədəbiyyatları yaymağa, 168-ci maddəsində dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur .

Əsası Ümummilli lider tərəfindən qoyulmuş dini etiqad azadlığının konstitusion hüquqi təminatı tədbirləri Prezident İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilməkdədir. Dini etiqad azadlığının Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin tələblərinə uyğun həyata keçirilməsi Prezident İlham Əliyevin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmuş, insan hüquq və azadlıqlarının bu müstəvidə təmini məqsədilə mükəmməl hüquqi baza yaradılmışdır. Məhz onun təşəbbüsü ilə cəmiyyətin şəffaflığının təmin edilməsi məqsədilə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa 2021-ci ildə edilmiş əlavəyə görə, Azərbaycan Respublikasında fəaliyyət göstərən dini mərkəz (idarə) tərəfindən dəvət edilmiş və ya Azərbaycan Respublikasında rəsmi səfərdə olan əcnəbi və ya vətəndaşlığı olmayan din xadimi tərəfindən dini ibadət, ayin və mərasimlərin aparılması istisna olmaqla əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində dini təbliğat aparılması qadağandır və onlar İslam dininə aid ayin və mərasimlərin aparılmasına buraxıla bilməzlər. (1-ci maddə və 21-ci maddə).

Başqa bir əlavədə qeyd edilir ki, dini ibadət yerlərindən və ziyarətgahlardan kənarda, ictimai yerlərdə dini şüarların və digər dini atributların (şəxsin üstündə gəzdirdiyi dini atributlar istisna olmaqla) nümayiş etdirilməsi qadağandır. Dini bayraqlar yalnız dini ibadət yerlərinin və ziyarətgahların, dini mərkəz və idarələrin qapalı yerlərində yerləşdirilə bilər. (4 dekabr 2015-ci ildə əlavə edilib).

Azərbaycan xalqı tarixən terrorçuluğa, zorakılığa, milli, dini ayrı-seçkiliyə mənfi münasibət bəsləyən, bu kimi halları daimi pisləyən bir xalq kimi formalaşmışdır. Lakin son dövrlərdə ayrı-ayrı şəxslər Yaxın Şərq ölkələrində baş verən proseslərdə İslam fundamentalizminin təsiri altına düşərək terrorçu qruplara qoşulur, milli kimliyimiz üçün xarakterik olmayan bu kimi halların ölkəmizə daşıyıcısına çevrilirdilər. Qeyd edilən və milli ideologiyamıza zidd olan oxşar neqativ halların aradan qaldırılması terrorizimlə mübarizədə kəsərli tədbirlərdən istifadə edilməsi məqsədilə 4 dekabr 2015-ci ildə ölkə Prezidenti tərəfindən "Dini ekstremizmə qarşı mübarizə haqqında" Qanun imzalandı. Qanunda ilk dəfə olaraq dini radikalizmin, dini fanatizm kimi anlayışların izahı verilmiş, onlarla mübarizənin yeni üsulları müəyyənləşdirilmişdir. Həmin qanunun qəbulundan sonra Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə ilk dəfə terrorçuluğu maliyyələşdirən şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı norma müəyyən edilmiş, dini düşmənçilik, dini radikalizm və dini fanatizm zəmnində törədilən terrorçuluqla bağlı daha sərt cəza təsbit edilmişdir.

Bu qanuna əsasən, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zamanı dini ekstremistlərin həyatına, sağlamlığına və ya əmlakına ziyan vurulmasına yol verilir. Dini ekstremizmə qarşı mübarizədə iştirak edən şəxsin dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zamanı dini ekstremistlərin həyatına, sağlamlığına və ya əmlakına vurulmuş ziyana görə məsuliyyət daşımadığı müəyyənləşdirilmişdir.

Milli kimliyin dini özülünün mahiyyətinin açılmasında, müxtəlif millətlərin azərbaycançılıq ideologiyası ətrafında birləşdirməsində ölkə başçısı tərəfindən 2016-cı ilin "Multikulturalizm ili", 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsinin də mühüm əhəmiyyəti olmuşdur. Məhz bu illərdə aparılan elmi tədqiqatlar hər kəsin öz inancı, dini, adət-ənənəsi, dili və s. fərqliliyinə baxmayaraq, milli dövlətinin – Azərbaycan dövlətinin tam hüquqlu vətəndaşı olması inamını yaratmışdır. O zaman opponentlərimiz israrla deyirdilər ki, bir tərəfdən hər kəsin milli kimliyini – dinini, dilini, adət-ənənəsini qoruyub saxlamaq hüququ olduğunu təbliğ edən multikulturalizmdən danışırıq, digər tərəfdən isə ölkə ərazisində yaşayan xalqların heç də hamısının sitayiş etmədiyi İslam dini ilə bağlı həmrəyliyini gündəmə gətiririk.

O zaman təzadlı yanaşma kimi görünən bu vəziyyətə ölkə Prezidenti bir tarixi sənədlə aydınlıq gətirdi: İslam həmrəyliyi ilində Qafqaz Müsəlmanları İdarəsində keçirilən beynəlxalq konfransa ünvanladığı təbrik məktubunda cənab İlham Əliyev xüsusilə vurğulayırdı ki, İslam həmrəyliyi dedikdə, İslamdakı təriqətlər arasındakı həmrəylik, İslam dövlətləri arasındakı həmrəylik, ən başlıcası isə İslam dini ilə dünyəvi dinlər arasında həmrəylik başa düşülür.

Bu gün dini konfessiyaların fəaliyyəti üçün bərabər şəraitin yaradılması ölkə Prezidenti tərəfindən yürüdülən dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Ölkə Prezidentinin sərəncamı ilə son 15 ildə dini konfessiyalara 20 milyon manata yaxın maddi yardım göstərilmişdir ki, bu da dünyada nadir nümunələrdən sayılır. Hər il təkrarlanan bu yardımlar Azərbaycan dövləti və xalqı haqqında yüksək fikir formalaşdırır, ölkədə sivil birgəyaşayış normalarına həssas münasibətin mövcudluğuna dəlalət edir.

Dini özülün inkişafında Heydər Əliyev Fondunun xidmətləri də xüsusi vurğulanmalıdır. "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində fond ölkədə katolik, pravoslav kilsələrinin və sinaqoqların təmirinə, eyni zamanda, Romada, Parisdə bir sıra dünya əhəmiyyətli dini abidələrin bərpasına töhfələrini vermişdir . Dövlət başçısının tapşırığına əsasən, 2024-cü ilin dekabr ayında Heydər Əliyev Fondunun dəstəyi ilə tikiləcək yeni katolik kilsənin yerləşəcəyi ərazinin təsdiqetmə mərasimi keçirilmişdir.

Milli kimliyin dini özülünün möhkəmlənməsinə yönələn dövlət siyasəti onunla nəticələndi ki, hər bir Azərbaycan vətəndaşı dinindən, hər hansı təriqətə sitayiş etməsindən, etnik mənsubiyyətindən asılı olmayaraq, vahid milli Azərbaycan dövlətinin torpaqlarının işğaldan azad edilməsi prosesində əvəzedilməz nümunə göstərdilər. Təsadüfi deyil ki, milliyətcə yəhudi olan Albert Aqarunov Birinci Qarabağ müharibəsindəki vətənpərvərliyi ilə əfsanəyə çevrilmişdir. Bu gün Azərbaycan Respublikası və İsrail dövləti arasında uğurlu siyasi və iqtisadi əməkdaşlıq əlaqələrinin sürətlə inkişaf etməsinin səbəblərindən biri də min illər boyu yəhudi icmasının kompakt şəkildə yaşaması, onların özlərini Azərbaycan mədəniyyətinin bir hissəsi kimi hesab etmələri, habelə ölkəmizdə digər dinlər kimi iudaizm dininə olan müsbət münasibətlə əlaqədardır.

Eyni mövqeni Rusiya Federasiyası ilə əməkdaşlıq münasibətlərinə də şamil etmək olar. Hələ 44 günlük Vətən müharibəsi dövründə Ermənistanla aparılan müharibə zamanı Ermənistan prezidentinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından kömək istəyərkən Rusiya Prezidentinin "müharibə Azərbaycan Respublikasının ərazisində baş verməsi səbəbindən müdaxilə etmək üçün əsas yoxdur" deməsi ilk dəfə olaraq Rusiya siyasiləri tərəfindən "Dağlıq Qarabağ"ın Azərbaycan ərazisi olmasını publik şəkildə qəbul edilməsi anlamına gəlir. Bu yaxınlarda Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin Rus Pravoslav kilsəsinin I dərəcəli "Müqəddəs Knyaginya Olqa" ordenini Azərbaycanın Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təqdim etməsi də xüsusi əhəmiyyət kəsb edir və ölkəmizdə xristian dininə olan münasibət burada aparıcı rol oynayır.

Dünyanın 57 ölkəsində yaşayan 2 milyarda yaxın insanı birləşdirən İslam Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu bir təşkilatın ən vacib tədbirlərinin Azərbaycanda keçirilməsi, beynəlxalq platformada bu qurumun üzvü olan İslam dövlətlərinin Azərbaycanın ədalətli mövqeyini daim müdafiə etməsi ölkəmizdə İslami dəyərlərə xüsusi qiymət verilməsi və Prezident İlham Əliyevin artan nüfuzu ilə bağlıdır.

Bir faktı da qeyd etmək yerinə düşər ki, Azərbaycan müstəqilliyini bərpa etdiyi dövr ərzində ölkəmizdə milli, dini və etnik zəmində heç bir cinayət qeydə alınmamışdır. Bu, azərbaycançılıq ideologiyasının təntənəsi, milli kimliyə tolerant münasibətin göstəricisidir, vicdan azadlığı ilə bağlı münasibətlərin tənzimlənməsinin mükəmməl hüquqi bazasının formalaşması ilə şərtləndirilir.

***İsaxan VƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası hüquq kafedrasının müdiri, professor***

# Azərbaycanda rəqəmsallaşma dövrü

## "Sənaye 4.0"dan "ağıllı kənd"ə doğru

**İnformasiya əsri qlobal iqtisadi münasibətlər sisteminə yeni qaydalar diktə edir. İndi təkcə neft və qazla deyil, rəqəmsal texnologiyalarla zəngin olan ölkələr tərəfindən inkişafın aparıcı xətti müəyyənləşdirilir. Azərbaycan da bu prosesdə passiv müşahidəçi deyil. Prezident İlham Əliyevin təşəbbüsü ilə son illərdə "Rəqəmsal transformasiya" proqramı çərçivəsində atılan addımlar respublikamızın iqtisadi gələcəyini yenidən format edir. Bəs rəqəmsal iqtisadiyyat nədir və niyə vacibdir? Ekspertlər bu sualın cavabında bildirirlər ki, ənənəvi iqtisadiyyat real aktivlərə – torpaq, enerji, insan resurslarına əsaslanırdısa, bu gün iqtisadi güc bilik, informasiya və texnologiya üzərində qurulur. Rəqəmsal iqtisadiyyat təkcə elektron xidmətlər və onlayn platformalar demək deyil. O, eyni zamanda, sənaye 4.0, süni intellekt, bulud texnologiyaları və fintex sahələrinin kompleks sintezidir.**

Azərbaycan üçün bu proses yalnız texnoloji yenilənmə deyil, həm də iqtisadi diversifikasiya, şəffaflıq və idarəetmədə səmərəlilik deməkdir. Ən uğurlu nümunələrdən biri "myGov", "ASAN xidmət", "e-Tax", "e-Gov" platformalarıdır. Hazırda 1000-dən çox xidmətin tam rəqəmsallaşdırılması da bunun bariz ifadəsidir. 2025-ci ilə qədər bu rəqəmin 90 faizə çatdırılması hədəflənir. Elektron sənəd dövriyyəsi, vergi və gömrük prosedurlarının rəqəmsallaşması isə həm biznesə, həm də vətəndaşa vaxt və xərclərə qənaət qazandırır. Qeyd edək ki, bu transformasiya Rəqəmsal Hökumətin İnkişafı Agentliyi (RHİA) vasitəsilə koordinasiya olunur.

Qeyd edək ki, əhalinin 70 faizdən çoxunun smartfon istifadəçisi olduğu ölkəmizdə fintex sektoru bu gün yüksələn xəttlə inkişaf edir. Kapital Bank, ABB, PAŞA Bank kimi iri bankların rəqəmsal platformaları, eyni zamanda "M10", "Leobank" kimi mobil bankçılıq tətbiqləri artıq həyatımızın ayrılmaz hissəsidir. Rəqəmsal manatla bağlı pilot layihələr də bu sektorda yeni mərhələyə keçidi göstərir.

Xatırladaq ki, 2023-cü ildə Azərbaycan 60-a yaxın startapın regional inkubasiya proqramlarına qoşulub. "InnoLand", "High Tech Park" və "ASAN İnnovasiyalar Mərkəzi" kimi platformalar ideyadan biznesə keçidə ciddi dəstək verib. BMT-nin "GovTech" indeksində Azərbaycan 193 ölkə arasında 49-cu yerdə qərarlaşıb. Bu, rəqəmsal infrastrukturun beynəlxalq səviyyədə tanındığını göstərir.

"AgroDrive", "e-Agro" və "Smart Agro" layihələri sayəsində fermer təsərrüfatlarında torpaq analizindən məhsul satışına qədər bütün proseslərin izlənilməsi mümkündür. Rəqəmsal xəritələr, süni intellektlə işləyən dronlar, smart suvarma sistemləri artıq respublikamızda tətbiq olunur.

Göründüyü kimi, müasir dövrün əsas çağırışlarından biri rəqəmsallaşmadır. Azərbaycan da bu proseslərə fəal şəkildə qoşularaq həm sənaye sahəsində, həm də sosial infrastrukturların formalaşmasında yeni texnologiyaların tətbiqini genişləndirir. Rəqəmsal iqtisadiyyatın əsas dayaqları olan "Sənaye 4.0", ağıllı şəhər-kənd layihələri, mobil bankçılıq xidmətləri və beynəlxalq rəqəmsal infrastruktur təşəbbüsləri ölkəmizin bu sahədəki iddialı mövqeyini bir daha göstərir.

Azərbaycanda "Sənaye 4.0" texnologiyalarının tətbiqi istehsalın səmərəliliyini artırmaq və sənaye sahələrində müasir standartlara keçid üçün əsas prioritetlərdən biridir. Rəqəmsal texnologiyaların tətbiqi, robotlaşdırılmış sistemlər,




süni intellekt, əşyaların interneti (IoT) və avtomatlaşdırılmış istehsal xətləri artıq bir sıra sənaye müəssisələrində özünü göstərməyə başlayıb.

İqtisadiyyat Nazirliyi bu istiqamətdə koordinasiyaedici rol oynayır, 2021-ci ildən etibarən isə "Sənaye 4.0" platforması üzrə milli strategiyalar formalaşdırılıb. Sumqayıt Kimya Sənaye Parkı və digər sənaye zonalarında rəqəmsal texnologiyalarla təchiz olunmuş müəssisələrin sayı artır. Bununla yanaşı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən innovativ həllərin tətbiqi üçün sahibkarlara dəstək verilir.

Bununla belə, yüksək ixtisaslı kadrlara ehtiyac, texnologiya idxalının hələ də üstünlük təşkil etməsi və maliyyə resurslarının məhdudluğu bu sahədəki çağırışlar olaraq qalır.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa və yenidənqurma işləri yalnız fiziki infrastrukturun qurulması ilə məhdudlaşmır. Bu ərazilər müasir texnologiyalar əsasında inşa edilən "ağıllı kənd" və "ağıllı şəhər" layihələri üçün nümunəvi məkanlara çevrilməkdədir.

Zəngilan rayonunun Ağalı kəndində icra olunan ilk "ağıllı" kənd layihəsi bu sahədə pilot təşəbbüs olaraq qeyd olunur. Layihə çərçivəsində alternativ enerji mənbələri, "ağıllı" suvarma və kənd təsərrüfatı texnologiyaları, müasir təhsil və səhiyyə xidmətləri üçün rəqəmsal platformalar tətbiq edilib. Bu modelin uğuru digər ərazilərdə də oxşar yanaşmaların tətbiqinə şərait yaradıb.

Eyni zamanda Şuşa, Füzuli və digər rayonlarda "ağıllı" şəhər planlamaları hazırlanır. Bu çərçivədə genişzolaqlı internet, videomüşahidə sistemləri, rəqəmsal idarəetmə və e-xidmətlər üçün infrastruktur qurulur. Bu ərazilərin "yaşıl" enerji zonası elan olunması isə "ağıllı" sistemlərin ekoloji davamlılıqla uzlaşmasını təmin edir.

Yuxarıda qeyd etdik ki, Azərbaycan bank sektorunda rəqəmsallaşma və mobil texnologiyaların tətbiqi sürətlə inkişaf edir. İstifadəçilərin gündəlik maliyyə əməliyyatlarını rahatlıqla həyata keçirməsinə imkan yaradan mobil bankçılıq tətbiqləri geniş yayılır. Lakin bu sahədə də müəyyən çağırışlar qalır – əhalinin rəqəmsal maliyyə savadlılığının artırılması, kibertəhlükəsizlik sahəsində davamlı tədbirlərin görülməsi və istifadəçi məlumatlarının qorunması önəmli məsələlər kimi qalmaqdadır.

Azərbaycan regionda rəqəmsal mərkəzə çevrilmək istiqamətində ciddi addımlar atır. "Transxəzər Rəqəmsal Magistral" (Digital Silk Way) layihəsi Asiyanı Avropa ilə birləşdirən rəqəmsal dəhlizin əsas hissəsini təşkil edir. Bu təşəbbüs Azərbaycanın coğrafi mövqeyini beynəlxalq rəqəmsal tranzit mərkəzinə çevirmək potensialına malikdir.

Bundan əlavə, Azərbaycan GSMA (Qlobal Mobil Assosiasiyası), ITU (Beynəlxalq Telekommunikasiya İttifaqı) kimi beynəlxalq qurumlarla fəal əməkdaşlıq edir. Ölkədə hər il təşkil olunan "Bakutel" sərgisi isə regionun ən mühüm texnoloji platformalarından birinə çevrilib.

BMT-nin e-Hökumət İnkişaf İndeksində Azərbaycanın mövqeyi ardıcıl olaraq yaxşılaşır. Rəqəmsal Rəqabətlilik və İKT sahəsində göstəricilər üzrə Azərbaycan MDB və MENA ölkələri arasında lider mövqelərdən birini tutur.

# BP-nin Azərbaycan tarixinin araşdırılmasına dəstəyi




**BP şirkəti ölkəmizin tarixinə həsr olunmuş geniş və əhatəli 2 tədqiqat əsərini ictimaiyyətə təqdim edib. Şirkətin bu layihəyə dəstəyi Azərbaycanın tarixinin və zəngin mədəni irsinin təbliğinə töhfə vermək öhdəliyinin bir hissəsidir.**

Tanınmış alim, görkəmli ictimai və dövlət xadimi, tarix elmləri doktoru, professor Həsən Həsənovun müəllifi olduğu "Azərbaycan. Tarixi-coğrafi atlas" və "Azərbaycan. Tarixi-etnoqrafik atlas" adlanan kitablarda ilk dəfə olaraq qədim və orta əsrlərə aid coğrafi xəritələrin tarixi və etno-mədəni təhlili ilə bağlı elmi araşdırma nətinəni toplanıb. Xəritələrin elmi təsvirləri Azərbaycanın qədim dövlət kimi formalaşmasını əks etdirən tarixi faktlara və sübutlara əsaslanır. Ümumilikdə, 564 səhifədən ibarət olan bu kitablar daha geniş oxucu kütləsini əhatə etmək məqsədilə Azərbaycan və ingilis dillərində nəşr olunub.

Kitablar ətraflı kartoqrafik təhlili tarixi və etnoqrafik sənədlərlə birləşdirən yenilikçi bir tədqiqat işidir. Bu unikal yanaşma oxuculara Azərbaycanın tarixi mənzərəsinin canlı və dəqiq təsvirini təqdim edir, ərazinin və ətraf regionların coğrafi və mədəni təkamülü vasitəsilə xalqın etnik mənsubiyyəti haqqında dolğun təsəvvür yaradır. Tarixi xəritələrin və sənədlərin təfərrüatlı təhlili Azərbaycanın tarixi coğrafiyasının əhatəli və dəqiq təsvirini formalaşdırır.

Təqdimat mərasimində çıxış edən BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Bu layihəyə dəstək verməklə biz ölkənin tarixi əhəmiyyətinin və bütün regionun inkişafındakı rolunun daha geniş şəkildə anlaşılmasına töhfə vermək niyyətindəyik. Bu mühüm tədqiqat işi Azərbaycan adlanan bu qədim torpağın tarixinin zənginliyinə və rəngarəngliyinə, eləcə də bu qədim sivilizasiyanın – Azərbaycan türklərinin tarixi və mədəni irsinin möhtəşəmliyinə daha bir sübutdur. İnanırıq ki, bu kitablar regionun tarixi inkişafı ilə maraqlanan alimlər, tədqiqatçılar və geniş oxucu kütləsi üçün dəyərli bir mənbə olacaq."

Bakı Kitab Mərkəzində keçirilmiş təqdimat mərasimində tanınmış tarixçilər, alimlər, tədqiqatçılar və mədəniyyət xadimləri iştirak ediblər. Tədbirdə çıxış edənlər bu tədqiqat işinin əhəmiyyətini qeyd edərək müəllifin metodologiyası və yanaşmasının ölkənin və bütövlükdə, regionun qədim dövrlərdən başlayaraq keçdiyi tarixi və coğrafi təkamül yollarının araşdırılmasında mühüm rol oynadığını vurğulayıblar.

Qeyd edək ki, ümumi dəyəri 178 min 540 AZN (105 min ABŞ dolları) təşkil edən layihə "TEAS Press" Nəşriyyat Evi tərəfindən yerinə yetirilib. BP şirkəti sözügedən tədqiqat əsərlərini kitabxanalara, universitetlərə, eləcə də aidiyyəti elmi-tədqiqat institutlarına hədiyyə edəcək.

Yeri gəlmişkən, Azərbaycanda neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısı olan BP şirkəti, həm də ölkəmizdə fəaliyyət göstərdiyi 33 il ərzində geniş sosial sərmayə proqramı icra edib. Şirkət əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından yerli potensialın artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələri əhatə edən sosial sərmayə proqramına indiyədək, ümumilikdə, 111 milyon ABŞ dollarından çox vəsait xərcləmişdir.

BP-nin ölkəmizdə həyata keçirdiyi geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səyləri insanlara əhəmiyyətli faydalar gətirməklə onların həyatını yaxşılaşdırıb.

**Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən özəlləşdirmə və icarədən dövlət büdcəsinə cari ilin yanvar – aprel ayları ərzində 66,4 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 40,2 faiz çox) vəsaitin ödənilməsi təmin edilib. Qeyd olunan dövrdə 14 hərrac keçirilib. Hərraclarda 4 səhmdar cəmiyyətinin səhm paketi, 1 kiçik dövlət müəssisəsi, 324 nəqliyyat vasitəsi özəlləşdirilib.**

# Özəlləşdirmə vəsaiti 48 faiz artıb

Hesabat dövründə hərraca çıxarılan dövlət əmlakı üzrə 123 elektron sifariş qəbul edilib, hərraclarda iştirak etmək məqsədilə "Elektron hərrac" proqram təminatı vasitəsilə 18 onlayn qoşulma reallaşdırılıb.



Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən bu ilin ilk 4 ayı ərzində 190-ı qeyri-yaşayış, 1254-ü isə torpaq sahələri üzrə olmaqla 1444 yeni icarə müqaviləsi bağlanılıb. Hesabat dövrü ərzində daşınmaz dövlət əmlakının (qeyri – yaşayış və torpaq sahələrinin) icarəsindən dövlət büdcəsinə 14,8 milyon manat vəsaitin ödənilməsi reallaşdırılıb, ötən ilin eyni dövrü ilə müqayisədə 19 faiz artım qeydə alınıb.

# Orta Dəhliz enerji sahəsində inteqrasiyanı sürətləndirir

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) illik toplantısı çərçivəsində panel müzakirədə Azərbaycanın özünü təkcə regional enerji istehsalçısı kimi deyil, həm də enerji və qeyri-enerji məhsullarının artan tranzit qovşağı kimi təqdim etdiyini bildirib. Nazir, eyni zamanda, Orta Dəhlizin genişlənən rolundan danışaraq respublikamızın regional tranzitə verdiyi töhfəni vurğulayıb: "Azərbaycan bu gün təkcə istehsalçı deyil, həm də tranzit kimi çıxış edir", – deyə o qeyd edib.**




M.Cabbarov əlavə edib ki, bu, Azərbaycanın tərəfdaşlıq və regional əməkdaşlığın genişləndirilməsi üzrə çoxillik strategiyasını əks etdirir. Söhbət habların yaradılmasından gedir və bu, hər kəsə fayda verir. Azərbaycan qonşuları və tərəfdaşları ilə birlikdə Şərqlə əlaqələrin inkişafını davam etdirmək üçün səy göstərir. Bu kontekstdə ənənəvi olaraq qeyri-enerji məhsulları ilə assosiasiya olunan Orta Dəhliz, əslində, əhəmiyyətli enerji komponentinə malikdir və bu komponentin daha da genişlənəcəyi gözlənilir.

İqtisadiyyat naziri ticarət axınlarının coğrafiyasındakı dəyişikliklərə də toxunub: "Fikrimcə, bu, artıq Orta Dəhlizin müxtəlif qollarıdır. Bu marşrut yalnız Şərq-Qərb və ya Şimal-Cənub istiqamətinə yönəlməyib. Biz getdikcə daha çox Şərqdən Cənuba və ya digər istiqamətlərə hərəkət edən axınları müşahidə edirik. Statistik göstəricilər son 3 ildə ən yüksək ticarət dövriyyəsi artımının Mərkəzi Asiya ilə olduğunu təsdiqləyir. Bütün proqnozlar göstərir ki, nəqliyyat əlaqələrinin yaxşılaşdırılması təkcə tranzitin artımına deyil, həm də regional iqtisadi fəallığın inkişafına səbəb olacaq".

M.Cabbarov əlavə edib ki, Azərbaycan tranzit cəlbediciliyinin artırılmasına böyük diqqət yetirir. Eyni zamanda, sadəcə yükdaşımaları asanlaşdırmır, həm də bu prosesi sənayeləşdirməyi qarşıya mühüm vəzifə kimi qoyur. Buna ən yaxşı nümunə – bütün regiona xidmət göstərə biləcək sənaye mərkəzinin yaradıldığı Ələt Azad İqtisadi Zonasıdır.

# 4 ayda 7 milyard manat vergi

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə cari ilin yanvar-aprel aylarında dövlət büdcəsinə 6 milyard 923,5 milyon manata yaxın vergi daxil olub. Xidmətin məlumatına görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi daxilolmaları 266,1 milyon manat və ya 4 faiz çoxalıb.**

Ödənilən vergilərin 71,5 faizi qeyri-neft-qaz sektorunun, 28,5 faizi isə neft-qaz sektorunun payına düşüb. Qeyri-neft-qaz sektorundan daxilolmalar 4 milyard 948 milyon manat təşkil edib. 2024-



cü ilin müvafiq dövrünə nisbətən bu sektordan vergi daxilolmaları 425,4 milyon manat və ya 9,4 faiz çox olub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Elm siyasəti və milli elmi elita

**I məqalə**

### *AMEA prezidentinin təşəbbüsü*

AMEA prezidenti, akademik İsa Həbibbəyli milli elmi elitanın formalaşdırılması məsələsini ölkənin elmi camiəsinin gündəminə gətirmişdir. Ölkənin ali elmi təşkilatının rəhbəri məsələni Prezident İlham Əliyevin Azərbaycanın strateji inkişaf konsepsiyası çərçivəsində, ümumiyyətlə, elmi təşkilatlar qarşısında qoyulan vəzifə kimi aktuallaşdırmışdır.

O cümlədən, məsələnin AMEA-nın yeniləşmə kursu, təşkilatın 2025-2030-cu illəri əhatə edən strateji inkişaf konsepsiyası və Yol Xəritəsi baxımından son dərəcə böyük əhəmiyyəti vardır. Bu bağlılıqda "elm siyasəti" və "milli elmi elita" anlayışlarının müxtəlif elmi aspektlərdən tədqiqi çox aktual görünür. Məsələnin kökü ulu öndər Heydər Əliyevin müasir mərhələdə Azərbaycanda elm siyasətinin əsaslarını hazırlaması ilə bağlıdır.



Hələ sovet dönəmində Heydər Əliyev elmin dövlətə azərbaycançılıq prinsipi üzrə xidmət etməsinə istiqamətlənmiş davamlı addımlar atmışdır. Bu prosesdə AMEA-nın məhz milli elmi elitanın formalaşmasında aparıcı rol oynaması məsələsini Ulu öndər diqqətə çatdırmışdır. Onun başlıca mənası Azərbaycanda elmin dövlətə, milli maraqlara və azərbaycançılığa xidmət etməsindən ibarətdir.

AMEA prezidenti milli elmi elitanın formalaşdırılması məsələsinin tədqiqini məhz bu gerçəkliyi əsas tutaraq aparmağı aktuallaşdırmışdır. Şübhəsiz ki, bu prosesdə filosofların aktiv iştirakı zəruridir. Çünki məsələnin adekvat fəlsəfi dərki olmadan praktiki səmərə verə biləcək proqramlar hazırlamaq müasir elmi kriteriyalara uyğun deyildir.

### *Elmin bir özəlliyi haqqında*

Bəşəriyyətin intellektual və qeyri-intellektual kəsimi min illərdir elmdən danışır, lakin hələ də mövzu bitməmişdir. Kainatın özü qədər əsrarəngiz, müəmmalı, ancaq parlaq olan elmi yaradıcılığın mahiyyəti və təbiəti alimlərlə yanaşı, siyasətçilərin də maraq dairəsindədir. Burada "elm nədir?" kimi ilk baxışdan bəsit görünən suala cavabdan tutmuş elmin dünyaya verdiyi töhfələr və vura biləcəyi ziyana qədər geniş məsələlər aktuallığını saxlayır. Onların sırasında mütəxəssilərin "elm siyasəti" adlandırdığı və birbaşa dövlətin elmə münasibəti ilə əlaqəli olan anlayış ayrıca yer tutmaqdadır.

Doğrudan da, elm siyasəti nədir və nəyə lazımdır? Müasir ölkələr elm siyasəti olmadan mövcud ola bilməzlərmi? Nə üçün hazırda dünyanın ən inkişaf etmiş dövlətlərindən tutmuş, ayaqda qalmağa çalışan zəif ölkələrinə qədər hər kəs elm siyasətinin zəruriliyindən bəhs edir? Çünki müasir mərhələdə elm cəmiyyətin və dövlətin həyatının bütün sferalarına nüfuz etmişdir. Elmi bilik olmadan hər hansı sosial, siyasi, mədəni, mənəvi, əxlaqi, iqtisadi, hərbi, təhlükəsizlik və digər problemləri həll etmək mümkün deyildir. Bu cür vəziyyətin yaranmasının elmi izahı mövcuddurmu?

Onu iki aspektdən izah etmək olar. Birinci aspekt insanın xüsusi fəaliyyət sferası kimi elmin substantiv və funksional özəllikləri ilə bağlıdır. Buraya elmi yaradıcılıqdan tutmuş elmi fəaliyyətin təşkili, institutlaşması və cəmiyyətə tətbiqinin nəzəri və metodoloji xüsusiyyətləri daxildir. Elm, bir qayda olaraq, xüsusi təşkil edilmiş institutlaşma daxilində mövcud olur. Elmin fərdi məşğuliyyət sahəsi olaraq mövcudluğu qədimdə qalmışdır, indi o, aparıcı deyildir (hərçənd prekarların timsalında elmi yaradıcılığın fərdiliyi yeni forma almışdır, lakin prekar da elm adamı kimi konkret təhsil sistemində yetişir, yəni o da kökdə institutlaşmaya daxildir).

Elmi araşdıranlar onun "paradiqmal" formada inkişafından danışırlar. Yəni, paradiqma müəyyən müddətdə elmi camiə üçün problemlərin qoyuluşu və həlli modelidir (Tomas Kun). Paradiqma elə bir elmi yaradıcılıq nümunəsinin sistemidir ki, konkret tarixi mərhələdə elm adamları onun nəzəri və metodoloji sərhədləri daxilində tədqiqat aparırlar və ona uyğunluq olanda alınan nəticə elmi bilik sayılır.

Deməli, elm faktiki olaraq hər zaman müəyyən sistem formasında təşkil edimiş biliklərin sistemidir. Əgər sistemləşmə varsa, iki faktor mütləq elmdə mövcud olmalıdır – birincisi, elmi yaradıcılığın kollektiv xarakteri (ona "intersubyektivlik" də deyirlər), ikincisi, elmi fəaliyyətin idarə edilməsi. Deməli, paradiqmallıq elmi həm kollektiv fəaliyyət növünə çevirir, həm də onun bu keyfiyyətdə idarə olunması zərurətini meydana gətirir.

İkinci aspekt müasir mərhələdə dövlətin olduğu cəmiyyətlərdə elmlə bağlı siyasətin aparılmasının zəruriliyi ilə əlaqədardır. Doğrudan da, əgər elm kollektiv fəaliyyət növü kimi ayrıca bir sistemdirsə və cəmiyyətin fəaliyyətinin bütün sferalarına nüfuz edirsə, onun idarəedilməsi aksiomdur. Başqa halda, elmi fəaliyyət toplumda həm xaos yarada bilər, həm də onun aldığı nəticələrin sosial faydası olmaz. Bu da o deməkdir ki, elmi fəaliyyət mütləq dövlət tərəfindən yönəldilməlidir.

Burada çox sayda problem meydana gələ bilər. Məsələn, elmi tədqiqatın sərbəstliyi ilə alim məsuliyyəti arasında nisbət. Və ya elmin daha səmərəli formada institutlaşması. Elmin maliyyələşməsi, onun nəticələrinin çevik və məqsədyönlü surətdə cəmiyyətə tətbiqi. Cəmiyyətin təhlükəsizliyində elmin rolu və s.

Lakin bunlar da onu göstərir ki, hər bir müstəqil dövlət üçün elm siyasəti vacibdir. Bəs elm siyasəti ilə bağlı dünya təcrübəsində əsas faktorlar hansılar hesab edilir?

### *Elm siyasətinin iki modeli*

Əsasən iki elm siyasəti modelindən bəhs edirlər: liberal və marksist. Hər ikisinin özünəxas baza prinsipləri (təməl müddəalar) vardır. Liberal model fundamental, yəni onların anlamında əsl, saf, təmiz elmin iqtisadiyyatdan asılı olmayaraq avtonomluğunun qəbul edilməsi prinsipinə əsaslanır. Marksist modeldə isə elmin bütövlükdə cəmiyyətin iqtisadi tələbatlarından birbaşa asılı olduğu müddəa baza prinsip kimi götürülür.

Bu iki başlanğıc prinsipə görə dövlətlər bir-birindən fərqli təşkilati xarakterli baza prioritetləri müəyyən edirlər. Marksist modeldə elmin inkişafı və idarəedilməsinin planlaşdırılması zəruriliyi prioritetdir. Liberal modeldə isə fundamental elm üçün idarəetmədən prinsipial imtina və elmlə xüsusi növ tərəfdaş münasibətlərinin qurulması prioritetdir. Burada bir fərqi vurğulamaq lazımdır.

Elmin təşkilati modelləri və elm siyasətinin paradiqmaları eyni anlayış deyillər. Elmin təşkilati modelləri bir elm siyasəti paradiqması daxilində ölkədən ölkəyə fərqlənə bilər. Onları birləşdirən elm siyasətinin baza prinsipidir. Bu əsas faktorların əksəriyyətinin kompleks xarakterinə görə, onlar iki elm siyasəti modelindən birinə aid edilir. Təşkilati aspektdə elm siyasətini amerikan və kontinental modellərə bölürlər.

Elmin təşkilati modeli isə amerikan və kontinental kimi iki nümunəyə ayrılır. Kontinental model, adətən, Almaniya nümunəsi ilə assosiasiya olunur. Onu vurğulayaq ki, sovet elmi təşkilati modeli kontinental modelə aiddir. Müasir mərhələdə daha çox bu iki modelin sintezində nümunələrə üstünlük verilir. Bu da ölkədən – ölkəyə fərqlənir. Lakin başlıca prinsip ondan ibarətdir ki, müasir dövrün tələblərinə cavab verən səviyyədə elmi tədqiqatla təhsilin sintezinə nail olunsun. Yəni elm-təhsil inteqrasiyasının optimal model axtarışları hazırda çox aktualdır.

Xüsusilə, sürətli və əhatəli inkişaf kursunu seçmiş dövlətlər üçün elm siyasətinin və onun təşkilati aspektinə aid olan modellərin tədqiqi çox əhəmiyyətlidir. Burada liberal və marksist (uyğun olaraq amerikan və ya kontinental) modellərdən hansına üstünlük verilməsi və yaxud onların necə sintez edilməsi məsələsi ölkənin elmi ənənəsi və strateji inkişaf kursunun özəllikləri ilə birbaşa əlaqəlidir.

Elmin amerikan təşkilati modelində elmi tədqiqatlarla təhsili təqribən bərabər nisbətdə qarşılıqlı əlaqədə götürən universitetlər üstünlük təşkil edilir. Kontinental modeldə isə tələbə hazırlamayan ixtisaslaşmış elmi-tədqiqat institutları dominantdır. Kontinental elmi model ən təmiz formada SSRİ-də formalaşmışdı.

Bir məqamı da mütləq vurğulamaq gərəkdir. Elmdə belə bir qənaət vardır ki, paradiqmalar öz tərəfdarlarında gerçəkliyə xüsusi yanaşma formalaşdırır. Yəni paradiqmallıq ancaq elmi problemlərin qoyulması və həllini xarakterizə etmir – o, alimdə intellektual, mənəvi, emosional kontekstlərdə müəyyən yanaşma üsulu formalaşdırır. Deməli, eyni zamanda, iki elmi paradiqmaya sadiq olmaq mümkün deyildir. Mütləq biri seçilməlidir. Lakin, bu, o demək deyildir ki, həmin dövrdə mövcud olan digər paradiqmalar kənara qoyulsun. Burada söhbət konseptual olaraq bir elmi paradiqmanı seçməkdən gedir (məsələnin elmi tərəfi mürəkkəbdir və ona burada toxunmuruq).

Əgər paradiqma seçimdirsə, onda burada siyasət də mütləq vardır. Özəlliklə elm siyasəti üçün paradiqmallıq ciddi əhəmiyyət kəsb edir. Tarixi təcrübə göstərir ki, elm siyasətində elmi paradiqmallıqla yanaşı, təməl siyasi-ideoloji mövqe həlledici rol oynayır. Məhz həmin baza siyasi-ideoloji mövqe yekunda elm siyasətinin məzmun və məqsədini müəyyən edir.

Deməli, alim hər bir cəmiyyətdə fərd olmaqla yanaşı, həm də sosial varlıqdır və ona bundan kənarda baxmaq olmaz! Alimin sosial varlıq kimi mövcudluğu elmin də cəmiyyət üçün kollektiv səviyyədə əhəmiyyətini təsdiq edir.

XX əsr elm tarixində vurğuladığımız məqamlar prizmasında liberal və marksist (təşkilati özəlliyinə görə - amerikan və kontinental) elm siyasəti paradiqmalarına qısa nəzər salaq. Onların müqayisəindən Azərbaycan təcrübəsi haqqında elmi qənaətlər əldə edə bilərik.

### *Liberal elm siyasəti*

Liberal elm siyasəti 1940-cı illərdə ABŞ-da yaranmışdır. Onu Amerikanın elmi-texniki uğurları ilə əlaqələndirirlər. Bu elm siyasəti "nümunəsi"nin populyarlığı göstəricilərindən biri kimi 1980–1990-cı illərdə elmi potensialı yüksək olan bir sıra dövlətlərdə Milli Elm Fondu profilli qurumların yaradılmasını vurğulayırlar. Məsələn, Çinin təbii elmlər milli fondu, Polşa elmi fondu, Rusiya fundamental tədqiqatlar fondu və başqaları buna nümunədir. Onların hər biri ABŞ-ın elm siyasətinin açar faktorları və prinsiplərini təkrarlayırlar, yəni faktiki olaraq, Amerika elm siyasətinin "surətləri"dir.

Dünyanın tanınmış alimləri və filosofları sırasında elm siyasətinin liberal modeli (uyğun olaraq, elmin təşkilinin amerikan nümunəsi) tərəfdarları az deyillər. Onlardan ikisini – Maykl Polani və Robert Mertonu qeyd edə bilərik. M.Polani macar əsilli kimyaçı, iqtisadçı və filosofdur. 1933-cü ildə Böyük Britaniyaya miqrasiya edən M.Polani orada fizik C.Bernalın elmin marksist siyasətini təbliğ edən geniş yayılmış konspesiyası ilə tanış olur. Onun təsiri altında SSRİ-yə səfər edir. Maraqlıdır ki, bu səfər M.Polanini elmin C.Bernalın aktiv əleyhdarlarından birinə çevirir. M.Polani Qərb universitetlərində üstünlük təşkil edən akademik azadlıq modelinə üstünlük verir.

ABŞ-da Robert Merton M.Polaninin mövqeyinə uyğun ideyalar irəli sürmüşdür. O da fundamental elmlərə təşkilati baxımdan avtonomluğun verilməsinin tərəfdarı olmuşdur. Elmi fəaliyyətin fərdi səviyyəsindən institusional səviyyəyə keçidi üçün isə "elmi etos" anlayışından istifadə etmişdir. Elmi etos elmi camiədə mövcud olan normalar sistemidir (əsasən sırf idraki, yəni koqnitiv aspekt götürülür). Bunlarla yanaşı, R.Merton elmi fəaliyyədə "kollegial nəzarət" (o, buna "dördüncü imperativ" deyir) faktoruna ayrıca önəm verir. Yəni, hər bir halda elmi fəaliyyətə hansısa nəzarətin olmasını qəbul edir.

Bunlarla yanaşı, ABŞ-da liberal elm siyasətinin formalaşması üçün hakimiyyətin birbaşa nəzarətində olan hansısa təşkilatın yaradılmasını və bütövlükdə, elmi fəaliyyəti istiqamətləndirməsini təşkil etmək gərəkdi.

Bu vəzifəni o dövrün tanınmış alimlərindən olan Vannivar Buş yerinə yetirmişdir.

***(ardı var)***

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Əkinçi"dən süni intellektə – 150 illik medianın transformasiya yolu



**Mayın 15-də Bakı Dövlət Universitetinin və Türkiyənin Üsküdar Universitetinin birgə təşkilatçılığı, Medianın İnkişafı Agentliyinin, Audiovizual Şuranın və Mətbuat Şurasının tərəfdaşlığı ilə Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunan "Rəqəmsal dövrdə media və kommunikasiya fəaliyyəti" mövzusunda beynəlxalq konfransın açılış mərasimi keçirilib.**

BDU-nun rektoru **Elçin Babayev** bildirib ki, Həsən bəy Zərdabinin təşəbbüsü əsasında nəşrə başlayan "Əkinçi" qəzeti ilə əsası qoyulan milli mətbuatımız xalqımızın maariflənməsində, milli kimliyimizin formalaşmasında və dövlətçilik ideyalarının təbliğində mühüm rol oynayıb. "Prezident İlham Əliyevin "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı ölkəmizdə media və jurnalistika sahəsinə verilən yüksək dəyərin bariz nümunəsidir. Bu yubiley yalnız keçmişə bir baxış deyil, eyni zamanda, mütərəqqi jurnalist nəslinin formalaşmasına, gənc qələm sahiblərinin ruhlandırılmasına verilmiş böyük töhfədir", – deyə o əlavə edib

Üsküdar Universitetinin rektoru **Nazife Güngör** BDU ilə əməkdaşlığı yüksək dəyərləndirib. O qeyd edib ki, qarşılıqlı inam və dostluq prinsiplərinə əsaslanan bu əməkdaşlıq yalnız akademik sahədə deyil, həm də iki xalq arasında olan mədəni və




mənəvi bağları daha da möhkəmləndirir.

"Bu konfrans çərçivəsində onlayn olaraq 200-dən çox məruzəçinin iştirakı nəzərdə tutulur. Bu isə bizə göstərir ki, elm, təhsil və araşdırma sahəsində maraq və dinamik əməkdaşlıq sürətlə genişlənməkdədir. Eyni zamanda, konfrans tələbələr və müəllimlər arasında da yeni əlaqələrin yaranmasına imkan yaradır ki, bu da gələcək akademik əməkdaşlıqlar üçün güclü bir zəmidir.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri **Rövşən Məmmədov** yerli, həm də qlobal miqyasda aktual və strateji məsələlərin müzakirəsi baxımından "Rəqəmsal dövrdə media və kommunikasiya fəaliyyəti" mövzusunda keçirilən beynəlxalq konfransın ideal platforma olduğunu söyləyib. O qeyd edib ki, rəqəmsallaşma bu gün bütün dünyanın əsas çağırışlarından biridir.

Mətbuat Şurasının sədri **Rəşad Məcid** "Əkinçi" qəzetinin fəaliyyətə başlamasının həmin dövr üçün böyük fədakarlıq olduğunu vurğulayıb. Bildirib ki, sovet dövründə Azərbaycan mətbuatı ana dilimizin qorunmasında mühüm rol oynayıb. Həmin dövrdə fəaliyyət göstərən "Kommunist", "Azərbaycan gəncləri" kimi qəzetlərdə milli ideyalar öz əksini tapırdı. 1991-ci ildən sonra ölkəmizdə media orqanlarının sayı artmağa başladı. Azərbaycan mətbuatı tarixində ən əlamətdar hadisələrdən biri isə 1998-ci il avqustun 6-da baş verdi. Həmin gün ümummilli lider Heydər Əliyev "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman imzaladı. Bu, mətbuatın inkişafı istiqamətində mühüm addım oldu və sonrakı illərdə də ardıcıl fəaliyyət davam etdirildi.

"REAL Təhlil və İnformasiya Mərkəzi" MMC-nin baş direktoru **Mirşahin Ağayev** medianın sadəcə informasiya vasitəsi deyil, eyni zamanda, təfəkkür məsələsi olduğunu söyləyərək diqqətə çatdırıb: "Biz tariximizə baxdıqda "Əkinçi" qəzeti ilə fəxr edir və Həsən bəy Zərdabini milli mətbuatımızın banisi kimi xatırlayırıq. Bu, yalnız keçmişə hörmət deyil, həm də gələcəyə məsuliyyətdir".

"Sosial şəbəkələrin informasiya xaosu yaratdığı, bəzən həqiqəti kölgədə qoyduğu bir dövrdə biz bu Himni daha dərindən anlamağa və media vasitəsilə cəmiyyətin düşüncə sağlamlığını qorumağa borcluyuq", – deyə M.Ağayev əlavə edib.

Milli Məclisin deputatı **Vüqar Rəhimzadə** bildirib ki, dünyanın çağırışlarına cavab olaraq, müzakirə ediləcək mövzulara milli maraqlar prizmasından yanaşmalı və milli maraqları təmin etmək üçün kifayət qədər addımlar atmalıyıq. "Zaman dəyişir və inkişaf edir. Bu dəyişikliklərə adekvat olaraq, Azərbaycan mətbuatı da reallıqlara əsaslanaraq fəaliyyətini milli və dövlət maraqları çərçivəsində qurmalıdır", - deyə deputat bildirib.

Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini **Natiq Məmmədli** milli mətbuatın 150 illik tarixi yalnız keçmişi anmaq üçün deyil, həm də gələcəyi düşünmək üçün mühüm informasiya bazası yaratdığını vurğulayıb. Bildirib ki, bu baxımdan, konfransın mövzusu ilə tarixi təcrübənin və peşəkar mirasın vəhdəti mühüm əhəmiyyət daşıyır.

N.Məmmədli konfransın məqsədi və qayəsi barədə ətraflı danışaraq Azərbaycan jurnalistikasının inkişafında iki əsas istiqamətin mövcudluğuna toxunub. Bildirib ki, Medianın İnkişafı Agentliyi bu istiqamətlərin hər biri üzrə sistemli fəaliyyət göstərir. Beynəlxalq ekspertlərin iştirakı ilə "Rəqəmsal yazı: rəqəmsal alətlərin işlənməsi" mövzusunda keçirilən silsilə təlimlər bu sahədə jurnalistlərin bilik və bacarıqlarının artırılmasına xidmət edir.

BDU-nun milli mətbuat tarixi kafedrasının müdiri **Cahangir Məmmədli** və multimedia və elektron kommunikasiya kafedrasının müdiri **Qulu Məhərrəmli** mətbuatın təsir imkanlarını genişləndirməyin olduqca vacib məsələ olduğuna diqqət çəkiblər.

Daha sonra Azərbaycan milli mətbuatının 150 illiyi çərçivəsində BDU-nun jurnalistika fakültəsində "Milli mətbuat tarixi auditoriyası"nın açılışı, "Bakı Universiteti" qəzetinin xüsusi nömrəsinin və fakültə tərəfindən yeni təsis edilən "Media problemləri" jurnalının təqdimat mərasimləri keçirilib.

Üç gün davam edəcək konfransın məqsədi media istehsalı və istehlakı proseslərinin rəqəmsallaşma ilə transformasiyasının insani, sosial, siyasi və mədəni təsirləri haqqında müzakirələr aparmaqdır. Bu transformasiyanın mahiyyətinin, media ekosisteminə təsirlərinin və qlobal səviyyədə gətirəcəyi nəticələrin ətraflı şəkildə müzakirə olunacağı konfransın kommunikasiya və media sahəsində araşdırmalara əhəmiyyətli töhfə verməsi hədəflənir.

Konfrans çərçivəsində "Rəqəmsal dövrdə media və cəmiyyət", "Süni intellekt, media və cəmiyyət", "Rəqəmsal dövrdə media və kommunikasiya tədqiqatları", "Rəqəmsal dövrdə reklam və marketinq", "Jurnalistika tarixi", "Süni intellekt, media və vizual mədəniyyət", "Rəqəmsal transformasiya və media" mövzuları üzrə 7 bölmədə 48 məruzə dinləniləcək.

Qeyd edək ki, konfransa, ümumilikdə, 300-ə yaxın məqalə və 100-ə yaxın tezis qəbul olunub. Tədbir zamanı medianın müxtəlif istiqamətləri üzrə 19 canlı, 24-dək onlayn panel müzakirəsinin təşkili nəzərdə tutulub.

***XQ***

# Ali Attestasiya Komissiyasının sədri: Elmi dərəcə və adların verilməsi ilə bağlı meyarlar yenilənib

**Elmi dərəcə və elmi ad verilməsi, kadrların attestasiyası, dissertasiya şuralarının fəaliyyəti, elmi etika və beynəlxalq təcrübə ilə uyğunluq kimi məsələlər Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) əsas fəaliyyət istiqamətlərindəndir. Son dövrlərdə bu sahədə həyata keçirilən islahatlar, yeni qaydalar və rəqəmsallaşma prosesi elmi ictimaiyyətin də diqqətindədir. Bu və digər aktual mövzularla bağlı AZƏRTAC-ın suallarını Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayev cavablandırıb.**

**(əvvəli ötən sayımızda)**

**– Dövlət proqramları çərçivəsində və ya fərdi qaydada xaricdə təhsil almış şəxslərin sənədlərinin tanınması məsələsi aktualdır. Xüsusilə də Avropa və MDB ölkələrində doktorantura təhsili almış Azərbaycan vətəndaşlarının elmi dərəcələrinin ölkədə tanınması məsələsi müzakirə olunur. Bəzi hallarda sənədlərin nostrifikasiyası və ya təkrar attestasiyaya yönləndirilməsi elmi ictimaiyyətdə əlavə bürokratik yük və ləngimə kimi qiymətləndirilir. Bu prosedurla bağlı Komissiyanın üzləşdiyi hansı çətinliklər var? Hazırda bu sahədə hansı mexanizmlər mövcuddur və onların sadələşdirilməsi üçün hansı dəyişikliklər gözlənilir?**

– Xaricdə təhsil almış vətəndaşların elmi dərəcələrinin ölkədə tanınması Ali Attestasiya Komissiyasının diqqətində olan əsas istiqamətlərdəndir. 2019-2024-cü illərdə Komissiya tərəfindən 181 nəfərin fəlsəfə doktoru elmi dərəcəsinin tanınması haqqında şəhadətnamə verilib. Bu şəxslərin əksəriyyəti iqtisadiyyat, tibb, texnika, hüquq və siyasi elmlər sahəsində doktorantura təhsili alıblar və Rusiya, Türkiyə, Almaniya, Fransa, Belçika, İtaliya, Niderland, Macarıstan, Böyük Britaniya, ABŞ, Çin, Cənubi Koreya, Yaponiya, Avstraliya və digər ölkələrin universitetlərində təhsilini tamamlamış mütəxəssislərdir. Dövlət Proqramı çərçivəsində nüfuzlu universitetlərdə təhsil alan məzunların sənədləri isə Komissiya tərəfindən prioritet və sadələşdirilmiş qaydada nostrifikasiya edilir. Növbəti illərdə bu qəbildən olan müraciətlərin artacağı gözlənilir.

Komissiya bu istiqamətdə daha dayanıqlı inteqrasiyanı təmin etməyi vacib sayır. Dövlət Proqramı məzunlarının elmi rəhbər kimi fəaliyyət göstərməsi üçün prosedurlarda maneə yoxdur, əvvəlki icazə mexanizmləri ləğv olunduğu üçün prosedur sadələşdirilib. Həmçinin bu məzunların elmi ekspertiza prosesinə, xüsusilə də ekspert şuralarının fəaliyyətinə cəlb olunması nəzərdə tutulur. Bu yanaşma onların beynəlxalq təcrübəsinin yerli elmi sistemə transferinə və ümumilikdə tədqiqat keyfiyyətinin yüksəldilməsinə yönəlib.

Ümumiyyətlə, xaricdə doktorantura təhsili alan mütəxəssislərin elmə effektiv inteqrasiyası, onların yalnız tədrisə deyil, xüsusilə tədqiqata təşviq edilməsi xüsusi əhəmiyyət daşıyır. Bu məzunların potensialından istifadə etməklə ölkədə tədqiqat nəticələrinin keyfiyyətini artırmaq mümkündür. Bunun üçün isə həmin mütəxəssislərin elmi fəaliyyətlə məşğul olması üçün həm normativ, həm də maddi-texniki baxımdan əlverişli şəraitin yaradılması vacibdir.

**– Elmi fəaliyyətin keyfiyyəti və legitimliyi, ilk növbədə, etik prinsiplərə əməl olunmasından asılıdır. Son illərdə dissertasiya işlərində və elmi nəşrlərdə qeyri-qanuni istinad, mənbəsiz istifadə və müəllif hüquqlarının pozulması kimi hallar geniş ictimai müzakirəyə səbəb olub. Elmi etikanın qorunması və plagiatla mübarizə sahəsində AAK-ın mövcud siyasəti və gələcək addımları nədən ibarətdir?**

– Komissiya elmi fəaliyyətin keyfiyyətinin və legitimliyinin təmin olunmasında elmi etika və plagiatla mübarizəni prioritet istiqamət kimi müəyyən edib. Elmi dürüstlük prinsiplərinin qorunması yalnız elmi nəticələrin etibarlılığını artırmır, həm də ölkənin ümumi elmi nüfuzunu formalaşdırır. 2019-2024-cü illərdə elmi dərəcə və elmi ad verilməsindən imtina hallarının sayı 1094 olub. Bu da əsasən plagiat, elmi keyfiyyətin aşağı səviyyədə olması və sənəd tələblərinə uyğun gəlməmək kimi səbəblərlə bağlıdır. Komissiya tərəfindən elmi dərəcə və ya elmi ad verilməsindən imtina halları ümumi müraciətlərin 30 faizdən çoxunu təşkil edir. Bu göstərici həm ölkə daxilində, həm də xaricdə – xüsusilə Türkiyə, Ukrayna, Rusiya və İtaliya kimi ölkələrdə elmi dərəcə almış iddiaçıların sənədləri əsasında verilmiş qərarları əhatə edir. Plagiat bu imtinaların başlıca səbəblərindən biridir və bu gün məhz Komissiyanın tətbiq etdiyi çoxpilləli qiymətləndirmə və prinsipial nəzarət mexanizmləri nəticəsində, yalnız ölkə daxilində deyil, həm də xaricdə əldə edilmiş (2019-2024-cü illərdə 42 nəfərin xaricdə əldə edilmiş sənədi tanınmayıb) elmi dərəcələrlə bağlı neqativ halların, o cümlədən plagiatın qarşısının alınması mümkün olur.

Komissiya bu istiqamətdə texnoloji və normativ tədbirlər həyata keçirir. Təqdim olunan bütün dissertasiyalar beynəlxalq lisenziyalı plagiat proqramları (StrikePlagiarism, Antiplagiat.ru, Turnitin) ilə yoxlanılır, həmçinin ekspert şuraları vasitəsilə məzmun analizi və açar ifadələrin kontekstual axtarışı aparılır. Bu yanaşma nəticəsində bəzi hallarda texniki plagiat əmsalı sıfır göstərilən dissertasiyalarda belə, plagiat faktları üzə çıxarılır. Eyni zamanda, psevdoelmi nəticələrin təqdim edilməsi, əvvəlki tədqiqatların yeni kimi təqdim olunması, təkrarlanan mövzular və bəzi dissertasiyaların digər şəxslər və ya kommersiya qurumları tərəfindən yazılması halları müəyyən edilir və həmin işlərə ciddi nəzarət tədbirləri tətbiq olunur. Komissiyanın mövcud hüquqi mexanizmləri çərçivəsində, elmi etika pozuntusu müəyyən edilərsə, yalnız iddiaçıya deyil, elmi rəhbər və opponentlərə də üçillik məhdudiyyət tətbiq edilir. Komissiya bu istiqamətdə fəaliyyətini davam etdirərək yalnız texniki yoxlama ilə kifayətlənməyib, kompleks etik nəzarət sistemini gücləndirməyi və elmi mədəniyyətin formalaşmasına töhfə verməyi hədəfləyir.

**– AAK-a təqdim olunan dissertasiyaların və vəsatətlərin obyektiv qiymətləndirilməsi başlıca olaraq ekspert şuralarının rəylərinə əsaslanır. Elmi ekspertizanın keyfiyyəti və müstəqilliyi ekspert şuralarının fəaliyyətindən asılıdır. Ekspert şuralarının tərkibi və fəaliyyət mexanizmləri üzrə, eləcə də fəaliyyətində elmi səviyyənin və obyektivliyin artırılması üçün AAK tərəfindən hansı struktur və normativ islahatlar həyata keçirilir?**

– Ekspert şuralarının fəaliyyəti və onların Komissiya sistemində tutduğu rol son illərdə nəzərəçarpacaq dərəcədə təkmilləşdirilib. Hazırda Komissiyanın nəzdində 24 elm sahəsi üzrə 15 ekspert şurası fəaliyyət göstərir və bu şuralara ümumilikdə 300-ə yaxın mütəxəssis cəlb olunub. Ekspert şuralarının tərkibi formalaşdırılarkən üzvlərin elmi dərəcələri, sahə üzrə ixtisaslaşmaları və elmi nüfuzu nəzərə alınır.

Ekspert şuralarının vəzifəsi yalnız texniki rəy verməklə məhdudlaşmır – onlar, həmçinin iddiaçılarla müzakirə aparır, onların təqdim etdikləri tədqiqatların elmi səviyyəsini, metodoloji ardıcıllığını və etibarlılığını qiymətləndirir. Ekspert rəylərində dissertasiyanın aktuallığı, tədqiqat üsullarının məqsədəuyğunluğu, nəticələrin dürüstlüyü və təkrarçılıq ehtimalları əsaslı şəkildə təhlil olunur. Eyni zamanda, elmi adlar üzrə təqdim olunan sənədlərdə plagiat halları və müəlliflik hüquqları xüsusi diqqətlə araşdırılır.

Struktur baxımından, ekspert şuraları Komissiyanın Rəyasət Heyətinin qərarları əsasında yaradılır. Şuraların iclaslarına zəruri hallarda iddiaçılar da dəvət edilir, bu isə qiymətləndirmə prosesinin şəffaflığını artırır. Dəvət olunmuş iddiaçı üzrsüz səbəbdən 2 ay ərzində iştirak etməzsə, ekspertiza dayandırılır və sənədlər geri qaytarılır.

Ekspert şuralarının tərkibi yalnız ixtisas sahəsində aktiv elmi fəaliyyət göstərən və elmi nüfuzu olan mütəxəssislərdən formalaşdırılır. Şura üzvlərinin yazılı razılığı alınmaqla formalaşdırılması, onların fəaliyyətində obyektivlik, peşəkar etik davranış və maraqların toqquşmasının qarşısının alınması ilə bağlı mexanizmlər də ayrıca müəyyən olunub. Qeyd edək ki, Komissiya tərəfindən ekspertlərin fəaliyyətinin keyfiyyətinə nəzarət həyata keçirilir və zəruri hallarda onların tərkibi dəyişdirilir.

Hazırda Komissiya ekspert fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində rəylərin standartlaşdırılması, fəaliyyətin hesabatlılığı və rəqəmsallaşdırılması kimi islahatlara hazırlaşır. Məqsəd yalnız nəticəyə deyil, nəticəyə gətirən elmi və metodoloji yolun da etibarlı şəkildə qiymətləndirilməsini təmin etməkdir. Bu yanaşma həm milli, həm də beynəlxalq elmi standartlara uyğun, çoxpilləli və məsuliyyətli ekspertiza sisteminin qurulmasına xidmət edəcək.

**– Son dövrlərdə elmi təşkilatların sayının və strukturunun optimallaşdırılması ilə bağlı müxtəlif təşəbbüslər irəli sürülüb. Lakin bu qurumların bir çoxunda hələ də maddi-texniki baza, insan resursları və tədqiqat məhsuldarlığı baxımından ciddi fərqliliklər qalmaqdadır. Məhz bu səbəbdən, AAK tərəfindən həyata keçirilən akkreditasiya mexanizmlərinin bu fərqlilikləri necə nəzərə aldığı və real keyfiyyətin təmininə nə dərəcədə xidmət etdiyi aktual müzakirə mövzusudur. Sizcə, mövcud akkreditasiya mexanizmləri elmi müəssisələrin fəaliyyətini daha səmərəli etmək üçün kifayət qədər təsirlidirmi?**

– Elmi müəssisələrin fəaliyyətinin səmərəliliyini təmin etmək və elmi keyfiyyəti yüksəltmək məqsədilə Komissiyaya son illərdə yeni səlahiyyətlər həvalə olunub. Xüsusilə elmi müəssisələrin və təşkilatların akkreditasiyası istiqamətində həyata keçirilən islahatlar bu sahədə mühüm dəyişikliklərin əsasını qoyub. Akkreditasiya prosesi yalnız struktur və sənəd üzərində yoxlama ilə məhdudlaşmır, həm də müəssisənin elmi məhsuldarlığı, tədqiqat potensialı və insan resursları kontekstində real fəaliyyətinə əsaslanır.

Komissiyanın yanaşması beynəlxalq təcrübəyə uyğun olaraq obyektivlik və tərəfsizlik üzərində qurulub. Belə ki, Komissiya ilə akkreditasiyadan keçməli olan elmi müəssisələr arasında təşkilati baxımdan heç bir asılılıq olmadığı üçün maraqların toqquşması ehtimalı azdır və bu da elmdə keyfiyyətin təmin olunması baxımından mühüm üstünlükdür.

Eyni zamanda, Komissiya bu işdə öz fəaliyyətini yalnız kəmiyyət qiymətləndirmələri ilə məhdudlaşdırmır, elmi tədqiqatların keyfiyyət göstəricilərinin yüksəldilməsi, monitorinq və akkreditasiya mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində strategiyalar formalaşdırır. Bu sahədə aparılan işlərin təhlili göstərir ki, burada kifayət qədər çağırışlar mövcuddur. Bəzi elmi təşkilatlarda infrastruktur, kadr potensialı və elmi nəticələrin səviyyəsi arasında ciddi fərqlər müşahidə olunur. Bu fərqliliklərin aradan qaldırılması üçün isə akkreditasiya sisteminin davamlı olaraq təkmilləşdirilməsi və müəssisələrin fəaliyyətinin dərin təhlilə əsaslanan keyfiyyət göstəriciləri ilə qiymətləndirilməsi vacibdir.



Hazırda akkreditasiya yalnız institusional səviyyədə həyata keçirilir, yəni elmi müəssisə və təşkilatlarda keyfiyyət təminatı sisteminin mövcudluğu və fəaliyyəti qiymətləndirilir. Lakin bu sahədə ən vacib istiqamətlərdən biri doktorantura və dissertantura proqramlarının məzmun və proses baxımından ayrıca akkreditasiyasıdır. Belə bir yanaşma təkcə ümumi infrastrukturun deyil, elmi kadrların hazırlanmasının konkret keyfiyyət göstəricilərinin də dəyərləndirilməsinə imkan verərdi. Doktorantura proqramlarının akkreditasiyası, təəssüf ki, hələ sistemli şəkildə həyata keçirilmir və bu, bir çox hallarda keyfiyyətsiz tədqiqatların yaranmasına, metodoloji zəifliklərə və təkrarlanan mövzuların yayılmasına səbəb olur. Komissiya bu istiqamətdə islahatları dəstəkləyir və hesab edir ki, məhz doktorantura proqramlarının ayrı-ayrılıqda akkreditasiyası gələcəkdə mövcud mənfi halların əvvəlcədən qarşısını almağa və elmi fəaliyyətin effektivliyini artırmağa xidmət edəcək.

**– Süni intellekt alətləri elmi tədqiqat metodologiyasını dəyişməkdədir. Bu texnologiyaların istifadəsi sizcə, elmi fəaliyyətə nə kimi təsirlər göstərir və bu sahədə tənzimləyici yanaşmalara ehtiyac varmı?**

– Süni intellekt alətləri, xüsusilə dil modelləri elmi tədqiqatın strukturuna və epistemoloji əsaslarına ciddi təsir göstərməkdədir. Bu texnologiyalar təkcə texniki əməliyyatları deyil, həm də tədqiqatın məzmununu, metodologiyasını və akademik yazı mədəniyyətini dəyişdirmək potensialına malikdir. Müasir elmi debatlarda süni intellektin bilik istehsalında insan-subyekt anlayışını necə transformasiya etdiyi, müəlliflik və məsuliyyət anlayışlarını necə yenidən şərh etdiyi əsas müzakirə mövzularındandır.

Əvvəla, bu texnologiyalar informasiyanın axtarışı, təhlili və ilkin strukturlaşdırılmasında tədqiqatçını dəstəkləyə bilər. Lakin bu, avtomatlaşdırılmış bilik formalarının dominantlaşması riskini də artırır. Belə bir tendensiya tədqiqatın reflektivliyini, metodoloji əsaslandırmanı və nəzəri dərinliyi zəiflədə bilər. İkincisi, akademik yazıda süni intellektdən istifadə edilməsi müəlliflik və etika məsələlərini daha da kəskinləşdirir. Bəzi hallarda tədqiqatçılar bu alətlərdən istifadəni "yardımçı funksiya" kimi təqdim etsələr də, faktiki olaraq, süni intellektin yaratdığı mətnlərin orijinallığı və onların müəlliflik hüququ ilə bağlı problemlər qalır.

Bu səbəbdən, bu texnologiyaların elmi fəaliyyətə inteqrasiyası yalnız texniki deyil, həm də normativ və institusional yanaşmalar tələb edir. Məsələn, elmi jurnallar və elmi dərəcə verən qurumlar bu vasitələrin istifadəsinə dair şəffaflıq tələblərini artırmalı, süni intellektlə yaradılmış mətnlərin açıqlanması və etika standartlarına uyğunluğu üçün prosedurlar müəyyənləşdirməlidir. Bununla yanaşı, Komissiya səviyyəsində biz dissertasiya və elmi əsərlərin ekspertizasında bu cür texnologiyalardan istifadəyə dair müasir beynəlxalq təcrübəyə əsaslanan meyarlar formalaşdırılmağı nəzərdə tuturuq. Əks halda, akademik keyfiyyətin və etibarlılığın saxlanılması çətinləşə bilər.

**– Azərbaycanda dövri elmi jurnalların beynəlxalq indekslərə çıxışı və keyfiyyət standartlarına uyğunluğu aktual məsələdir. AAK bu istiqamətdə nə kimi təşəbbüslər göstərir və gələcəkdə hansı tədbirlər nəzərdə tutulur?**

– Azərbaycanda dövri elmi jurnalların beynəlxalq indekslərə çıxışı və keyfiyyət standartlarına uyğunluğu məsələsi elmi fəaliyyətin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır. Komissiya bu sahədə konkret təşəbbüslər irəli sürüb və bir sıra sistemli tədbirlər həyata keçirib. Normativlərdə edilən dəyişikliklərlə elmi dərəcə və elmi ad almaq istəyən iddiaçılar üçün beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan dövri elmi nəşrlərdə məqalə dərc etdirmək tələbi təsbit edilib. Bu tələb həm elmi fəaliyyətin keyfiyyətini artırmağa, həm də elmi-tədqiqat institutları və ali təhsil müəssisələrinin elmmetrik göstəricilərini yaxşılaşdırmağa yönəlib.

Komissiya tərəfindən "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər" ciddi şəkildə yenilənib və 31 konkret meyar müəyyən edilib. Bu meyarlara dövri nəşrin dövlət qeydiyyatı, ISSN və e-ISSN kodlarının alınması, elektron platformada mövcudluğu, DOI təyinatı, beynəlxalq redaksiya heyətinin formalaşdırılması, plagiat yoxlanışının təmin olunması və məqalələrin elmi, qrammatik redaktəsi kimi bir çox texniki və məzmun baxımından keyfiyyətə yönəlmiş tələblər daxildir. Eyni zamanda, dissertasiya nəticələrinin dərc olunacağı nəşrlərdə məqalələrin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və nəticələrinin aydın şəkildə təqdim edilməsi şərt kimi irəli sürülür.

Bu tədbirlər bütövlükdə ölkə elminin beynəlxalq elmi informasiya mühitinə inteqrasiyasını gücləndirmək, yerli elmi nəşrlərin keyfiyyətini artırmaq və Azərbaycanın elmi jurnal sistemi üçün daha güclü beynəlxalq tanınma təmin etmək məqsədi daşıyır. Elmi jurnalların beynəlxalq indekslərə çıxışı üçün ən başlıca şərt tədqiqatların elmi keyfiyyətinin artırılmasıdır. Qlobal elmi bazalar yalnız metodoloji cəhətdən əsaslandırılmış, orijinal elmi nəticələr təqdim edən, aktual problemləri araşdıran və beynəlxalq elmi diskursa töhfə verən məqalələri qəbul edən jurnalları indeksləyir. Bu səbəbdən, redaksiyaların əsas diqqəti məhz keyfiyyətli tədqiqatların cəlbinə, ciddi resenziya prosesinə və elmi etikanın qorunmasına yönəlməlidir.

**– AAK ölkədə elmi dərəcə və adların verilməsi prosesinə cavabdeh olan əsas tənzimləyici qurumdur. Onun qəbul etdiyi qərarlar elmi karyeranın istiqamətini müəyyən edir və milli elmi sistemin keyfiyyətinə birbaşa təsir göstərir. AAK-ın qərarları və funksional rolu elmi ictimaiyyətin və akademik dairələrin diqqət mərkəzindədir. Son illərdə elmi dərəcə və adların verilməsi mexanizmlərinin effektivliyi, şəffaflığı və obyektivliyi ilə bağlı mediada müxtəlif fikirlər səsləndirilir. Sizcə, AAK-ın bir dövlət qurumu olaraq milli elm sistemində oynadığı funksional rol və məqsədi ictimaiyyət tərəfindən kifayət qədər aydın qəbul olunurmu? Bu qurumun əhəmiyyətini və legitimliyini gücləndirmək üçün hansı addımlar atılmalıdır?**

– Komissiyanın institusional gücü onun elmi müəssisə və ali təhsil qurumlarından müstəqil fəaliyyət göstərməsindədir. Bu, qərarların daha obyektiv və maraqlardan kənar verilməsinə imkan yaradır. Komissiya hazırda ölkədə elmi dərəcə və elmi adların verilməsi sahəsində keyfiyyətin təminatını həyata keçirən əsas tənzimləyici qurumdur. Onun fəaliyyəti yalnız inzibati prosedurların icrası ilə məhdudlaşmır, eyni zamanda, elmi fəaliyyətin məzmununa əsaslanan çoxsəviyyəli ekspertiza mexanizmi üzərində qurulub. Bu baxımdan, Komissiyanın əsas missiyası elmin etibarlılığına, şəffaflığına və akademik dürüstlüyə xidmət edən sistemli yanaşmanı təmin etməkdir. Son illərin statistikasına nəzər saldıqda görürük ki, təqdim olunan dissertasiya və attestasiya sənədlərinin təxminən 30 faizində elmi dərəcə və elmi adın verilməsindən imtina edilib. Bu göstərici bir tərəfdən Komissiyanın obyektiv və prinsipial mövqeyini, digər tərəfdən isə bəzi elmi və ali təhsil müəssisələrində keyfiyyətlə bağlı problemlərin hələ də mövcudluğunu göstərir.

Aparılmış qiymətləndirmələr göstərir ki, bəzi hallarda təqdim olunan işlərdə metodoloji zəifliklər, istinad qaydalarına əməl olunmaması, plagiat faktları, əvvəlki tədqiqatların yeni kimi təqdim edilməsi və etik prinsiplərə zidd hallara rast gəlinir. Bütün bu çatışmazlıqlar Komissiya tərəfindən aşkara çıxarılır və onların qarşısı alınır. Əks halda, elmi dərəcə və adların keyfiyyətsiz şəkildə verilməsi nəticəsində həm milli elm sistemində devalvasiya yaranar, həm də beynəlxalq miqyasda Azərbaycanın elmi nüfuzu zərər görə bilər.

Nəzərə almaq lazımdır ki, Komissiyanın fəaliyyət istiqamətləri, səlahiyyətləri və prioritetləri dövlətin elm siyasətinə uyğun olaraq formalaşır. Yəni, Komissiyanın mövcudluğu və fəaliyyəti birbaşa ölkə rəhbərliyinin elmi sistemin inkişafı və keyfiyyətin təmininə verdiyi önəmin nəticəsidir. Bu baxımdan, Komissiyanın institusional mövqeyi və ictimai legitimliyi həm də ümumi dövlət siyasətinin ayrılmaz bir hissəsi kimi qiymətləndirilməlidir.

**– Elmi tədbirlər alimlərin şəbəkələşməsi və nəticələrin yayılması üçün əsas platformadır. Sizcə, bu sahədə Azərbaycan alimlərinin qarşılaşdığı əsas manelər hansılardır və onların aradan qaldırılması üçün hansı dəstəyə ehtiyac var?**

– Elmi konfranslar və beynəlxalq tədbirlər akademik cəmiyyətin dinamikliyini təmin edən əsas platformalardan biridir. Məhz bu tədbirlər çərçivəsində elmi yeniliklər paylaşılır, mövcud nəzəri yanaşmalar yenidən dəyərləndirilir və yeni tədqiqat istiqamətləri formalaşır. Elmi fəaliyyətin canlı və qarşılıqlı müzakirəyə əsaslanan mahiyyəti baxımından bu cür tədbirlərin həm ölkə daxilində, həm də beynəlxalq miqyasda təşkili və dəstəklənməsi çox vacibdir.

Təəssüf ki, nəinki ölkəmizdə, eləcə də dünyada keyfiyyətli elmi platformaların əvəzinə formal xarakter daşıyan və ya "beynəlxalq" adı altında təşkil edilən, lakin elmi baxımdan şübhəli tədbirlərdə iştirak son zamanlar geniş vüsət alıb. Belə hallarda təqdim olunan tezis və məqalələr, məzmun baxımından ciddi elmi müzakirəyə əsaslanmır və yalnız attestasiya sənədlərinin tələblərini formal olaraq yerinə yetirmək məqsədi daşıyır. Komissiyanın apardığı monitorinq nəticəsində məlum olub ki, bəzi iddiaçılar saxta konfranslarda iştirak edərək, həmin tədbirlərin materiallarını təqdim edirlər. Bu tədbirlər bəzən bir neçə məruzəçi ilə keçirilir, tədbirin "beynəlxalq" statusuna baxmayaraq yalnız yerli iştirakçılardan ibarət olur və təqdim olunan məqalələr digər dillərdən fərqli olaraq yalnız Azərbaycan dilində yayımlanır.

Komissiya bu halların qarşısını almaq məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində məsələni müzakirəyə çıxarıb, belə tezislərin və məqalələrin elmi fəaliyyətin nəticəsi kimi təqdim edilməsinin yolverilməz olduğunu açıq şəkildə bəyan edib. Eyni zamanda, "yırtıcı" (predatory) jurnallarda dərc olunmuş məqalələrin elmi fəaliyyətə aid kimi qəbul olunmaması üçün ciddi nəzarət tədbirləri görülür.

Bu baxımdan, real və ciddi elmi tədbirlərə çıxış imkanlarının genişləndirilməsi, maliyyə və təşkilati dəstəyin artırılması, beynəlxalq elmi platformalarla əməkdaşlığın gücləndirilməsi, gənc tədqiqatçıların və doktorantların xaricdə keçirilən keyfiyyətli tədbirlərə inteqrasiyası üçün xüsusi proqramların hazırlanması zəruridir. Elmi nəticələrin yayılması yalnız formal tələblərin yerinə yetirilməsi deyil, həm də beynəlxalq elmi diskursda iştirak imkanlarının artırılması ilə mümkün olacaq.

**– AAK yalnız milli deyil, beynəlxalq səviyyədə də qarşılıqlı tanınma və təcrübə mübadiləsi proseslərinə cəlb olunur. Komissiyanın beynəlxalq təşkilatlarla əməkdaşlığı hansı istiqamətlərdə inkişaf etdirilir və gələcək planlar nədir?**

– Ali Attestasiya Komissiyasının beynəlxalq əməkdaşlıq fəaliyyəti ölkənin elmi məkanının qlobal elm sisteminə inteqrasiyasına xidmət edən əsas istiqamətlərdən biridir. Bu əməkdaşlıq çərçivəsində həm qarşılıqlı tanınma mexanizmləri formalaşdırılır, həm də təcrübə və tələblərin uyğunlaşdırılması yolu ilə elmi keyfiyyətin yüksəldilməsi məqsədi güdülür.

Bu baxımdan, 2024-cü ildə Komissiyanın beynəlxalq tərəfdaşlarla imzaladığı sənədlər və iştirakı ilə keçirilən tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Qazaxıstanın Elm və Ali Təhsil Nazirliyi ilə Komissiya arasında imzalanmış memorandum bu istiqamətdə atılmış mühüm addımlardandır. Memorandumun məqsədi Azərbaycan ilə Qazaxıstanın elmi nəşr siyahılarının uyğunlaşdırılması, dissertasiyaların əsas nəticələrinin dərc olunacağı jurnallara dair tələblərin birgə müəyyənləşdirilməsi və elmi mühitin qarşılıqlı inteqrasiyası üçün institusional platformanın qurulmasıdır. Bu, hər iki ölkənin tədqiqatçılarının bir-birlərinin jurnallarında məqalə dərc etdirməsini və elmi mübadilənin gücləndirilməsini asanlaşdıracaq.

Eyni zamanda, Komissiyanın MDB ölkələri ilə əməkdaşlığı davam etdirilir. Komissiyanın yaxın perspektivdə planlaşdırdığı addımlar sırasında isə MDB məkanında əməkdaşlığın dərinləşdirilməsi, türk dövlətləri platformasında mümkün inteqrasiya mexanizmlərinin araşdırılması və elmi nəşrlərin qarşılıqlı tanınmasına dair təşəbbüslərin genişləndirilməsi nəzərdə tutulur. Bu cür əməkdaşlıqlar, həm elmi kadrların mobilliyinə, həm də beynəlxalq tələblərə cavab verən elmi keyfiyyət standartlarının formalaşmasına mühüm töhfə verir.

**– Çoxlu sayda yerli tədqiqatçılar impakt faktorlu jurnallarda məqalə çap etdirməkdə dil baryeri, maliyyə tələbləri və elmi rəhbərliklə bağlı çətinliklərlə üzləşirlər. Bu manelərin aradan qaldırılması və azərbaycanlı tədqiqatçıların beynəlxalq elmi jurnallarda daha fəal iştirakı üçün hansı real dəstək mexanizmləri qurula bilər?**

– Nüfuzlu beynəlxalq jurnallarda dərc olunmaq yalnız fərdi tədqiqatçının nailiyyəti deyil, bütövlükdə ölkənin elmi nüfuzunun və akademik potensialının göstəricisidir. Bu, həmçinin Azərbaycanın beynəlxalq reytinqlərdəki mövqeyinə birbaşa təsir edən amildir.

Komissiyanın xüsusilə, elmi dərəcə və elmi ad almaq istəyən iddiaçılar üçün beynəlxalq xülasələndirmə və indeksləmə bazalarına daxil olan dövri elmi nəşrlərdə məqalə dərc etdirmək tələbinin tətbiqi, bu istiqamətdə mühüm keyfiyyət dönüşünə səbəb olub. Bu, təkcə fərdi tədqiqatçıların deyil, eyni zamanda, onların təhkim olunduğu elmi müəssisələrin elmmetrik göstəricilərinə müsbət təsir göstərir.

Bununla yanaşı, Komissiya ingilis dili üzrə imtahanların strukturunu beynəlxalq standartlara uyğunlaşdıraraq, yalnız texniki yoxlama deyil, akademik tədqiqat üçün zəruri olan dildən istifadə bacarıqlarını da qiymətləndirməyə başlayıb. Bu isə tədqiqatçıların beynəlxalq elmi mühitə inteqrasiyasını asanlaşdırır.

Lakin qeyd etmək lazımdır ki, bu sahədə real irəliləyiş üçün elmi və ali təhsil müəssisələrində tədqiqat bacarıqlarının inkişafı da zəruridir. Doktorantura və magistratura səviyyələrində metodologiya, akademik yazı və nəşr mədəniyyəti üzrə sistemli tədris və mentorluq təşəbbüsləri olmadan təkcə attestasiya tələbləri ilə bu problemin tam aradan qaldırılması mümkün deyil. Ona görə də bu məsələ təkcə Komissiyanın deyil, bütövlükdə ali təhsil sisteminin prioritet sahələrindən biri olmalıdır.

*(ardı 10-cu səhifədə)*

# *Ali Attestasiya Komissiyasının sədri:* Elmi dərəcə və adların verilməsi ilə bağlı meyarlar yenilənib

(əvvəli 9-cu səhifədə)

**– Bir çox doktorantlar elmi rəhbərlərinin formal yanaşmasından, vaxt ayırmamasından və istiqamət verməməsindən şikayətlənir. Elmi rəhbərlik institutunun məsuliyyətinin artırılması və keyfiyyətinin təmin olunması üçün AAK hansı mexanizmləri düzgün sayır?**

– Elmi rəhbərlik institutunun funksional rolu elmi dərəcə almaq istəyən iddiaçının tədqiqat bacarıqlarının formalaşmasında, elmi nəticələrinin dərinləşdirilməsində və metodoloji dəqiqliyin təmin olunmasında həlledici əhəmiyyət daşıyır. Komissiyanın hazırkı tələblərində elmi rəhbərin ixtisas uyğunluğu və elmi dərəcəsi önə çəkilsə də, praktikada rəhbərlik funksiyasının keyfiyyəti bəzən formallığa çevrilir. Bu isə həm doktorantların elmi inkişafını məhdudlaşdırır, həm də tədqiqatların elmi səviyyəsinə birbaşa təsir göstərir.

Məsələnin kökündə, elmi rəhbərlərin yalnız inzibati vəzifə daşıyan şəxslər deyil, aktiv tədqiqat fəaliyyəti ilə məşğul olan alimlərdən seçilməsi dayanmalıdır. Xüsusilə, nüfuzlu elmi-tədqiqat institutu və ali təhsil müəssisələrində çalışan, beynəlxalq nəşrlərdə çıxış edən, metodoloji bilikləri və sahə üzrə elmi çevrəsi olan gənc alimlərin elmi rəhbərliyə cəlb olunması təkcə fərdi doktorantın deyil, ümumilikdə ölkə üzrə tədqiqat keyfiyyətinin yüksəldilməsinə gətirib çıxara bilər.

Komissiya bu sahədə məsuliyyət və funksionallığı artırmaq üçün yaxın dövrdə elmi rəhbərlərin fəaliyyətinə dair hesabatlılıq, elmi nəticə əsasında qiymətləndirmə, həmçinin rəhbərliyin normativ çərçivəsinin yenilənməsi kimi addımlar atmağı məqsədəuyğun hesab edir. Beləliklə, elmi rəhbərlik formallıqdan çıxarılaraq elmi karyera inkişafında real təsirə malik mexanizmə çevrilə bilər.

**– Son illərdə təqdim olunan dissertasiya mövzularının bir qismi ya kifayət qədər elmi yenilik ehtiva etmir, ya da ölkənin sosial-iqtisadi və texnoloji prioritetləri ilə zəif əlaqəlidir. Mövzu seçiminin sistemsiz aparılması, dissertasiya təkliflərinin forma və məzmun baxımından səmərəliliyinə təsir edir. Dissertasiya mövzularının aktuallığını və tətbiq dəyərini artırmaq üçün nə kimi mexanizmlər təklif edilə bilər?**

– Dissertasiya mövzularının elmi və tətbiqi aktuallığı istənilən tədqiqatın cəmiyyətə və dövlətə faydasını müəyyən edən əsas göstəricidir. Təəssüf ki, son illərin təcrübəsi bir sıra təqdim olunan mövzuların ya yetərincə elmi yenilik ehtiva etmədiyini, ya da sosial-iqtisadi və texnoloji inkişafla uzlaşmadığını göstərir. Bu isə elmi nəticələrin real problemlərin həllinə töhfə verməsini çətinləşdirir.

Komissiyanın müşahidələrinə əsasən, mövzu seçimi çox zaman sistemsiz şəkildə və formallıqla aparılır. Elmi rəhbərlərin istiqamətverici rolunun zəifliyi, elmi müəssisələrdə tədqiqat strategiyasının olmaması və prioritet sahələrin müəyyən edilməməsi bu vəziyyətin əsas səbəblərindəndir.

2020–2025-ci illərdə ölkə daxilində müdafiə edilmiş fəlsəfə doktoru dissertasiyalarının monitorinqi göstərir ki, bu mövzuların bir çoxunun adları ümumi və deskriptiv xarakter daşıyır. Mövzular əsasən ənənəvi elmi sahələr üzrə seçilir və müasir elmi problemlərə və metodoloji yeniliklərə nadir hallarda toxunulur. İfadələr çox vaxt geniş və məqsəd-məzmun baxımından qeyri-dəqiqdir. Bu da tədqiqatın nəticələrinin praktik tətbiq imkanlarını və elmi yenilik iddiasını zəiflədir. Mövzu seçimi daha çox mövcud akademik maraqlar və ya institutun tədris profili ilə məhdudlaşır.

Digər tərəfdən, xaricdə müdafiə olunmuş və nostrifikasiya üçün təqdim edilmiş dissertasiya işlərində mövzu adları daha dəqiq, məqsədyönlü və konkret metodoloji çərçivəyə malikdir. Mövzular tez-tez qlobal trendlərə (rəqəmsallaşma, insan hüquqları, innovasiya siyasətləri, iqlim dəyişikliyi və s.) uyğunlaşdırılır. Bununla belə, bəzi hallarda bu mövzular Azərbaycan kontekstindən və milli prioritetlərdən uzaq qalır. Bu, onların nostrifikasiya mərhələsində əsas zəif cəhətlərindən biri kimi çıxış edir.

**– Elmi dərəcələrin əldə edilməsi ciddi elmi zəhmət və illərlə davam edən tədqiqat fəaliyyəti tələb etsə də, bir çox hallarda bu dərəcələr əmək bazarında rəqabət üstünlüyü və karyera perspektivləri baxımından real əksini tapmır. Bununla yanaşı, elmi dərəcə sahiblərinin ictimai nüfuzunun və intellektual liderliyinin zəifləməsi də geniş müzakirə olunur. Sizcə, elmi dərəcələrin ölkə daxilində dəyərinin artırılması və alim nüfuzunun bərpası üçün hansı institusional təşviq mexanizmləri vacibdir? Hansı təşviq və normativ dəyişikliklər buna müsbət təsir göstərə bilər?**

– Müasir dövrdə dünya bilik yönümlü iqtisadiyyat modelinə keçid mərhələsindədir və bu şəraitdə elmin rolu təkcə nəzəri bilik istehsalı ilə məhdudlaşmır, praktik nəticələr və innovativ həllər yaradan əsas vasitəyə çevrilir. Bilik iqtisadiyyatı informasiya və tədqiqatyönümlü bir sistemdir və burada məlumatlar dayanıqlı şəkildə yenilənməli və istifadəyə verilməlidir. Bu isə yalnız aktiv və keyfiyyətli elmi fəaliyyətin mövcudluğu ilə mümkündür.

Bu kontekstdə, elmi dərəcələrin dəyərinin artırılması təkcə rəsmi sənəd səviyyəsində deyil, onların bilik, texnologiya və innovasiya istehsalında funksional rolu ilə ölçülməlidir. Əgər elmi fəaliyyət real tədqiqat nəticələri, patentləşdirilmiş icadlar, praktik tətbiq imkanları və kommersiyalaşma potensialı ilə müşayiət olunarsa, bu zaman elmi dərəcə özünün cəmiyyət və iqtisadiyyat üçün faydasını göstərə bilər. Bu baxımdan, tədqiqatların kommersiyalaşdırılması mexanizmləri və innovativ məhsul istehsalına imkan verən mühitin qurulması əsas şərtlərdəndir.

Digər tərəfdən, elmi fəaliyyətin qlobal elmi cəmiyyətlə inteqrasiyası, beynəlxalq əməkdaşlıq və dünya elmi məkanında rəqabətədavamlı olmaq üçün vacibdir. Bu, həm də elmi dərəcəyə malik şəxslərin bilik istehsalında və texnoloji tərəqqidə aktiv iştirakını təmin edən əsas yoldur. Beləliklə, elmi fəaliyyət lokal deyil, qlobal standartlarla uzlaşmalı, nəticələr yalnız "formallıq" üçün deyil, ictimai və iqtisadi fayda yaratmaq üçün ortaya qoyulmalıdır.

Nəhayət, ali təhsil sistemi yalnız tədrisyönümlü deyil, həm də tədqiqatyönümlü sistem kimi qurularsa, bu, elmi dərəcələrin əhəmiyyətini artıracaq, cəmiyyət tərəfindən tanınmasını gücləndirəcək və innovasiya və icadların təşviqinə real zəmin yaradacaq.

**– Son illərdə Azərbaycan elmi qlobal elmi məkanla inteqrasiya səyləri fonunda yeni mərhələyə qədəm qoyur. Lakin elmi məhsuldarlıq, resursların effektivliyi və beynəlxalq tanınma hələ də arzuolunan səviyyədə deyil. Bu kontekstdə sizcə, hazırda Azərbaycan elminin qarşısında duran əsas problemlər və strateji vəzifələr hansılardır?**

– Əlbəttə, bu gün Azərbaycan elminin inkişafı dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Son illərdə elmi dərəcələrin verilməsi, elmi fəaliyyətin qiymətləndirilməsi və elmi müəssisələrin akkreditasiyası sahəsində sistemli addımlar atılıb. Lakin qarşıda duran əsas problemləri də açıq şəkildə deməliyik.

Birinci məsələ – elmi fəaliyyətin nəticəliliyidir. Hazırda bəzi tədqiqatların praktiki tətbiq potensialının tam reallaşmaması müşahidə olunur ki, bu da elmin iqtisadi və sosial inkişaf proseslərinə daha geniş töhfə vermək imkanlarını bir qədər məhdudlaşdırır. Elmi nəticələrin real sektorla əlaqələndirilməsi istiqamətində daha sistemli yanaşmalara ehtiyac qalır. Komissiya olaraq biz dissertasiya mövzularının aktuallığına və nəticələrinin ictimai faydalılığına xüsusi diqqət verilməsini vacib sayırıq.

İkinci mühüm məsələ – kadr potensialının dayanıqlığıdır. Elmi sistemdə gənc tədqiqatçıların daha fəal iştirakı və elmi rəhbərlik institutunun praktik funksionallığının gücləndirilməsi istiqamətində əlavə təşviq və dəstək mexanizmlərinə ehtiyac var. Bu, dissertasiya işlərinin keyfiyyətinə təsir göstərir. Biz ekspert şuralarının tərkibində bu balansı saxlamağa çalışırıq və gənc alimlərin cəlb olunmasını təşviq edirik.

Üçüncü məsələ – elmi dərəcə və adların sosial və institusional dəyəridir. Fəlsəfə doktoru və elmlər doktoru dərəcələrinin əmək bazarında rəqabət üstünlüyü kimi daha geniş tanınması və stimullaşdırılması üçün əlavə təşəbbüslərə ehtiyac duyulur. Bu tendensiya gənc nəslin elmi fəaliyyətə marağını təşviq etmək baxımından əlavə dəstək mexanizmlərinin zəruriliyini göstərir. Bu istiqamətdə elmi təşkilatlar, ali təhsil müəssisələri ilə sənaye, iş dünyası və istehsalat sektorları arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Hazırda bu əməkdaşlıq istiqamətində müəyyən təşəbbüslər olsa da, prosesin daha sistemli və davamlı şəkildə inkişaf etdirilməsinə ehtiyac qalır. Strateji baxışımız ondan ibarətdir ki, elmi dərəcə formal titul deyil, real elmi nəticənin və məsuliyyətin göstəricisi olmalıdır. Bizim bütün fəaliyyətimiz də bu məqsədə xidmət edir.

**Xuntaçıların məhkəməsi**

# Məhkəmədə mülki əhalini qətlə yetirməsi faktları ilə bağlı ifadələr dinlənilib

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 15-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra David Babayanın vəkili məhkəməyə müraciət edərək xəstəliyi ilə əlaqədar davamlı müalicə aldığını, buna görə də əvəzlənməsini xahiş edib.

David Babayan müdafiəçisinin dəyişməsinə etirazının olmadığını bildirib.

Daha sonra məhkəmə zərərçəkmiş şəxslərin dindirilməsi ilə davam etdirilib.

Zərərçəkmiş şəxs Sücaət Mədətova Füzuli şəhərinin 1992-ci il mayın 16-da Ermənistan ordusu tərəfindən raket atəşinə tutulması nəticəsində həyat yoldaşının şəhid olduğunu deyib.

O, dövlət ittihamçısı Vüsal Abdullayevin sualına cavabında bildirib ki, Ermənistan silahlı qüvvələri rayonu işğal edəndə dörd tərəfdən mühasirəyə alıblar. Dinc sakinlərə qaçmağa belə imkan verilməyib, onlar müxtəlif tipli silahlarla atəşə tutulub, nəticədə çox sayda insan həlak olub.

Zərərçəkmiş digər şəxs Aqşin Ağazadə deyib ki, Ermənistan ordusunun bölmələrinin 1992-ci il martın 16-da Hadrut istiqamətindən Füzuli rayonunun Hərbi Komissarlığını raketlə vurmaları nəticəsində atası və qardaşı həyatlarını itiriblər.

O, 1993-cü ildə kəndləri işğal olunanda dayısının, həmçinin kəndin 9 mülki sakininin də qətlə yetirildiyini deyib. Zərərçəkmiş vurğulayıb ki, öldürülənlərin heç biri silahlı deyil, mülki şəxslər olub.

Zərərçəkmiş Rey Qasımov 1992-ci ilin yaz aylarından Ağdam şəhərinin Ermənistan ordusu tərəfindən atəşə tutulduğunu söyləyərək deyib: "Bu atəş nəticəsində onlarla ağdamlı həlak oldu və yaralandı. Mənim 70 yaşlı xalam da həmin atəş nəticəsində xəsarət aldı və sonradan dünyasını dəyişdi".

Zərərçəkən ifadəsində vurğulayıb ki, Ağdamdan məcburən evlərindən çıxanda onlara heç bir əşyalarını götürməyə imkan verməyiblər.

O, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında bildirib ki, ermənilərin Ağdama ərazi iddiası 1988-ci ildə Xankəndidəki mitinqlərdən sonra başlayıb.

Digər zərərçəkmiş Kərim Novruzov qeyd edib ki, Ermənistan ordusunun sonuncu irimiqyaslı hücumu 1992-ci il martın 12-də baş verib. "Ermənilər Ağdərə rayonunun beş kəndinə, o cümlədən bizim Baş Güneypəyə kəndinə hücum etdilər. Onlar kəndi mühasirəyə alıb, tanklardan və ağır artilleriyadan atəş açırdılar. Kifayət qədər hərbi qüvvələri var idi, avtomatlar, pulemyotlar, snayper tüfəngləri ilə silahlanmışdılar. Atam 1992-ci il martın 12-də dinc sakinləri qətliamdan xilas edərkən həlak oldu. Atamdan əlavə, qardaşım, iki əmim və digər qohumlarım və uşaqlıq dostum həmin vaxt qətlə yetirildi. Hazırda da onların nəşlərinin harada olduğu məlum deyil", – deyə K.Novruzov əlavə edib.

O, Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında deyib ki, həmin hücum zamanı atası Əvəz Novruzov, qardaşı Ziya Novruzov, əmiləri İsa Novruzov, Əsəddin Novruzov və Şəmsəddin Novruzov, nənəsi Səkinə Novruzova və digər kənd sakinləri, ümumilikdə, 17 mülki azərbaycanlı qətlə yetirilib.

Zərərçəkən Bəxtiyar Ələsgərov məhkəməyə ifadə verib ki, Ermənistan silahlı qüvvələri 1992-ci il martın 12-də onların yaşadıqları Ağdərənin Baş Güneypəyə kəndinə dörd tərəfdən hücum edib. Həmin vaxt onun 17 yaşı olub, hadisə zamanı ayağından və çiynindən yaralanıb. Hücum vaxtı günahsız insanlara atəş açılıb, onlar qətlə yetirilib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında B.Ələsgərov söyləyib ki, Ermənistan hərbçiləri hadisə zamanı onun babası Balay Qəribovu, nənəsi Saray İsmayılovanı, anası Zabilə Ələsgərovanı, bacısı Nərgiz Ələsgərovanı və xalası Ramilə Ələsgərovanı öldürüblər. Onların cəsədlərinin yeri indiyədək məlum deyil.

Zərərçəkmiş Elşad Aslanov Ermənistan ordusunun 1992-ci il martın 16-da Ağdərə rayonunun 5 kəndini mühasirəyə aldığını vurğulayıb. Bildirib ki, erməni hərbçiləri onun atasını, dayılarını və digər mülki sakinləri qətlə yetiriblər.

Zərərçəkən Kənan Bayramov isə deyib ki, Ermənistan silahlı qüvvələri 1992-ci ildən Azərbaycanın Tərtər rayonuna hücum edib. Dövlət ittihamçısı Fuad Musayevin sualına cavabda bildirilib ki, həmin hücumlarda iştirak edənlər arasında təqsirləndirilən Arayik Harutyunyanın qardaşı da olub. Bu müharibə zamanı Tərtər çoxlu şəhid verib. Ermənistan ordusunun bölmələri həmin vaxt Tərtərə işğal altında saxladıqları Azərbaycanın ərazilərindən atəş açıblar. Zərərçəkən şəxs müharibə zamanı səhhətində ciddi problemlər yarandığını deyib. Prosesdə ifadə verən zaman da zərərçəkənin vəziyyəti pisləşdiyi üçün həkim müayinəsinə ehtiyac duyulub.

K.Bayramov diqqətə çatdırıb ki, əsirlikdən qayıdanların birinin başına "kislota" vurmuşdular, o, çox yaşamadı.

Zərərçəkən Vaqif Məhərrəmov Cəbrayılın işğalı zamanı zərər çəkdiyini qeyd edib. Deyib ki, Ermənistanın işğalçılıq siyasəti və təcavüzkar müharibəsi nəticəsində rayonun çoxlu sayda sakini şəhid olub. Rayon sakinləri doğma yurdundan qovulub, onların əmlakları talan olunub.

Dövlət ittihamçısı Təranə Məmmədovanın sualına cavabında zərərçəkən deyib ki, Cəbrayıla hücum 1990-1991-ci illərdən başlayıb. Ermənistan tərəfi rayona müxtəlif tipli silahlar, ağır texnika ilə hücum edib. Zərərçəkən şəxs təqsirləndirilən Davit İşxanyanın sualına cavabında qeyd edib ki, o, Cəbrayılda polis rəisi işləyib. Cəbrayıla hücum edənlər arasında xarici muzdlular da olub.



Digər zərərçəkmiş Elxan Mehdiyev 1992-ci ildə Ermənistan ordusunun hücumu nəticəsində qardaşının Qubadlıda şəhid olduğunu deyib. Diqqətə çatdırıb ki, erməni hərbçilər Ermənistan sərhədindən rayonu atəşə tuturdular. O, daha əvvəl atasının girov götürüldüyünü, altı aydan sonra isə nəşini aldıqlarını bildirib.

Zərərçəkmiş Osman Vəliyev qeyd edib ki, Zəngilanda baş verənlər miqyasına görə Xocalı faciəsindən kiçik olsa da, dəhşətli idi.

O bildirib ki, Zəngilan rayonunun 11 kəndi Ermənistan ordusu tərəfindən 1992-ci ilin dekabrında işğal olunub. İşğal zamanı dinc sakinlərə işgəncələr verilib, çoxlu sayda insan həlak olub.

"1993-cü ildə Zəngilan, Qubadlı, Cəbrayıl və Arazqırağı ərazilər işğal olunduqdan sonra Zəngilan rayonunun Azərbaycanın digər əraziləri ilə əlaqəsi kəsildi", – deyə zərərçəkmiş vurğulayıb.

Zərərçəkmiş Sərxan Musayev Tərtərin Ermənistan ordusu tərəfindən 1991-ci ildən artilleriya atəşinə tutulduğunu söyləyərək deyib: "Nəticədə dinc sakinlər arasında ölənlər və yaralananlar oldu, evlərə ziyan dəydi".

Məhkəmədə ifadə verən zərərçəkmiş Mədəd Hümbətalıyev də Cəbrayılın işğalı zamanı zərər çəkdiyini deyib. O qeyd edib ki, rayona hücum müxtəlif tipli silahlar, o cümlədən ağır texnika ilə həyata keçirilib. Ermənistan Cəbrayılı o zaman işğal altında saxladığı Hadrutdan hədəf alıb. O diqqətə çatdırıb ki, bu gün məhkəmədə əyləşən 15 şəxs milliyyətcə erməni olduqları üçün deyil, Azərbaycan xalqına qarşı ən ağır cinayətlər törətdikləri üçün mühakimə olunur. Onlar Cəbrayılı işğal edərkən rayon sakinlərinə zülm veriblər. Ərazilərimizi işğal altında saxladıqları vaxt qəbiristanlıqlarımızı dağıdaraq cəsədləri məzardan çıxarıb və təhqir ediblər.

Zərərçəkən məhkəmədə ifadə verərkən Ermənistan silahlı qüvvələrinin rayonlarımızı işğal edən zaman lentə alınan video nümayiş olunub. Zərərçəkən kadrları göstərərək deyib ki, bura Qubadlı rayonunun ərazisidir. Ermənistan Ordusu Qubadlı işğal olunduqdan sonra həmin ərazidən Zəngilana hücum edib, onların kəndini yandırıb. Hərbçilər Dərzili kəndində qətlə yetirdikləri azərbaycanlıların meyitlərini yandırıblar.

Videokadrlarda Ermənistan ordusunun döyüşçüsü götürdükləri yüksəklikdən danışır. Bildirir ki, buradan da irəliləyib Zəngilana gedəcəklər. O, babalarının "vəsiyyətini" yerinə yetirdiklərini, məqsədlərinə çatdıqlarını deyir. Sonra isə daşnakların "Qalx daşnak Dro" mahnısını ifa edirlər.



Videoda üzərində "Daşnaksütyun" partiyası yazılmış bayraq nümayiş olunur. Zərərçəkən dövlət ittihamını müdafiə edən prokurorların sualına cavabında deyib ki, Ermənistan hərbçiləri azərbaycanlıların meyitlərinin üstünə benzin tökərək yandırıblar. O, ifadəsində söyləyib ki, Ermənistan ordusu 1993-cü il oktyabrın 25-i Dərzili kəndindən tanklarla Zəngilana hücuma keçib. Orada 7 polisimiz qəhrəmancasına şəhid olub. Tank mərmisinin onun yaxınlığına düşməsi nəticəsində ağır yaralanıb və on yeddi qəlpə yarası alıb. Zərərçəkən növbəti kadrların Qubadlının Zilanlı kəndində lentə alındığını deyib. Bildirib ki, Ermənistan silahlı qüvvələri kəndlərimizi, o cümlədən onun yaşadığı Məmmədbəylini də yandırıb. Qətlə yetirdikləri yeddi polisimizin nəşi indiyədək tapılmayıb. Onların ailələrinin gözü hələ də yoldadır.

Məhkəmədə ifadə verən İlyas Şəmilov da Ermənistanın Tərtəri atəşə tutması nəticəsində zərər çəkdiyini vurğulayıb. Bildirib ki, həmin vaxt Tərtər mütəmadi olaraq atəşə məruz qalıb.

Digər zərərçəkmiş Ənvər Qafarov isə Cəbrayılın işğalı zamanı zərər çəkdiyini deyib. Bildirib ki, Ermənistan ordusu Cəbrayıla hücum edəndə mülki vətəndaşları hədəf alıb. Əsasən də əkin-biçin vaxtı sakinlərə hücum edilib.

Zərərçəkən Aslan Şahbazov da Qubadlının işğalından danışaraq söyləyib ki, 1988-1989-cu illərdən rayon əhalisinə hücumlar edilib. Rayon müxtəlif tipli silahlarla atəşə tutulub. O, bu müharibə zamanı çoxsaylı qohumlarının şəhid olduğunu deyib.

Zərərçəkən Azad Musayev Zəngilanın, Azər Eminov isə Qubadlının işğalı zamanı zərər çəkdiklərini qeyd ediblər. Onlar ifadələrində diqqətə çatdırıblar ki, təqsirləndirilən şəxslər bütünlükdə bəşəriyyətə, insanlığa qarşı cinayət törədiblər.

Məhkəmədə ifadə verən Əlisəfa Quliyev də Zəngilanın işğalı zamanı zərər çəkdiyini deyərək bildirib ki, həmin vaxt erməni hərbçilər dinc sakinlərə zülm veriblər, insanları güllələyib, başlarını kəsiblər. Məqsəd əhalini məhv etmək olub.

Məhkəmə prosesində zərərçəkmiş şəxslər ifadə verərkən, həmçinin təqsirləndirilən şəxslər tərəfindən onlara suallar ünvanlanıb.

Məhkəmə prosesi mayın 16-da davam etdiriləcək.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 157** **Bakı şəhəri, 12 may 2025-ci il**

**“Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, “Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında”, “Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında”, “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə”, “Dövlət qulluğu haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında”, “İşsizlikdən sığorta haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 avqust tarixli 176 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası**

Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və “Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə və Azərbaycan Respublikasının Vergilər Nazirliyinə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar”ın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 183 nömrəli Qərarının ləğv edilməsi barədə

“Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, “Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında”, “Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında”, “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə”, “Dövlət qulluğu haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında”, “İşsizlikdən sığorta haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 avqust tarixli 176 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 4 sentyabr tarixli 198 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti işçilərinin əmək intizamı haqqında Nizamnamə”nin 13-cü hissəsindən “və işçinin əmək kitabçasına qeyd olunur” sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 5 dekabr tarixli 135 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 544 (Cild I); 2024, № 1, maddə 79) ilə təsdiq edilmiş “Xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanması rejimi, normativləri və müalicəsi haqqında Əsasnamə”nin 7.5-ci bəndinin üçüncü abzası ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 596 (Cild I); 2024, № 3, maddə 335, № 9, maddə 1067) ilə təsdiq edilmiş “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin 96-cı hissəsinin birinci cümləsində “iş yeri üzrə (əmək kitabçasının olduğu yerdə)” sözləri “əsas iş yeri üzrə” sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 197 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 328, № 9, maddə 1090; 2025, № 2, maddə 180; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 12 mart tarixli 71 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə”nin 2.3-cü bəndinin “b” yarımbəndinə “iş stajını təsdiq edən” sözlərindən sonra “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarışı, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə” sözləri ilə əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 682 (Cild I) ilə təsdiq edilmiş “Borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin Siyahısı”nın 37-ci və 38-ci hissələrinin “a” bəndləri aşağıdakı redaksiyada verilsin:

“a) Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemində bağlanılmış əmək müqaviləsi”, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda isə əmək müqaviləsinin əsli;”.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 53 (Cild I); 2024, № 7, maddə 930) ilə təsdiq edilmiş “Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı”nın 1.13-cü bəndinin üçüncü abzasında “əmək kitabçasının olduğu işəgötürənin” sözləri “əsas iş yeri üzrə işəgötürənin” sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 31 may tarixli 109 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 5, maddə 359 (Cild I) əlavə - “Kənd təsərrüfatı müəssisələrində işçilərin əmək haqqının normativlərinə dair Tövsiyələr”in 2.8.8-ci yarımbəndinin ikinci abzasının birinci cümləsindən “kollektiv” sözü çıxarılsın.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 15 sentyabr tarixli 149 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 629 (Cild I); 2024, № 5 (II kitab), maddə 579) ilə təsdiq edilmiş “Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin əmək haqqının ödənilməsi Qaydası”nın 2.11-ci bəndinin ikinci abzasından “və əmək kitabçasına” sözləri çıxarılsın.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 may tarixli 84 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 321 (Cild I) ilə təsdiq edilmiş “Haqqı ödənilən ictimai işlərin təşkili Qaydaları”nın 2.10-cu bəndinin birinci cümləsi çıxarılsın.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 162 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 645 (Cild I); 2024, № 3, maddə 315, № 9, maddə 1090) ilə təsdiq edilmiş “Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 17-ci hissənin ikinci abzasının birinci cümləsinə “hərbi bilet,” sözlərindən sonra “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə” sözləri əlavə edilsin;

10.2. həmin Qaydaya əlavə (Forma 2) – “ANKET”in 23-cü hissəsinə “əmək kitabçasına” sözlərindən əvvəl “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarışa, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə” sözləri əlavə edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 31 oktyabr tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 651 (Cild I) ilə təsdiq edilmiş 12 nömrəli əlavə - “Prokurorluq işçilərinə iş stajına görə əlavə haqqın verilməsi Qaydası”nın 4.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

11.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

“İş stajı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarışa, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasına əsasən müəyyən edilir.”;

11.2. ikinci cümlədə “Əmək kitabçası” sözləri “Qeyd edilən sənədlər” sözləri ilə və “onda” sözü “onlarda” sözü ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 1 iyul tarixli 124 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 658 (Cild I); 2024, № 4, maddə 446) ilə təsdiq edilmiş “Yüksək ixtisaslı mütəxəssislər sırasından seçilərək kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə hərbi xidmətə qəbul olunmuş hərbi qulluqçuların hərbi xidmətə qəbul olunana qədərki əmək stajının pensiya təyin edilməsi və xidmət illərinə görə əlavə faizin ödənilməsi üçün onların xidmət illərinə hesablanması Qaydası”nın 4-cü hissəsində “müəyyən edilmiş qaydada doldurulmuş” sözləri “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə” sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1073 (Cild I); 2024, № 3, maddə 311) ilə təsdiq edilmiş “Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota tətbiq edilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

13.1. 1.3-cü bənd üzrə:

13.1.1. üçüncü abzasda “yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər” sözləri “1 və ya daha çox uşağını təkbaşına böyüdən, 5 və daha artıq uşağı olan, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqları tərbiyə edən valideynlər” sözləri ilə əvəz edilsin;

13.1.2. dördüncü abzas ləğv edilsin;

13.2. 3.1-ci bəndin ikinci cümləsində “Məşğulluq” altsistemi (bundan sonra - MAS)” sözləri “Əmək və məşğulluq” altsistemi (bundan sonra - ƏMAS)” sözləri ilə və “MAS-a” sözləri “ƏMAS-a” sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 may tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 446 (Cild I) ilə təsdiq edilmiş “Ədliyyə orqanları işçilərinin qulluq illərinin hesablanması və bununla əlaqədar onlara əlavə haqqın verilməsi Qaydası”nın 4.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

14.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

“Qulluq illəri Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarışa, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasına əsasən müəyyən edilir.”;

14.2. ikinci cümlədə “Əmək kitabçası” sözləri “Qeyd edilən sənədlər” sözləri ilə və “onda” sözü “onlarda” sözü ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 aprel tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 270 (Cild I); 2024, № 1, maddə 111; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 12 mart tarixli 71 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası”na 3 nömrəli əlavə - “İxtisas məlumatlarının nümunəvi forması”nın 4-cü hissəsinə “işçilərinin” sözündən sonra “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarışlar, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə” sözləri əlavə edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 8 iyun tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 553 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş “Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası”nın 2.10.4-cü yarımbəndinə “əmək kitabçası” sözlərindən əvvəl “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə” sözləri əlavə edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 695 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 612, № 9, maddə 1058) ilə təsdiq edilmiş “Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları”na aşağıdakı dəyişikliklər edilsin:

17.1. 3.3-cü, 4.2-ci və 6.6-cı bəndlərin yeddinci abzasları aşağıdakı redaksiyada verilsin:

“iş stajı olanlar üçün Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasından çıxarış;”;

17.2. 3.18-ci bənddə “Doktoranturaya” sözü “Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda doktoranturaya” sözləri ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 4 may tarixli 67 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 441 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Fövqəladə hallar orqanları əməkdaşlarının xidmət illərinin və bununla əlaqədar onlara verilən fasiləsiz xidmət illərinə görə haqqın hesablanması Qaydası”nın 4.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

18.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

“Xidmət illəri Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarışa, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasına əsasən müəyyən edilir.”;

18.2. ikinci cümlədə “Əmək kitabçası” sözləri “Qeyd edilən sənədlər” sözləri ilə və “onda” sözü “onlarda” sözü ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1072 (Cild I); 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Elektron xidmət növlərinin Siyahısı”nın 9.13-cü və 9.14-cü bəndləri ləğv edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 20 iyun tarixli 133 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 631 (Cild I) ilə təsdiq edilmiş “Gənclərin kadr potensialı barəsində məlumat bankı haqqında Əsasnamə”nin 3.4.6-cı yarımbəndinə “əmək kitabçasının” sözlərindən əvvəl “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda isə” sözləri əlavə edilsin.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 16 noyabr tarixli 260 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1199 (Cild I); 2024, № 5 (II kitab), maddə 582) ilə təsdiq edilmiş “Miqrasiya orqanları işçilərinin fasiləsiz qulluq illərinin və bununla əlaqədar onlara verilən əlavələrin hesablanması Qaydası”nın 4.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

21.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

“Qulluq illəri Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarışa, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasına əsasən müəyyən edilir.”;

21.2. ikinci cümlədə “Əmək kitabçası” sözləri “Qeyd edilən sənədlər” sözləri ilə və “onda” sözü “onlarda” sözü ilə əvəz edilsin.

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 dekabr tarixli 320 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1384 (Cild I) ilə təsdiq edilmiş “Yoxlamaların aparılmasına cəlb edilən şəxslərin anket məlumatlarının toplanması, yoxlanması və onların seçilməsi Qaydası”nın 6.4-cü bəndindən “əmək kitabçasında və digər” sözləri və “həmin” sözü çıxarılsın.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 16 avqust tarixli 212 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 1011 (Cild I); 2024, № 5 (II kitab), maddə 579) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcədən maliyyələşdirilən meliorasiya və su təsərrüfatı işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləği”nin 3.5-ci bəndinə “işçinin” sözündən əvvəl “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən işçinin əmək müqavilələrinə dair çıxarışa, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə” sözləri əlavə edilsin.

24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 595 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”nin 2.11.4-cü yarımbəndində “əmək kitabçasının surəti, əmək kitabçası” sözləri “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının surəti, qeyd edilən sənədlər” sözləri ilə əvəz edilsin.

25. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 262 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 893 (Cild I); 2024, № 3, maddə 328, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - “Limanlarda gəmi agenti tərəfindən xidmətlərin göstərilməsi üçün sertifikatın forması, qüvvədə olma müddəti, verilmə və ləğv edilmə Qaydası”nın 3.3.1-ci yarımbəndinin 5-ci abzasına “əmək kitabçasının” sözlərindən əvvəl “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə” sözləri əlavə edilsin.

26. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 oktyabr tarixli 324 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1238 (Cild I); 2024, № 4, maddə 441, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş “Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi Qaydası”nın 3.1.6-cı yarımbəndi aşağıdakı redaksiyada verilsin:

“3.1.6. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının təsdiq edilmiş surəti;”.

27. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 16 noyabr tarixli 464 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1952 (Cild I); 2024, № 3, maddə 313) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən ipoteka krediti, o cümlədən güzəştli ipoteka krediti üzrə borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması Qaydası”nın 3.3-cü bəndinin birinci cümləsində “Əmək müqaviləsi bildirişi” sözləri “Əmək və məşğulluq” sözləri ilə əvəz edilsin.

28. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 iyul tarixli 285 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1482 (Cild I); 2025, № 2, maddə 206) ilə təsdiq edilmiş “Dövlət qulluğuna qəbul üzrə müsahibədə iştirak etmək üçün müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

28.1. 2.2-ci və 10.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“2.2. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının surəti.”;

“10.5. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının surəti;”;

28.2. həmin Qaydalara əlavə - “Dövlət qulluğu üzrə müraciət Forması” üzrə:

28.2.1. 6.2-ci və 6.3-cü bəndlərə “əmək kitabçasının” sözlərindən sonra “(olduğu halda)” sözləri əlavə edilsin;

28.2.2. 6.5-ci bənddən “(əmək kitabçası üzrə)” sözləri çıxarılsın.

29. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 619 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2564 (Cild I) ilə təsdiq edilmiş “Fərdi məşğulluq proqramının yerinə yetirilməsi Qaydası və hesabatın forması”nda aşağıdakı dəyişikliklər edilsin:

29.1. 1.1-ci bənddə “işsizlərə” sözü “işsiz, habelə “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun 20.2.2-ci, 21.1-ci və 24.1-ci maddələrinə uyğun olaraq aktiv məşğulluq tədbirlərinə cəlb edilən işaxtaran şəxslərə (bundan sonra – işsiz və işaxtaran şəxs)” sözləri ilə əvəz edilsin;

29.2. 1.2-ci, 2.1-ci, 2.2-ci və 2.6-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

“1.2. Fərdi məşğulluq proqramı – işsiz və işaxtaran şəxsin işə düzəlməsinə və əmək bazarına qaytarılmasına kömək məqsədilə məşğulluq imkanlarının qiymətləndirilməsi əsasında hazırlanan, aktiv məşğulluq tədbirlərinin konkret həcmini, növünü, ardıcıllığını və icra müddətini, habelə işsizlikdən sığorta ödənişinin verilməsini və iş axtarışını müəyyən edən elektron sənəddir.”;

“2.1. İşsiz və işaxtaran şəxsin işə düzəlməsinə və əmək bazarına qaytarılmasına kömək məqsədilə Agentlik və ya Mərkəz tərəfindən fərdi məşğulluq proqramı tərtib olunur.

2.2. İşsiz və işaxtaran şəxs fərdi məşğulluq proqramının hazırlanması məqsədilə qeydiyyata alındıqdan sonra Agentliyin yerli qurumlarına və ya Mərkəzlərə gəlməli və ya onlayn rejimdə məsləhət xidmətindən keçməlidir.”;

“2.6. Bu Qaydanın 2.1-ci bəndinə uyğun olaraq hazırlanmış fərdi məşğulluq proqramı işsiz və işaxtaran şəxsin elektron kabinetində əks olunur, işsiz və işaxtaran şəxs qeydiyyata alındığı tarixdən ən geci 14 gün ərzində onu ƏMAS-da təkmil sertifikatlı gücləndirilmiş elektron imza və ya digər elektron eyniləşdirmə vasitəsilə təsdiqləyir.”;

29.3. 1.3-cü və 2.3-cü bəndlərdə “işsizin” sözü “işsiz və işaxtaran şəxsin” sözləri ilə əvəz edilsin;

29.4. 2.5-ci bənddə “Mərkəzləşdirilmiş Elektron İnformasiya Sistemi”nin (bundan sonra – MEİS) “Məşğulluq” altsisteminə (bundan sonra - MAS)” sözləri “Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra – MEİS) “Əmək və məşğulluq” altsisteminə (bundan sonra - ƏMAS)” sözləri ilə əvəz edilsin və həmin bəndə “gücləndirilmiş” sözündən əvvəl “təkmil sertifikatlı” sözləri əlavə edilsin;

29.5. aşağıdakı məzmunda 2.7-ci və 4.4-cü bəndlər əlavə edilsin:

“2.7. İşsiz və işaxtaran şəxs fərdi məşğulluq proqramının tərtib edilməsindən imtina etdikdə və ya onu təsdiq etmədikdə işaxtaran və işsiz kimi qeydiyyatı ləğv edilir.”;

“4.4. İşsiz və işaxtaran şəxs fərdi məşğulluq proqramını icra etmədikdə və icrası barədə hesabatı “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun 27.2-ci maddəsi ilə müəyyən edilmiş müddətdə təqdim etmədikdə işaxtaran və işsiz kimi qeydiyyatı ləğv edilir.”;

29.6. 3.1-ci bəndə “İşsiz” sözündən sonra “və işaxtaran şəxs” sözləri əlavə edilsin;

29.7. 3.2-ci bəndə “işsiz” sözündən sonra “və işaxtaran şəxs” sözləri əlavə edilsin;

29.8. 3.3-cü bəndin birinci cümləsinə “İşsiz” sözündən sonra “və işaxtaran şəxs” sözləri əlavə edilsin və həmin cümlədə “MAS-a” sözləri “ƏMAS-a” sözləri ilə əvəz edilsin;

29.9. 4.1-ci bəndin birinci cümləsində “MAS” akronimi “ƏMAS” akronimi ilə və ikinci cümləsində “İşsiz şəxsi” sözləri “İşsiz və işaxtaran şəxs” sözləri ilə əvəz edilsin;

29.10. 4.2-ci bəndin birinci cümləsində “İşsiz MAS” sözləri “İşsiz və işaxtaran şəxs ƏMAS” sözləri ilə əvəz edilsin və ikinci cümləsinə “işsiz” sözündən sonra “və işaxtaran” sözləri əlavə edilsin;

29.11. həmin Qaydaya 1 nömrəli əlavə - “Fərdi məşğulluq proqramı” üzrə:

29.11.1. “Fərdi məşğulluq proqramını yerinə yetirəcək şəxsin” hissəsində “işsizin” sözü “işsiz və işaxtaran şəxsin” sözləri ilə əvəz edilsin;

*(ardı 12-ci səhifədə)*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

(əvvəli 11-ci səhifədə)

29.11.2. "Fərdi məşğulluq proqramının təsdiqi barədə" hissəsi aşağıdakı redaksiyada verilsin:

| Fərdi məşğulluq proqramının təsdiqi barədə: | |
|---|---|
| Proqramı hazırlayan şəxsin soyadı, adı, atasının adı | |
| Agentliyin yerli qurumu və ya Mərkəzin məsul əməkdaşı | |
| Tərəflərin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası və ya digər elektron eyniləşdirmə vasitəsilə təsdiq edilir | |

29.11.3. "**** Gücləndirilmiş elektron imza ilə təsdiqləndikdə imza və möhür sahələrində məlumat əks olunmur." sözləri çıxarılsın.

30. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 620 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2565 (Cild I); 2024, № 4, maddə 476) ilə təsdiq edilmiş "Sığorta ödənişinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

30.1. 4.4-cü bənddə "Elektron İnformasiya Sistemində" sözləri "elektron informasiya sistemində" sözləri ilə əvəz edilsin və həmin bəndə "əməkhaqları barədə" sözlərindən sonra "(sığorta haqqı ödənilmiş)" sözləri əlavə edilsin;

30.2. 4.6-cı bənddə "Qanunu ilə işsiz kimi qeydiyyata alındığı" sözləri "Qanununa uyğun olaraq fərdi məşğulluq proqramını təsdiq etdiyi" sözləri ilə əvəz edilsin;

30.3. 5.2-ci bəndin birinci cümləsində "Məşğulluq" altsistemi (bundan sonra – MAS)" sözləri "Əmək və məşğulluq" altsistemi (bundan sonra – ƏMAS)" sözləri ilə əvəz edilsin;

30.4. 5.4-cü bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu Qaydanın 4.10-cu bəndində nəzərdə tutulan hal istisna olmaqla, bir sığorta hadisəsi üzrə ilk dəfə sığorta ödənişi təyin olunduğu vaxtdan 24 ay ərzində məşğul şəxs hesab edilməmiş şəxsin bir dəfə təkrar müraciət edərək həmin sığorta hadisəsinə görə yenidən minimum sığorta ödənişi almaq hüququ vardır.";

30.5. 5.7-ci bənddə "qaydada şəxsən" sözləri "formada" sözü ilə əvəz edilsin;

30.6. 6.4-cü bənddə "MAS" akronimi "ƏMAS" akronimi ilə əvəz edilsin;

30.7. həmin Qaydaya 2 nömrəli əlavənin "Qeyd"inin 2-ci hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Fərdi məşğulluq proqramının icrasının təmin edilməsi və bu barədə hesabatın təqdim edilməsi məqsədilə işsiz kimi qeydiyyata alındığınız tarixdən ən geci 14 gün ərzində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarına və ya "DOST" mərkəzlərinə gəlməyiniz və ya onlayn rejimdə məsləhət xidmətindən keçməyiniz və hazırlanmış fərdi məşğulluq proqramını şəxsi elektron kabinetinizdə təsdiq etməyiniz tələb olunur.".

31. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 7 iyun tarixli 261 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1150 (Cild I); 2024, № 9, maddə 1104) ilə təsdiq edilmiş "İşaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

31.1. 1.12-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.12. Bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulmuş hallarda peşə hazırlığına cəlb olunmuş və müvafiq kursları müvəffəqiyyətlə bitirmiş şəxslərə Agentlik tərəfindən müvafiq sənəd təqdim olunur.";

31.2. 2.1.3-cü yarımbənddə "Məşğulluq" altsistemi (bundan sonra – MAS)" sözləri "Əmək və məşğulluq" altsistemi (bundan sonra – ƏMAS)" sözləri ilə əvəz edilsin;

31.3. 2.2-ci bənddə "MAS-da" sözləri "ƏMAS-da" sözləri ilə əvəz edilsin və həmin bəndə "işləmək qabiliyyətini itirdikdə" sözlərindən sonra ", həmin peşə (ixtisas) üzrə iş tapmaq mümkün olmadıqda və ya həmin peşə (ixtisas) üzrə bacarıqların artırılması zərurəti olduqda" sözləri əlavə edilsin.

32. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 iyul tarixli 327 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1349 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş "İşaxtaran və işsiz şəxslərin qeydiyyata alınması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

32.1. 1.1-ci bəndə "Nazirliyinin" sözündən sonra "(bundan sonra - Nazirlik)" sözləri və "qurumlarında" sözündən sonra "(bundan sonra – Agentliyin yerli qurumları)" sözləri əlavə edilsin;

32.2. 2.1-ci bəndə "işaxtaran" sözündən sonra "və ya işsiz" sözləri əlavə edilsin və həmin bənddə "Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin (bundan sonra – MEİS) "Məşğulluq" altsistemində (bundan sonra – MAS)" sözləri "Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra – MEİS) "Əmək və məşğulluq" altsistemində (bundan sonra – ƏMAS)" sözləri ilə əvəz edilsin;

32.3. 2.2-ci, 4.1-ci və 4.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.2. Şəxs ərizə ilə müraciət etdiyi gün Agentliyin yerli qurumları və ya Mərkəz onun işsiz kimi qeydiyyata alınmasını istisna edən hal (Qanunun 5.12-ci maddəsində nəzərdə tutulmuş hallar) müəyyən etmədikdə işsiz, əks halda işaxtaran (Qanunun 5.8-ci maddəsində nəzərdə tutulmuş hallar, habelə 15 yaşına çatmayanlar istisna olmaqla) kimi qeydiyyata alınması haqqında qərar qəbul edir, bu barədə məlumat ƏMAS tərəfindən işaxtaran və işsiz şəxsin elektron kabinetində yerləşdirilir və mobil nömrəsinə göndərilir.";

"4.1. Agentliyin yerli qurumları və ya Mərkəz vakansiya bankından münasib iş təklifini seçərək, işaxtaran və işsiz şəxsin elektron kabinetində yerləşdirir.";

"4.3. İşaxtaran və işsiz şəxs tərəfindən qəbul edilmiş münasib iş təklifi əsasında Agentliyin yerli qurumlarının və ya Mərkəzin səlahiyyətli şəxsi tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş vakansiyaya göndəriş və fərdi məşğulluq vərəqindən çıxarış ƏMAS tərəfindən elektron qaydada işəgötürənə göndərilir və işaxtaran və işsiz şəxsin elektron kabinetində yerləşdirilir.";

32.4. 2.3-cü və 2.5-ci bəndlər ləğv edilsin;

32.5. 2.4-cü bəndin birinci cümləsində "işaxtaranın" sözü "şəxsin" sözü ilə, "MAS" akronimi "ƏMAS" akronimi ilə və ikinci cümləsində "İşaxtaranın" sözü "Şəxsin" sözü ilə əvəz edilsin;

32.6. 3.1-ci bəndə "işaxtaran" sözündən sonra "və işsiz" sözləri əlavə edilsin və həmin bənddə "MAS-a" sözləri "ƏMAS-a" sözləri ilə əvəz edilsin;

32.7. 3.4-cü, 3.7-ci və 4.4-cü bəndlərdə ismin müvafiq hallarında "MAS" akronimi ismin müvafiq hallarında "ƏMAS" akronimi ilə əvəz edilsin;

32.8. 4.2-ci bəndin birinci cümləsinə "İşaxtaran" sözündən sonra "və işsiz şəxs" sözləri əlavə edilsin, həmin cümlədə "MAS-a" sözləri "ƏMAS-a" sözləri ilə əvəz edilsin, ikinci cümləsinə "işaxtaran" sözündən sonra "və işsiz şəxs" sözləri əlavə edilsin, üçüncü cümləsinə "səbəblər" sözündən sonra "Agentliyin yerli qurumları və ya" sözləri əlavə edilsin, həmin cümlədə "işaxtarana" sözü "işaxtaran və işsiz şəxsə" sözləri ilə əvəz edilsin və beşinci cümləsindən "mərkəz tərəfindən" sözləri çıxarılsın;

32.9. 4.5-ci bənddən "Mərkəzin" sözü çıxarılsın, həmin bənddə "təqdim etdiyi göndərişə əsasən işaxtaranın" sözləri "təqdim edilən göndərişə əsasən işaxtaran və işsiz şəxsin" sözləri ilə, "MAS-a" sözləri "ƏMAS-a" sözləri ilə əvəz edilsin və həmin bəndə "gücləndirilmiş" sözündən əvvəl "təkmil sertifikatlı" sözləri əlavə edilsin;

32.10. 4.6-cı bənddə "İşaxtaranın işə qəbulu onunla əmək müqaviləsinin bağlanılmasına dair bildirişin Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 49-cu maddəsinin 1-ci hissəsinə uyğun olaraq MEİS-in "Əmək müqaviləsi bildirişi" altsistemində qeydiyyata alınması ilə" sözləri "İşaxtaran və işsiz şəxsin işə qəbulu Azərbaycan Respublikası Əmək Məcəlləsinin 49-cu maddəsinin 1-ci hissəsinə uyğun olaraq əmək müqaviləsi ƏMAS-da elektron sənəd formasında" sözləri ilə əvəz edilsin;

32.11. 5.1-ci bəndə "Mərkəz" sözündən əvvəl "Agentliyin yerli qurumları və ya" sözləri əlavə edilsin.

33. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 avqust tarixli 349 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1456 (Cild I) ilə təsdiq edilmiş "İşədüzəlmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin reyestrinin aparılması qaydası və həmin hüquqi şəxslərə dair tələblər"də aşağıdakı dəyişikliklər edilsin:

33.1. 1.3-cü bənddə "Elektron İnformasiya Sisteminin "Məşğulluq" altsistemində (bundan sonra – MAS)" sözləri "elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemində (bundan sonra – ƏMAS)" sözləri ilə əvəz edilsin;

33.2. 2.3-cü bənddə "MAS-da" sözləri "ƏMAS-da" sözləri ilə əvəz edilsin.

34. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 avqust tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1457 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş "Məşğulluq sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.2.7-ci yarımbəndinin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 2.2.8-ci yarımbənd ləğv edilsin.

35. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 sentyabr tarixli 411 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1565 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş "Yeni iş yeri və ya boşalan iş yeri barədə məlumatların elektron informasiya sisteminə daxil edilməsi Qaydası və Forması"nda aşağıdakı dəyişikliklər edilsin:

35.1. 1.1-ci bənddə "Elektron İnformasiya Sisteminin (bundan sonra - MEİS) "Məşğulluq" altsisteminə (bundan sonra - MAS)" sözləri "elektron informasiya sisteminin (bundan sonra - MEİS) "Əmək və məşğulluq" altsisteminə (bundan sonra - ƏMAS)" sözləri ilə əvəz edilsin;

35.2. 2-ci hissə üzrə:

35.2.1. adında, 2.1-ci, 2.4-cü və 2.5-ci bəndlərdə ismin müvafiq hallarında "MAS" akronimi ismin müvafiq hallarında "ƏMAS" akronimi ilə əvəz edilsin;

35.2.2. 2.2-ci bənddə "MAS" akronimi "ƏMAS" akronimi ilə, "əmək müqaviləsi bildirişi və vakansiya bankının məlumatları" sözləri "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq həmin sistemə daxil etdikləri ştat vahidləri" sözləri ilə əvəz edilsin.

36. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 sentyabr tarixli 412 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1566 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş "Əmək birjalarının və əmək yarmarkalarının təşkili və fəaliyyəti Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

36.1. 1.3.1-ci yarımbəndə "Nazirliyinin" sözündən sonra "(bundan sonra – Nazirlik)" sözləri əlavə edilsin;

36.2. 3.4-cü bənddə "MAS-da" sözləri "Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemində (bundan sonra – ƏMAS)" sözləri ilə əvəz edilsin;

36.3. 4.2-ci bəndin ikinci cümləsində və 4.3-cü bəndin birinci və ikinci cümlələrində ismin müvafiq hallarında "MAS" akronimi ismin müvafiq hallarında "ƏMAS" akronimi ilə əvəz edilsin.

37. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 sentyabr tarixli 413 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1567 (Cild I) ilə təsdiq edilmiş "İş yerində təcrübə müqaviləsinin Nümunəvi Forması"nın 3.3.10-cu yarımbəndində "onunla bağlı qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını" sözləri "əmək müqaviləsini, habelə əmək münasibətlərinə (iş yeri, əməkhaqqı və s.) dair arayışları" sözləri ilə əvəz edilsin.

38. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 19 sentyabr tarixli 415 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1569 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş "Məşğul şəxslər barədə məlumatların əldə olunması, reyestrə daxil edilməsi, reyestrin aparılması və ondan istifadə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

38.1. 2.1.1-ci yarımbəndin birinci abzasında "Elektron İnformasiya Sisteminin" sözləri "elektron informasiya sisteminin" sözləri ilə əvəz edilsin;

38.2. 2.1.2-ci yarımbəndə "sahibkarlar," sözündən sonra "sərbəst mediatorlar, vəkillər" sözləri əlavə edilsin;

38.3. 2.1.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.1.7-ci yarımbənd əlavə edilsin:

"2.1.7. xüsusi notariuslar barədə - notariusun Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemindəki şəxsi elektron kabinetində yerləşdirilmiş məlumatlar əsasında.".

39. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 noyabr tarixli 437 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1857 (Cild I) ilə təsdiq edilmiş "Patentin alınması barədə iddia sənədinə aid Tələblər"in 1.13-cü bəndinə "müəllif müqaviləsinin" sözlərindən sonra "surəti" sözü əlavə edilsin və həmin bənddə "bağlanılmış əmək müqaviləsinin" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemində bağlanılmış əmək müqaviləsi, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda isə müəlliflərlə işəgötürən arasında bağlanılmış əmək müqaviləsinin surəti" sözləri ilə əvəz edilsin.

40. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 noyabr tarixli 457 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1877 (Cild I); 2024, № 4, maddə 441, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin ixtisas attestatının forması və attestatın verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya onun ləğv edilməsi, eləcə də ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin və ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

40.1. 3.2.4-cü yarımbənddə "bağlanılmış əmək müqaviləsinin təsdiq edilmiş surəti" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemində (bundan sonra - ƏMAS) bağlanılmış əmək müqaviləsi" sözləri ilə əvəz edilsin;

40.2. 3.2.6-cı yarımbəndə "işçinin" sözündən əvvəl "ƏMAS-dan əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri əlavə edilsin.

41. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 97 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 358 (Cild I); 2024, № 3, maddə 314, № 9, maddə 1104) ilə təsdiq edilmiş "Sosial müəssisələrin Standartları"nın 3.2.1-ci yarımbəndində "yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər," sözləri "1 və ya daha çox uşağını təkbaşına böyüdən, 5 və daha artıq uşağı olan, habelə" sözləri ilə əvəz edilsin.

42. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 639 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş "Özünüməşğulluğun təşkili Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

42.1. aşağıdakı məzmunda 2.1.1-1-ci yarımbənd əlavə edilsin:

"2.1.1-1. təcrübəsinin, peşəsinin (ixtisasının), məşğulluq tarixçəsinin, maddi rifahının, habelə şəraitinin özünüməşğulluğa cəlb edilməyə uyğunluğunun müəyyən edilməsi məqsədilə ilkin monitorinqin həyata keçirilməsi;";

42.2. 3.1-ci bənddə "Elektron İnformasiya Sisteminin (MEİS) "Məşğulluq" altsistemində (bundan sonra – MAS)" sözləri "elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemində (bundan sonra – ƏMAS)" sözləri ilə əvəz edilsin;

42.3. 5.2-ci bənddə və 8.1-ci bəndin ikinci cümləsində ismin müvafiq hallarında "MAS" akronimi ismin müvafiq hallarında "ƏMAS" akronimi ilə əvəz edilsin;

42.4. 8.3-cü bəndə "istifadə etmədiyi" sözlərindən sonra ", özgəninkiləşdirdiyi, digər şəxsin istifadəsinə verdiyi" sözləri əlavə edilsin;

42.5. 8.4-cü bənddə "1 (bir) il" sözləri "6 (altı) ay" sözləri ilə əvəz edilsin.

43. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli 244 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 974 (Cild I) ilə təsdiq edilmiş "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

43.1. 1.3-cü bənddə "2 (iki) ildən" sözləri "6 (altı) aydan" sözləri ilə, "3 (üç) aydan az və" sözləri "əmək müqaviləsinin müddətinin yarısı qədər, lakin" sözləri ilə əvəz edilsin;

43.2. 1.6-cı bənddə "1 (bir)" sözləri "bir" sözü ilə və "10 (on)" sözləri "30 (otuz)" sözləri ilə əvəz edilsin;

43.3. 1.7-ci bənddə "əlilliyi olan şəxslərə, şəhid ailəsinin üzvlərinə, gənclərə, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslərə və 1 (bir) ildən artıq işsiz kimi qeydiyyatda olan" sözləri "sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən" sözləri ilə əvəz edilsin;

43.4. 2.2-ci bənddə "Məşğulluq" altsistemində" sözləri "Əmək və məşğulluq" altsistemində (bundan sonra – ƏMAS)" sözləri ilə əvəz edilsin;

43.5. 2.6-cı bənddə "onunla əmək müqaviləsinin bağlanılmasına dair bildirişin MEİS-in "Əmək müqaviləsi bildirişi" altsistemində qeydiyyata alınması ilə" sözləri "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 49-cu maddəsinin 1-ci hissəsinə uyğun olaraq əmək müqaviləsi ƏMAS-da elektron sənəd formasında bağlanıldıqda" sözləri ilə əvəz edilsin;

43.6. 3.2-ci bənddə "MEİS-in "Əmək müqaviləsi bildirişi" altsistemi" sözləri "ƏMAS" akronimi ilə əvəz edilsin;

43.7. həmin Qaydaya 2 nömrəli əlavə - "Sosial iş yerləri üzrə əməkhaqqının maliyyələşdirilməsinə dair müqavilə" üzrə:

43.7.1. 2.1.1.1-ci yarımbənddə "Məşğulluq" sözü "Əmək və məşğulluq" sözləri ilə əvəz edilsin;

43.7.2. 2.1.1.2-ci yarımbənddə "Əmək müqaviləsi bildirişi" sözləri "Əmək və məşğulluq" sözləri ilə əvəz edilsin;

43.7.3. 2.2.2.1-ci yarımbənddə "2 (iki) il" sözləri "6 (altı) ay" sözləri ilə əvəz edilsin.

44. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 268 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 998 (Cild I); 2024, № 3, maddə 331, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

44.1. 2.6.4-cü yarımbənddən "bağlanılmış əmək müqaviləsinə dair" sözləri çıxarılsın və həmin yarımbənddə "mərkəzləşdirilmiş elektron informasiya sisteminin "əmək müqaviləsi bildirişi" altsistemindən çıxarış" sözləri "Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra – MEİS) "Əmək və məşğulluq" altsistemində (bundan sonra – ƏMAS) bağlanılmış əmək müqaviləsi" sözləri ilə əvəz edilsin;

44.2. 2.6.6-cı yarımbənddə "ixtisas üzrə iş stajını təsdiq edən" sözləri "ƏMAS-dan işçinin əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri ilə əvəz edilsin.

45. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 avqust tarixli 279 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 8, maddə 1097 (Cild I); 2024, № 3, maddələr 330, 353, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsi Qaydası"nın 4.4.6-cı yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"4.4.6. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının surəti;".

46. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 yanvar tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 101 (Cild I); 2024, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası"nın 5.1.12-ci yarımbəndindən "bildirişi" sözü çıxarılsın.

47. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 217 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 877 (Cild I); 2024, № 3, maddə 305) ilə təsdiq edilmiş "İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

47.1. 2.3.4-cü yarımbənddən "bağlanılmış əmək müqaviləsinə dair" sözləri çıxarılsın və həmin yarımbənddə "mərkəzləşdirilmiş elektron informasiya sisteminin "əmək müqaviləsi bildirişi" altsistemindən çıxarış" sözləri "Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemində (bundan sonra – ƏMAS) bağlanılmış əmək müqaviləsi" sözləri ilə əvəz edilsin;

47.2. 2.3.7-ci yarımbənddə "müvafiq ixtisas üzrə iş stajını təsdiq edən" sözləri "ƏMAS-dan işçinin əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri ilə əvəz edilsin.

48. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 may tarixli 243 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 581) ilə təsdiq edilmiş "Daimi arbitraj təşkilatının akkreditasiyası və akkreditasiyasının ləğvi Qaydası"nın 2.1.5-ci yarımbəndində "mərkəzləşdirilmiş elektron informasiya sisteminin "əmək müqaviləsi bildirişi" sözləri "Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" sözləri ilə əvəz edilsin.

49. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 iyul tarixli 328 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 889) ilə təsdiq edilmiş "Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnun verilməsi üçün ixtisas imtahanının təşkili və keçirilməsi Qaydası"nın 2.5.4-cü yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"2.5.4. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının surəti;".

50. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 18 iyul tarixli 344 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 905) ilə təsdiq edilmiş "Dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinə tibb işçilərinin işə qəbulu Qaydası"nın 2.9.2-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"2.9.2. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının notariat qaydasında və ya işəgötürən tərəfindən təsdiq edilmiş surəti;".

51. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 368 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 929) ilə təsdiq edilmiş "Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

51.1. 4.1.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.1.1.2. MEİS-in "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının surəti;";

51.2. 8.2.1.3-cü yarımbənddən "bildirişi" sözü çıxarılsın.

52. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 oktyabr tarixli 446 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 10, maddə 1158) ilə təsdiq edilmiş "Vergi orqanlarının vəzifəli şəxslərinin xidmət illərinin hesablanması Qaydası"nın 3.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

52.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Xidmət illəri Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarışa, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasına əsasən müəyyən edilir.";

52.2. ikinci cümlədə "Əmək kitabçası" sözləri "Qeyd edilən sənədlər" sözləri ilə və "onda" sözü "onlarda" sözü ilə əvəz edilsin.

53. "Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə və Azərbaycan Respublikasının Vergilər Nazirliyinə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 183 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 738 (Cild I); 2024, № 2, maddə 214) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Xaricdəki soydaşlarımız*

# *Ana Qasımova:*
# “Ürəyimiz Azərbaycanla döyünür”

**ABŞ-da yaşayan soydaşımız – əslən Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndindən olan əczaçılıq üzrə fəlsəfə doktoru, Klivlenddəki Ohayo Şimal-Şərq Tibb Universitetində laboratoriya müdiri işləyən professor Tahir Qasımovun orada doğulmuş qızı, tələbə Ana Qasımova qonağımızdır.**



Məlumat üçün bildirək ki, Ana Qasımovanın atası 100-ə qədər elmi məqalənin müəllifidir. Araşdırmaları Rusiya, Danimarka, İngiltərə, Almaniya, Fransa və Amerikada mötəbər elmi jurnallarda nəşr edilib. Həm alim, həm də ziyalı kimi Azərbaycanın ABŞ-da təbliğinə ömür sərf edən, fədakarlıq göstərənlərdəndir. Həyat yoldaşı Sevda xanım da tibb mütəxəssisidir. Qızları Ana Qasımava da bu sahəni seçib.

Görüşümüzdə ilk diqqətimi çəkən Amerikada doğulmasına baxmayaraq, istiqanlı, səmimi bir qız olan Ana Qasımovanın ana dilində səlis, təmiz nitqlə danışması oldu. Körpəliyindən ailə ocağında, ev mühitində doğma dili sevə-sevə mənimsədiyini vurğuladı.

– ABŞ-da yaşam tərzi fərqli olsa da, bizim ruhumuz, varlığımız özəldir. Ordakı evimiz bir parça Azərbaycandır, – dedi. – Dilimizi bilməyim mənə südlə, qanla gəlib. Valideyn tərbiyəsi, ulu Borçalı folklorunu eşitməyimlə bərabər, ana dilində kitabların mütaliəsi də mühüm rol oynayıb. Əvvəlcə Vətənə, millətə sevgi təlqin edilir, sonrası asan olur.

Qonağımızın adı da bizi maraqlandırdı.

***– Adınız Anadır. İlk dəfə eşidirik. Necə oldu ki, sizə belə bir ad qoyuldu?***

– Mən anadan olanda atam öz anasının, anam da öz anasının adını qoymaq istədilər (gülür). Məsələ “sülh”lə bitsin deyə, məni “Ana” adlandırdılar. Bu, həm də yaşadığımız mühitdə, amerikanların dilində asan olması üçün belə məqbul sayıldı.

Ana Qasımova ilk olaraq universiteti Ohayo ştatında bitirib. 1 il Bostonda işlədikdən sonra tibb üzrə magistraturaya qəbul olunub. Hazırda bu sahədə təhsil alır, 4 ildən sonra universiteti tam bitirəcək.

***– Klivlenddə Azərbaycan diasporu varmı və necə fəaliyyət göstərir, qaneedicidirmi?***

– Burda soydaşlarımızın sayı azdır, amma ailələrin hesabına artır və ümid var ki, təşkilatlanma baxımından qurum yaratmaq, mütəşəkkil təbliğat aparmaq imkanları genişlənəcək. Son illərdə azərbaycanlı tələbələrin çoxalması müşahidə edilir. Daha çox magistratura, doktorantura pillələrində təhsil alırlar. Hələlik Klivlenddə Azərbaycan disporu gəncdir. Bostonda yaşayanda daha çox azərbaycanlı tanımışdım. Atam əsli Faxralıdan olan azərbaycanlı ailə ilə məni tanış etmişdi. Onlarla da Azərbaycan dilində ünsiyyətim olub. Ailənin qızı Sona ilə həftəsonları olan görüşlərimizdə Azərbaycan dilində danışırıq. Biz tanış olanda o, universiteti bitirmişdi, loboratoriyada çalışırdı. Sonaya demişdim ki, Bakıda yaşayan nənəmin adı da Sonadır. Sona məni Bostonda digər azərbaycanlı qızlarla, ailələrlə də tanış etmişdi.

Klivlenddəki Con Rokfeller parkındakı “Mədəniyyətlər bağı”nda böyük bir Azərbaycan guşəsi var. Park 40-dan çox ölkəni və mədəniyyəti təmsil edən peyzaj və heykəllərlə əhatə olunmuş unikal açıq hava muzeyidir. Ana Qasımova atasının yaratdığı bu bağı belə təsvir elədi:

– Azərbaycan bağı 2008-ci ildə açılıb. Mərasimə Türkiyədən olan qardaşlarımız dəstək olublar. Onların icması böyükdür. “Mədəniyyətlər bağı”nda tədbirlərə türklər həmişə həvəslə qatılırlar. Burada üstünə “Azərbaycan — Odlar Yurdu” yazılmış daş lövhə, milli birliyi əks etdirən böyük bir güzgülü cam qoyulub: işıq düşəndə sanki alov saçır. Bağda Azərbaycan bayrağı dalğalanır. Milli bağımızın əsas abidəsi memar Xanlar Qasımovun yaratdığı “Ocaq” heykəlidir ki, kasavari abidənin büküklərində yerlə göyün çulğaşması əks olunub. Bu parkı, bayrağı, görəndən sonra Azərbaycanı tanımayan klivlendlilərdə də ölkəmizə maraq, təsəvvür genişlənir.

Ötən ay Amerikadan bir fərəhli xəbər də aldıq ki, ABŞ-də təhsil alan tələbələrimizin təşəbbüsü ilə Azərbaycan Tələbə Assosiasiyası yaradılıb və “Mədəniyyətlərarası körpü: Azərbaycandan Amerikaya” adlı tədbir ilk təşkil olunub. Viskonsin və İllinoys ştatlarında yaşayan Azərbaycan icmasının üzvləri də daxil olmaqla, 100-dən çox adam bu tədbirdə bir araya gəlib. Qonaqlar Azərbaycan musiqisi, rəqsləri və sənət nümunələri ilə yaxından tanış olub, maarifləndirici videolar izləyiblər. Azərbaycan guşəsində milli geyimlər, sənət nü-




munələri, suvenirlər və ölkəmizin zəngin mədəniyyəti haqqında məlumatlar nümayiş etdirilib. Üzeyir Hacıbəyovun “Arşın mal alan” və “O olmasın, bu olsun” operettalarından səhnələri ingilis dilində təqdim olunaraq, qonaqların böyük alqışlarını qazanıb. Bu kimi layihələr Azərbaycanı qədim mədəniyyəti olan, tolerant, multikultural bir ölkə kimi tanıdır, bizə rəğbəti artırır.

***– Bizdə olan məlumata görə, orada hər il Dünya Birlik, Şükranlıq günləri keçirilir...***

– Bəli. İnsanlar ailəlikcə iştirak edirlər. Biz bayramlaşmaq məqsədilə azərbaycanlı tələbələri də ətrafımıza toplayır, evə dəvət edir, sıx ünsiyyət yaradırıq. Tanışlıq çoxalır. Başqa ölkələrin nümayəndələri bayraqları, millli geyimləri ilə gəlib iştirak edirlər. Payız aylarında incəsənət muzeyində də şərait yaradılır ki, başqa ölkənin nümayəndələri ölkələrinin artibutlarını nümayiş etdirə bilsinlər. Yeri gəlmişkən, sizin qəzetin baş redaktoru Əflatun Amaşov bizə bir sıra milli əşyalar hədiyyə edib. Balaca tarımız və digər musiqi alətlərimiz, Azərbaycanla bağlı kitablarımız, milli mədəniyyətə, mətbəxə dair simvolik əşyalarımız var ki, qürurla nümayiş etdiririk.

***– Vətən müharibəsində qələbənin əks-sədası okeanın o tayına necə yayılmışdı? Sadə amerikalıların münasibəti necə oldu, sizlər haqq işimizi necə təbliğ etdiniz?***

– Müharibə zamanı 2-ci kursda oxuyurdum, ailəmlə deyildim, evdən uzaqda qalırdım. Bu haqda dostlarımla, xarici vətəndaşlarla qürur duya-duya danışırdım. O zaman gecə-gündüz müharibə xəbərləri ilə yaşayırdıq. Yarı canımız Vətəndə idi, hər gün Azərbaycandan gələn zəfər müjdəli xəbərləri oxuyur, qürur duyurduq. Evə zəng edəndə valideynlərimin səsindən narahat olduqlarını hiss edirdim. Çünki bizim də müharibəyə qatılan qohumlarımız var idi. Nəhayət, Azərbaycan qələbə qazandı, çox sevindik, duyğulandıq. Qələbə hissi çox qəribədir.

Ermənilərin əks təbliğatını lazımınca cavablandırır, haqq işimizin təbliğatını dayandırmırıq. Bilirsiniz, orda da ermənilərin yalançı olduğunu artıq bilirlər. Bizsə qalib xalqın nümayəndələri kimi, ABŞ-də alnı açıq, üzü ağ gəzə bilirik. Ermənilərin və tərəfdarlarının səsləri elə də eşidilmir. Azərbaycan dövləti Qələbə qazanmaqla onları təmiz susdurub. Düzdür, Amerikadakı məşhur ermənilərin sosial şəbəkələrdə xeyli izləyicisi var. Müharibə vaxtı Azərbaycan əleyhinə çox yazırdılar. Mən də onlarla bacardığım qədər mübarizə aparır, sosial şəbəkə hesablarımda Azərbaycanın haqlı mövqeyindən yazırdım. Bundan sonra da Azərbaycanımızı layiqli təmsil etməyə çalışacağam.

Qasımovlar ailəsi 1997-ci ildə okeanın o tayına köçüb. Məskunlaşdıqları Klivlend bizim Sumqayıt kimi bir sənaye şəhəridir: 400-500 min əhalisi var. Amma yaşı 2 əsri ötüb. Yeri gəlmişkən, Ananın anası Sevda xanım və qardaşı Məhəmməd Sumqayıtda doğulublar. Məhəmməd indi Klivlendin sakini olması ilə öyünür. İxtisasca mühəndisdir, bizneslə məşğul olur. Anagildən sonra əmisinin də ailəsi Klivlendə köçüb. Yəni elə də darıxmırlar.

– Əsas odur ki, biz artıq orada qəribçilik çəkmirik, – dedi Ana xanım. – Qonum-qonşu ilə səmimi münasibətlərimiz var. Bizim universitetdə çox tanışlar professor Tahir Qasımovun mənim atam olduğunu bilmədən onun haqqında xoş sözlər söyləyirlər. Bunu eşidəndə təbii bir fərəh hissi keçirirəm. Klivlendlə bağlı bir həzin, kövrək duyğumuz da budur ki, ulu öndər Heydər Əliyev ağır xəstəlikdən sonra 12 dekabr 2003-cü ildə Klivlend xəstəxanasında vəfat edib. Onda mənim 4 yaşım vardı, ata-anam danışıblar. İmkan düşən kimi, ildə–iki ildə bir dəfə Vətənə gəlir, Bakıda, Faxralıda oluruq.

***– Bakıda olanda haraları gəzir, hansı ünvanlara baş çəkirsiniz? Sevimli məkanınız varmı?***

– Əlbəttə, Vətəndə ruhən zənginləşirik. Bu dəfə mən 10 gün Bakıda olacağam. Qədim yerləri, xüsusilə də İçərişəhəri çox sevirəm. Heydər Əliyev Mərkəzinin müasir memarlığı diqqətimi çəkir, maraqlı binadır. Mərkəzin layihəsini 2007-ci ildə İraq əsilli britaniyalı məşhur memar Zaha Hadid işləyib. Mərkəzin loqosu Azərbaycanın keçmişdən gələcəyə doğru baxışlarını, Azərbaycandakı tərəqqini, ölkənin sabahını simvolizə edir. Mərkəzin loqosunun rəngi – gümüşü rəng özündə bütün maneələri aşmağı, hədəfə doğru addımlamağı ehtiva edir. Gümüşü rəng liderlik, mübarizlik, dinamiklik, müdriklik, şəffaflıq, inkişaf və innovasiya rəmzidir. Binanın dalğavari quruluşa malik harmonik görüntüsü maraq doğurur. Bakını Amerikada “Formula1” də çox tanıdıb. O yarış hər il Azərbaycanda keçirilir və marşrutlar Bakının maraqlı yerlərindən keçir.

Bu gəlişimdə Şamaxıda da oldum. Rayonun Pirqulu kəndi, oradakı rəsədxana maraqlı gəldi. Əvvəlki gəlişlərimdə Qusarda, Qəbələdə də olmuşam. Burada fərqli təbiət – dağ, yaşıllıq görürsən. Azərbaycan insanları da fərqlidir. Ciddi, küçədə gülməzlər, amma daha səmimidirlər. Amerikada əksər insanları üzə gülür, amma səmimi deyillər. Azərbaycanın təbiəti, yeməkləri də əsrarəngizdir. Amerikada adamlar məndən tez-tez haralı olduğumu soruşurlar. Mən də fəxrlə deyirəm ki, mən azərbaycanlıyam! Amerikada doğulsam da, mən azərbaycanlıyam!

***Hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***



# Görkəmli muğam ustadına Heydər Əliyev Mükafatı təqdim olunub

**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin 8 may 2025-ci il tarixli sərəncamı ilə tanınmış xanəndə, pedaqoq, Xalq artisti Arif Babayev Heydər Əliyev Mükafatına layiq görülüb. Sənətkar Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə bu ali mükafatla təltif olunub. Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva mükafatı sənətkara evində təqdim edib.**

Fərəh Əliyeva Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın salamlarını və təbriklərini ustad xanəndəyə çatdırıb.

Arif Babayev adlı mükafatını aldığı ümummilli lider Heydər Əliyevin mədəniyyətimizin, o cümlədən muğam sənətinin inkişafını daim diqqətdə saxladığını, qayğı göstərdiyini vurğulayıb. O, ali mükafata layiq görülməsini həm də muğam sənətinə verilən yüksək qiymət kimi səciyyələndirib, Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib.

Sənətkar bugünlərdə doğma yurdu Ağdamda Muğam Mərkəzinin istifadəyə verilməsini böyük sevinc və qürur hissi ilə qarşıladığını deyib: “Ağdam Muğam Mərkəzinin açılış mərasimini televiziyadan izləyirdim. Konsertdə, xüsusilə, “Qarabağ şikəstəsi”nin ifası zamanı göz yaşımı saxlaya bilmədim. Qarabağımızda mədəniyyəti belə sürətlə dirçəltdiyinə görə möhtərəm Prezident İlham Əliyevə, muğamımızın dünya şöhrəti qazanmasına nail olan Heydər Əliyev Fonduna və onun rəhbəri, əzizimiz Mehriban xanıma dərin minnətdarlığımı bildirirəm”.

***XQ***

*Baxış bucağı*

# Ədəbi zövqün tənəzzülü və ya müasir oxucu axtarışı

**Bu gün ölkədə bədii əsərlərin mütaliəsi, sanki bir qədər səngiyib. Bir sıra obyektiv və subyektiv səbəblər gətirmək olar. Amma fakt faktlığında qalır. Görəsən, niyə belə soyumuşuq. Kitab da kirpi deyil ki, tikanları əlimizə batsın. Unuduruq ki, axı, heç bir kompüter, ayfon, digər texnologiya oxucuya kitab zövqünü yaşada bilməz.**

Belə bir statistika var: il ərzində bir yunan 25, isveçli 10, fransız və türk 7 kitab oxuduğu halda, Azərbaycanda bu göstərici minumum səviyyədədir. Görünən budur ki, bu gün bədii ədəbiyyat kitab mağazalarının arxa rəflərinə çəkilib, poeziya tozlu vitrinlərin qırağında “nostalji” başlığı altında gizlənir. Azdan-bir dedektivlər oxunur. Bəs, müasir oxucu hara “buxarlanıb”? Bəlkə o, artıq kitabın içində deyil, ekranın parlaqlığında, lent axınının dibində, səsli-piktoqramlı platformaların çaşqınlığında itib?

Tanınmış kitabsevər Xan Rəsuloğlu deyir ki, ədəbi zövq – sadəcə yazıçı ilə oxucu arasında körpü deyil, həm də xalqın ruh halının aynasıdır.

– Əgər bu güzgü çatlayıbsa, deməli, problem nə yazıçıda, nə oxucudadır – problemin kökü daha dərindir: sistemli ədəbi tərbiyənin olmamasında, məktəbdə bədii təhlil yoxluğunda, mədəniyyət siyasətində öncüllüyün dəyişməsində. Mənim Sumqayıtda içi dolu balaca bir bukinist mağazam var. İnanın, bir çox kitabı bura təşrif gətirənlərə havayı da bağışlayıram. Usanmadan yaşa uyğun maarifləndirmə də aparıram. Hətta qapının ağzındakı pilləkənə də xeyli kitab düzürəm – kim istəsə, götürüb aparsın. Amma yenə də gələn azdır. Dərs vəsaiti axtaran tələbələr üstünlük təşkil edir.

Bir vaxtlar Cəlil Məmmədquluzadə “ədəbiyyat xalqı tərbiyə etməlidir” deyirdi. Bu gün isə xalq ədəbiyyatı yox, alqoritmləri izləyir. “Nəyi daha çox klikləyirlərsə, onu yazın” – bu çağırış nəinki mətbuatın, eləcə də bəzi gənc yazarların şüarına çevrilib. Oxucunun zövqü “şərh sayı” ilə ölçülür. Amma zövq bu qədər ölçülə biləcək qədər funksional parametr deyil.

Təəssüf ki, aramızda valideynlərindən qalan kitabları küçəyə atanlar da var. Beləleri bilsin ki, bu, mənəvi xəzinəyə xəyanətdir. Bəlkə atdığın kitab kiməsə hava və su kimi gərəkdir. Atma, kitabxanalara, məktəblərə ver, bəlkə kimsə bəhrələndi.

Şair İbrahim İlyaslının qənaətinə görə, əslində oxucu hələ də var. Sadəcə onu doğru şəkildə çağırmaq, həqiqi ədəbiyyata təqdimat modelini dəyişmək lazımdır.

– Yeni nəsil müəlliflər bəzən forma ilə ovsunlansa da, məzmun axtarışında çaşırlar. Klipləşmiş düşüncə poetik qatda dərinlik yaratmağa imkan vermir. Mətnlər incələşir, lakin mənalar yoxa çıxır. Ədəbi tənqid sahəsi də bir qədər susqun təsir bağışlayır. Bir dövr var idi – mətbuatda gündə bir şeir, hekayə çap olunar, ardınca onlarla rəy, debat və estetik baxış mübadiləsi baş verərdi. Bu gün isə ədəbi diskurs sosial şəbəkələrin təsadüfi müzakirələrinə tabe olub. Səliqəsiz, sistemsiz, tez unudulan...

Ən maraqlısı budur ki, yeni yazıçılarla yeni oxucuların yolları çox zaman kəsişmir. Yazıçı öz “tənha ədəbi ada”sında ideal oxucu axtarır, oxucu isə gündəlik həyat ritminə uyğun gələn qısa, yüngül və sürüşkən mətnlərə üz tutur.



Bədii qələm adamları inciməsinlər, ədəbiyyatın mövcudluğu haqqında yüksəkdən danışmağın vaxtı keçib. İndi ədəbiyyatı yaşatmağın yollarını düşünmək lazımdır. Təkliflər çoxdur, amma ən realı budur:

***– Məktəblərdə ədəbiyyatın tədris metodikası yenidən qurulmalı, müasir müəlliflər də dərsliyə daxil edilməlidir;***

***– Yerli yazıçıların çapına dəstək artırılmalı, bu əsərlər rəqəmsal platformalarda əlçatan şəkildə yayılmalıdır;***

***– Tənqid məktəbi bərpa olunmalı, gənc tənqidçilər mədəni debatlar üçün stimullaşdırılmalıdır;***

***– ədəbi festivallar, “canlı oxu” proqramları və yazıçı–oxucu görüşləri davamlı keçirilməlidir.***

Ədəbi zövq mədəniyyətin mənəvi sağlamlıq göstəricisidir. Uşaq yaşına uyğun kitablardan başlayaraq mütaliəyə alışmalıdır ki, ömrü boyu oxusun. Zövq itəndə, dil korşalır. Dil korşalanda, düşüncə bulanır. Bu isə son mərhələdir – milli yaddaşın zəifləməsi. Gəlin bu mərhələyə çatmadan oxucunu yenidən ədəbiyyatla sıx-sıx görüşdürək. Əgər o qayıdarsa, zövq də qayıdar. Axı, ədəbi zövq də zaman kimidir – dəyişir, təkamül edir, bəzən isə sadəcə itir. Gəlin, onu itirməyək.

***Ə.DOSTƏLİ***
***XQ***

Beynəlxalq həyat

# **Trampın Yaxın Şərq səfəri:** Vaşinqton kritik regionda mövqeyini bərpa edir

**ABŞ Prezidenti Donald Tramp ilk xarici səfərini Səudiyyə Ərəbistanına etdi. Seçim təsadüfi deyil: Trampın 2017-ci ildə prezident kimi səfər etdiyi ilk ölkə Səudiyyə Ərəbistanı olmuşdu. Yaxın Şərqə dörd günlük səfər dəyəri milyardlarla dollar məbləğində rekord sazişlərin imzalanması ilə yadda qaldı və bu, ABŞ-Səudiyyə, eləcə də ABŞ-Qətər münasibətləri tarixində ən böyük iqtisadi sövdələşmə kimi qiymətləndirilir. Səfər çərçivəsində Ağ ev sahibinin Suriya Prezidenti Əhməd əş-Şaraa ilə görüşməsi də regionda yeni geosiyasi reallığın yaranmasına şərait yaradacağı düşünülür.**



Ər-Riyada səfər Donald Tramp administrasiyası dövründə Səudiyyə Ərəbistanının ABŞ üçün strateji əhəmiyyətini vurğuladı. İri miqyaslı investisiya və müdafiə sazişləri iki ölkənin iqtisadiyyatının və təhlükəsizlik sistemlərinin dərin qarşılıqlı asılılığını nümayiş etdirdi. Suriyaya qarşı sanksiyaların ləğvi və prezident Əhməd əş-Şəraa ilə görüş Donald Trampın regiondakı məqsədlərinə çatmaq üçün qeyri-ənənəvi diplomatik addımlar atmağa hazır olduğunu göstərdi. İqtisadiyyat və işgüzar əlaqələrə olan diqqət Ağ ev sahibinin xarici siyasətə ümumi yanaşmasına uyğundur və çox vaxt milli iqtisadi maraqları birinci yerə qoyur.

Prezident Tramp Səudiyyə Ərəbistanından sonra Qətərə yollandı. Bu səfər ABŞ prezidentinin 2003-cü ildən bəri Qətərə ilk rəsmi səfəri oldu və Qətərin əsas regional tərəfdaş kimi artan rolunu vurğuladı. Qətər əmiri Şeyx Təmim bin Həməd Al Tani ilə görüşdə ümumi dəyəri 1,2 trilyon dollar olan sazişlər imzalandı. Xüsusilə, "Qatar Airways" ilə 96 milyard dollar dəyərində "Boeing" təyyarələrinin alınmasına dair iri saziş, həmçinin Əl-Udeid aviabazasına və digər müdafiə obyektlərinə 38 milyard dollarlıq investisiyalar haqqında sazişlər bağlandı. Prezident Tramp ABŞ-ın Yaxın Şərqdəki ən böyük hərbi obyektlərindən biri olan Əl-Udeid hərbi bazasına baş çəkdi və ABŞ əsgərləri qarşısında çıxış etdi. Səfər Qətərin regional təhlükəsizlikdə əsas tərəfdaş kimi əhəmiyyətini təsdiqlədi.

Səfər və əldə olunan razılaşmaların ABŞ və Qətər arasında ticarət, iqtisadi və müdafiə əlaqələrinin daha da gücləndirilməsinə yönəldiyi vurğulanır. İqtisadiyyat diqqət mərkəzində olsa da, liderlər Qətərin vasitəçi rolu da daxil olmaqla regional məsələləri də müzakirə etdilər. İyirmi ildən artıq müddətdə ilk rəsmi dövlət səfəri də Qətərin ABŞ administrasiyasının gözündə yüksəlmiş statusundan xəbər verir. Səudiyyə Ərəbistanında olduğu kimi, bu səfərdə də iqtisadi maraqlar əsas yer tutdu və Trampın xarici siyasətə praqmatik yanaşmasını əks etdirdi.

Beləliklə, Donald Trampın Yaxın Şərq turu çərçivəsində Səudiyyə Ərəbistanı və Qətərə səfərləri iqtisadi maraqların prioritetini və irimiqyaslı sövdələşmələrin bağlanmasını nümayiş etdirdi. Eyni zamanda, səfərlər təhlükəsizlik və regional sabitliyin mühüm məsələlərinə toxundu. Xüsusilə də Suriyanın müvəqqəti prezidenti ilə görüş gözlənilməz dönüş oldu. Ekspertlərin fikrincə, bu görüşü, bütövlükdə, regionun siyasi mənzərəsini yenidən formalaşdırmaq cəhdinə güclü dəstək kimi də qiymərləndirmək mümkündür. Ümumilikdə, politoloqların ortaq rəyi bundan ibarətdir ki, Trampın Yaxın Şərq ölkələrinə səfərinin nəticələri həm regional, həm də qlobal səviyyədə hiss olunacaq, enerji bazarlarına, ticarət axınlarına, təhlükəsizlik ittifaqlarına və dünya gücləri arasında güc balansına təsir edəcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# İntibahın "gizli" qaynağı: Avropa müsəlman Şərqinin təsirini niyə "unudur"?

**Avropa intibahı çox zaman yalnız Avropanın daxili oyanışı, öz keçmişinə dönüşü və klassik antik dövrə əsaslanan mədəni dirçəliş kimi təqdim olunur. Halbuki bu oyanışın arxa fonunda dayanan daha dərin və çoxşaxəli təsirlər mövcuddur. Onlardan biri, bəlkə də, ən çox "unudulanı" müsəlman Şərqinin, xüsusilə Əndəlüsün, Bağdadın, Qahirənin və Buxaranın Avropa intellektual inkişafına verdiyi təsirdir. Avropanın elm və mədəniyyətinin nisbətən tənəzzülə uğradığı orta əsrlərdə İslam dünyası elmin, fəlsəfənin, tibbin, riyaziyyatın və incəsənətin çiçəklənməsi ilə səciyyələnən qızıl dövrünü yaşayırdı. Müsəlman alimlərinin topladığı biliklər sonralar İntibah dövründə Avropanın intellektual yüksəlişində əsas rol oynadı.**



IX–XII əsrlərdə İslam dünyası artıq elm, fəlsəfə və sənətdə zirvəyə doğru yüksəlirdi. Abbasilərin dövründə Bağdad "Darülhikmə"nin timsalında qədim yunan, fars və hind biliklərinin ərəb dilinə tərcümə edildiyi, yenidən şərh olunduğu və orijinal nəzəriyyələrlə zənginləşdirildiyi bir mərkəzə çevrilmişdi. Əbu Yusif əl-Kindi, Əl-Fərabi, İbn Sina və İbn Rüşd kimi nəhəng fiqurlar təkcə İslam dünyasının deyil, insan düşüncəsinin ümumi xəzinəsinə böyük töhfələr verdilər. Müsəlman alimləri Aristotel, Platon, Evklid və Ptolemey kimi qədim yunan və Roma filosoflarının və alimlərinin bir çox əsərlərini ərəb dilinə tərcümə edərək qoruyub saxladılar. Bu tərcümələr sonralar Avropada latın dilinə tərcümə edilərək, qədim bilikləri yenidən avropalı ziyalıların ixtiyarına verdi və İntibah dövrünün əsaslarından birinə çevrildi.

Müsəlman alimləri nəinki qədim biliyi qoruyub saxladılar, həm də onu əhəmiyyətli dərəcədə inkişaf etdirdilər, müxtəlif elmi fənlərə öz orijinal töhfələrini verdilər. Xüsusilə, riyaziyyat, astronomiya, tibb, kimya və optika elmlərində böyük uğurlar qazandılar. Bu nailiyyətlər Avropaya çatdırıldı və İntibah dövründə Avropa elminin inkişafına əhəmiyyətli təsir göstərdi.

Ərəb rəqəmlərinin tətbiqi və Əl-Xarəzmi kimi müsəlman riyaziyyatçıları tərəfindən cəbrin inkişafı riyaziyyatda inqilab etdi və Avropada gələcək elmi tərəqqinin əsasını qoydu. Müsəlman astronomlarının səma cisimlərinin müşahidəsi və astronomik alətlərin işlənib hazırlanmasında əldə etdiyi nailiyyətlər Avropa astronomiyasının inkişafında mühüm rol oynadı.

İslam incəsənəti və memarlığı, xüsusilə İspaniya (Əndəlüs) və Siciliyada dekorativ elementlər, ornament və memarlıq üslubları vasitəsilə Avropa İntibah sənətinə təsir göstərdi.

Maraqlıdır ki, bu zəngin biliklərin Avropaya keçidi planlı bir "bilik ixracı" ilə deyil, tarix boyu baş verən ticarət, müharibə və mədəni əlaqələr vasitəsilə gerçəkləşdi. Əndəlüs İslam İspaniyası bu keçid nöqtəsinin əsas arteriyası oldu. Kordova, Toledo və Qranada kimi şəhərlərdə ərəb dilindən latın dilinə aparılan tərcümə fəaliyyəti nəticəsində Avropa ilk dəfə Aristoteli İbn Rüşdün şərhləri ilə tanıdı. İbn Sinanın "Əl-Qanun fi-t-Tibb" əsəri əsrlərlə Avropa universitetlərində əsas tibbi dərslik kimi istifadə olundu.

Bəs bu təsir niyə tez-tez "unudulur"? Bu sualın cavab tarix yazanların seçimlərində gizlənir. Avropa öz intibahını xristian irsi və klassik antic dövr üzərində qurmağa çalışdı və İslam mədəniyyətinin bu inkişafda oynadığı rolu gizlətdi və ikinci dərəcəli hesab etdi. Halbuki elmin universal mahiyyəti fərqləri aşaraq, mədəniyyətlər arasında körpü salır. Müsəlman Şərqi bu körpülərdən ən mühümünü inşa etmişdi.

Əslində, intibah, sadəcə, yenidən doğuluş deyil, eyni zamanda, tanımaq, etiraf etmək və paylaşmaqdır. İslamın qızıl dövrünün alimləri – adları bəzən dəyişdirilmiş, bəzən unudulmuş bu müdriklər Avropa elminin və fəlsəfəsinin "səssiz müəllimləri" oldular. Məhz onların verdiyi işıqda Avropa öz yolunu daha aydın görə bildi.

Bu gün intibahı yalnız Florensiya ilə yox, həm də Bağdad və Qranada ilə birgə düşünmək, tarixin ədalətini bərpa etmək deməkdir. Müsəlman Şərqinin Avropa intibahına təsiri təkcə keçmişin deyil, gələcəyin də harmoniyasıdır. Ən əsası, tarix yalnız keçmişə baxış deyil, həm də gələcək üçün ədalətli yaddaş formalaşdırmaq vasitəsidir. Qərb bu faktı unutmamalıdır!

***S.ELAY***
***XQ***

# Jurnalistikaya təhdidlərə qarşı mübarizə yolları



**Albaniyanın ATA informasiya agentliyinin təşkilatçılığı ilə Tirana şəhərində Avropa Xəbər Agentlikləri Alyansının (EANA) "Jurnalistika və xəbər agentliklərinə təhdidlər: mübarizə yolları" mövzusunda konfrans keçirilib.**

Tədbirdə Avropanın aparıcı informasiya agentlikləri, həmçinin alyansın üzvü olan AZƏRTAC da təmsil olunub.

Konfransda çıxış edənlər bildiriblər ki, siyasi, iqtisadi, texnoloji sahələrdə baş verən sürətli dəyişikliklər jurnalistikanın illərlə formalaşan iş mexanizmlərinə ciddi təsir göstərir və medianın fəaliyyəti çətinləşir.

"Müasir dövrdə jurnalistika və xəbər agentlikləri əvvəlkindən daha mürəkkəb vəziyyətlə qarşılaşıblar. Dezinformasiya, iqtisadi təzyiqlər, etimadın azalması, qlobal platformaların dominantlığı - bütün bunlar jurnalistikanın missiyasını sınağa çəkir. Heç bir agentlik bu çətinliklərin öhdəsindən təkcə gələ bilməz", – deyə ATA agentliyinin baş direktoru Valbona Zupa söyləyib.

Qeyd edilib ki, problemlər əsasən xəbərin əldə olunması, yayılması, müəlliflik hüquqlarının pozulması, maliyyə mənbələrinin azalması kimi sahələrdə özünü göstərir. Süni intellektin geniş tətbiqindən sonra müəllif hüquqlarına təhdidlər daha da sürətlənib və bunun qarşısının alınmasının zəruriliyi vurğulanıb. Eyni zamanda, süni intellekt şirkətləri xəbər agentliklərinin materiallarından fəal istifadə edir, lakin nə müəlliflik qorunur, nə də agentliklər bundan maliyyə faydası əldə edir. Çıxış yolları olaraq jurnalistikanın öz ənənələrindən geri çəkilməyərək şaxələnmə strategiyasından istifadə etmək, jurnalistlərin texnoloji və digər bacarıqlarını artırmaq, yeni texnologiyaların tətbiqinə maksimum diqqət ayırmaq və nizamlama qanunlarının qəbulu kimi məsələlərə nail olmaq qeyd edilib.

# Yanğın təhlükəsizliyi ilə bağlı maarifləndirmə tədbirləri

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti səlahiyyətlərinə uyğun olaraq, ölkə ərazisində yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə zəruri tədbirlərin görülməsini davam etdirir.**



Bu çərçivədə, nazirliyin Dövlət Yanğın Nəzarəti Xidməti Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Təngərud, Sığırlı, Ağcabədi, Beyləqan, Soltanbut-2 və Şəmkir meşəbəyliklərində, 15 saylı Regional Meşə Təsərrüfatında, Xaçmaz rayonu, Yalama kəndinin ərazisində yerləşən Samur-Yalama Milli Parkında meşələrin yanğın təhlükəsizliyi ilə bağlı maarifləndirmə tədbirləri keçirib.

Tədbirlərdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Regional Meşə Təsərrüfatı mərkəzlərinin məsul əməkdaşları, sözügedən meşə təsərrüfatlarının yerləşdiyi rayonların icra hakimiyyətlərinin inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin və bələdiyyələrin səlahiyyətli şəxsləri və yerli sahibkarlar iştirak ediblər.

Tədbirlərdə meşə və meşəətrafı ərazilərdə yanğın təhlükəsizliyinin mövcud vəziyyəti, xüsusilə qarşıdan gələn yay fəslində mümkün yanğınların qarşısının alınması istiqamətində görülmüş qabaqlayıcı tədbirlər barədə geniş məlumat verilib. Milli sərvətimiz olan meşələrin qorunması üçün hər kəsin təhlükəsizlik qaydalarına riayət etməsinin, o cümlədən müvafiq vəzifəli şəxslərin üzərinə düşən vəzifələrini layiqincə yerinə yetirməsinin vacibliyi vurğulanıb. Eyni zamanda, meşə və meşəətrafı ərazilərdə yanğın hallarının baş verməməsi üçün insanların, o cümlədən sahibkarların və yaxınlıqda yaşayan kənd sakinlərinin yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etmələrinin zəruriliyi diqqətə çatdırılıb.

***XQ***


# **Odlar Yurdu Universiteti**

## ***2025-ci il üçün doktoranturaya***

# **QƏBUL ELAN EDİR**

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə Doktoranturaya qəbul planı Dövlət sifarişli və ödənişli əsaslarla | |
|---|---|---|---|
| | | əyani | qiyabi |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | - | 1 |
| 5310.01 | Dünya iqtisadiyyat | 1 | - |
| 5312.01 | Sahə iqtisadiyyatı | 1 | 1 |
| 5308.01 | Ümumi iqtisadiyyat | 1 | - |
| 5704.01 | Dil nəzəriyyəsi | - | 1 |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | - | 1 |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi | - | 1 |
| 6217.01 | Texniki estetika və dizayn | - | 1 |

**Sənədlərin qəbulu 2025-ci il mayın 13-dən iyunun 2-dək portal.edu.az saytında olacaqdır.**
**Əlaqə- (+994 ) 50-378-86-30, (+994) 55-838-63-60.**
**Ünvan- Bakı, Koroğlu Rəhimov küçəsi 13, 403-cü otaq, Email: info@oyu.edu.az,**

## **"EF-QAZ" ASC səhmdarlarının nəzərinə!**

30 iyun 2025-ci il saat 11.00-da cəmiyyətin inzibati binasında səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. 2024-cü ilin yekunlarına dair idarə heyətinin hesabatı.
2. Təşkilati məsələlər.
– İdarə heyətinin sədrinin və üzvlərinin seçilməsi,
– Müşahidə şurasının sədrinin və üzvlərinin seçilməsi,
– Daxili audit (təftiş komitəsi) müfəttişin seçilməsi.
3. Digər məsələlər.

***"EF-QAZ" ASC-nin idarə heyəti***

# BİLDİRİŞ

27 iyun 2025-ci il saat 10.00-da "Gəncə Çini Qablar" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncaq onlayn keçiriləcəkdir. Səhmdarların iştirak etmələri xahiş olunur.

# Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi
# “Su və Meliorasiya Elmi -Tədqiqat İnstitutu” publik hüquqi şəxsi

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 may 2025-ci il tarixli 275s nömrəli Sərəncamına uyğun olaraq 2025-ci il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya aşağıdakı ixtisaslara qəbul elan edir:**

| İxtisasın şifri | İxtisasların adları | Qəbul planı |
|---|---|---|
| | | Fəlsəfə doktoru proqramı üzrə doktorantura |
| 2518.01 | Hidrogeologiya | 1 (qiyabi) |
| 3103.02 | Meliorasiya, rekultivasiya və torpaqların mühafizəsi | 1 (qiyabi) |
| 3305.05 | Mühəndis-kommunikasiya sistemləri | 1 (qiyabi) |
| 3305.08 | Hidrotexniki tikinti | 1 (qiyabi) |
| 3305.10 | Hidravlika və mühəndis hidrologiyası | 1 (qiyabi) |
| 3308.01 | Ətraf mühitin texnologiyası və mühəndisliyi | 1 (qiyabi) |
| 5406.01 | Hidrologiya | 1 (qiyabi) |

**Qəbul qaydaları:**

1.**Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya** ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.

2.Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
- kadrların şəxsi uçot vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- iş yerindən xasiyyətnamə;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

3. Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyənlər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır), fəlsəfədən və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanlarını verirlər. Xarici dildən imtahanda iştirak etməyənlər fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar.

4. Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilir.Xarici dildən imtahanda keçid balını toplayan şəxslər fəlsəfədən imtahana buraxılırlar. Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (İELTS, TOEFL, TestDaF, DELF və DALF) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

5. Doktoranturaya sənədlərin qəbulu elan dərc olunan gündən 2025-ci il iyunun 2-dək aparılacaqdır.

Ünvan – AZ1130, Bakı şəhəri, İ.Dadaşov küçəsi 324, 808-ci otaq.

***Müdiriyyət***

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin
# Geologiya və Geofizika İnstitutu
*doktoranturaya qəbul elan edir*

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 may 2025-ci il 275s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2025-ci il üçün doktorant hazırlığı üzrə qəbul planı”na əsasən aşağıda göstərilən ixtisaslar üzrə qəbul elan edir.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya büdcə hesabına:

2507.01 – “Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları” – 1 yer (əyani).

2512.01 – “Ümumi və regional geologiya” – 1 yer (əyani).

2515.01 – “Petrologiya, vulkanologiya” – 1 yer (əyani).

2518.01 – “Hidrogeologiya” – 1 yer (əyani)

2521.01 – “Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı” – 1 yer (əyani)

Sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytı vasitəsilə 2025-ci il mayın 13-dən iyunun 2-dək təlimata uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

Əlavə məlumat üçün İnstitutun “Elmi-təşkilati” şöbəsinə müraciət etmək lazımdır.

Telefon -050- 783- 73- 28; (012) 510 -01 -41 (143).

# Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə
## quluğa qəbulla bağlı növbəti
# MÜSABİQƏ ELAN EDİLİR

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin kadr korpusunun açıq müsabiqələr əsasında şəffaf prosedurlarla yüksək hazırlıqlı və zəruri peşə keyfiyyətlərinə malik mütəxəssislərlə komplektləşdirilməsi üçün tədbirlər davam etdirilir.

Hazırda mərkəzin müsabiqə komissiyası tərəfindən aşağıdakı ixtisaslar üzrə vakant olan ştat vahidləri ilə bağlı növbəti açıq müsabiqə elan edilir.

**Mərkəzdə:**
- inşaat mühəndisliyi.

**Mərkəzin Sumqayıt regional bölməsində:**
- inşaat mühəndisliyi.

**Mərkəzin Şəki regional bölməsində:**
- kimya.

**Mərkəzin Şirvan regional bölməsində:**
- biologiya.

Göstərilən ixtisaslarlar üzrə vəzifələrdə işləmək arzusunda olan, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Qanunun tələblərinə cavab verən, ali təhsilli, zəruri nəzəri və peşə hazırlığına malik Azərbaycan Respublikasının vətəndaşları müsabiqəyə dəvət olunurlar.

Müraciət edənlər 2025-ci il mayın 14-dən iyulun 14-ü saat 18.00-dək müəyyən olunmuş ərizə formasını və digər zəruri sənədləri aşağıda göstərilən ünvanlarda təqdim edə bilərlər:

**- Mərkəzin inzibati binasında**
(Bakı şəhəri, Xaqani küçəsi 24, telefon- (012) 498-09-71).

**- Mərkəzin Gəncə regional bölməsində**
(Gəncə şəhəri, Kəpəz rayonu, V.Xuluflu küçəsi 11, telefon- (+99455) 424-58- 00).

**- Mərkəzin Şəki regional bölməsində**
(Şəki şəhəri, Salman Mümtaz küçəsi 316, tel: (+99470) 297-18-11).

**- Mərkəzin Şirvan regional bölməsində**
(Şirvan şəhəri, 20 yanvar küçəsi 16, telefon- (02121) 5-55-91), (+99455) 782-61-51) .

**- Mərkəzin Lənkəran regional bölməsində**
(Lənkəran şəhəri, Qala Xiyabani küçəsi 13, telefon- (02525) 5-01-36, (+99455) 282-82-85).

**- Mərkəzin Sumqayıt regional bölməsində**
(Sumqayıt şəhəri, Nəriman Nərimanov küçəsi 29- cu məhəllə, 7/22, telefon-(+99455) 710-25-31).

Müsahibədə iştirak etmək üçün qanunvericiliyə əsasən tələb olunan sənədlərin siyahısı və imtahana hazırlıqla bağlı “Yaddaş kitabçası” mərkəzin internet səhifəsində (www.expert.gov.az) “İşə qəbul” bölməsində yerləşdirilmişdir, habelə bu sənədlər mərkəzə və onun regional bölmələrinə müraciət edənlərə təqdim olunacaqdır.

Mərkəzin internet səhifəsindən, eləcə də yuxarıda göstərilən telefon nömrələrinə zəng etməklə bütün suallarla bağlı operativ informasiya almaq olar.

**Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi**

# Azərbaycan Universiteti
## *fəlsəfə doktoru proqramı üzrə doktoranturaya*
## QƏBUL ELAN EDİR

Azərbaycan Universiteti 2025-ci il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul elan edir. Qəbul dövlət sifarişli və ödənişli əsaslarla həyata keçirilir.

Aşağıda qeyd olunan təhsil haqları ödənişli əsaslarla qəbul olan Azərbaycan vətəndaşları üçündür. Əcnəbi vətəndaşlar üçün təhsil haqqı 3000 AZN-dir.

Sənəd qəbulu prosesi elektron qaydada portal.edu.az vasitəsilə həyata keçirilir və 2025-ci il iyunun 2-də başa çatacaqdır.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul planı

Diferensial tənliklər, 1 yer, qiyabi, 1700 AZN.

İqtisadi fəaliyyət növləri, 1 yer, qiyabi, 1700 AZN.

Ümumi iqtisadiyyat, 1 yer, əyani, 3000 AZN.

Müəssisələrin təşkili və idarə olunması, 1 yer, qiyabi, 1700 AZN.

Sahə iqtisadiyyatı, 1 yer, qiyabi, 1700 AZN.

Azərbaycan ədəbiyyatı, 1 yer, qiyabi, 1700 AZN.

Dünya ədəbiyyatı (ingilis, alman və fransız), 1 yer, qiyabi, 1700 AZN.

Sosial iş, 1 yer, qiyabi, 1700 AZN.

Daha ətraflı məlumat üçün

Beynəlxalq magistratura və doktorantura mərkəzi.

Telefonlar-(+99412)- 431 -41 -12/13/16 (daxili 126), 050 -268 -38 -00.

# Bakı Slavyan Universiteti
## 2025-ci il üçün doktoranturaya fəlsəfə doktoru proqramı üzrə
# QƏBUL ELAN EDİR

Doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TİMS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək, təlimata uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

Qeydiyyatdan keçən vətəndaşların sənədləri ali təhsil müəssisəsi üzrə təyin edilmiş məsul şəxs tərəfindən yoxlanılıb təsdiq edilməlidir.

**Portal.edu.az** vasitəsilə müraciətlərin göndərilməsi 2025-ci il mayın 13 -dən başlayaraq iyunun 30-dək davam edəcəkdir.

DİM-də xarici dil imtahanını müvəffəqiyyətlə verən şəxslər növbəti mərhələyə buraxılacaqdır. Xarici dil imtahanının 2025-ci il iyunun 22-də, fəlsəfə fənni üzrə imtahanın 2025-ci il sentyabrın 2-dən 4-dək , ixtisas imtahanlarının isə sentyabrın 9-dan 10-a kimi keçirilməsi nəzərdə tutulmuşdur.

Əlaqə üçün- telefon +994 (12)5990870 (daxili 213).

Elektron ünvan: doktorantura@bsu-uni.edu.az

**Qəbulun aşağıdakı ixtisaslar üzrə aparılması nəzərdə tutulur**:

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 may 2025-ci il tarixli 275s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2025-ci il üçün doktorant hazırlığı üzrə qəbul planları”ndan çıxarış**

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | Ödənişli əsaslarla hazırlıq üzrə illik haqlarının məbləği (manatla) | Elmlər doktoru proqramı üzrə | | | Ödənişli əsaslarla hazırlıq üzrə illik haqlarının məbləği (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorantura | | | | Doktorantura | | | |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | |
| | | | o cümlədən | | | | o cümlədən | | |
| | | | əyani | qiyabi | | | əyani | qiyabi | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 5706.01 | Azərbaycan dili | 1 | | 1 | | | | | |
| 5801.01 | Təlim və tərbiyyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) | 1 | 1 | | | | | | |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 2 | | 2 | | | | | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 2 | | 2 | | | | | |
| 6104.01 | Pedaqoji psixologiya | 1 | | 1 | | | | | |
| | Cəmi | 7 | 1 | 6 | | | | | |

# “İnşaat Konstruksiyaları Zavodu” ASC səhmdarlarının nəzərinə!

27 iyun 2025-ci il saat 11.00-da Bakı şəhəri, Nizami rayonu, Kamil Balakişiyev küçəsi 2 nömrəli ünvanda “İnşaat Konstruksiyaları Zavodu” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. ASC-nin 2024-cü il üzrə maliyyə- təsərrüfat fəaliyyətinə aid hesabatın müzakirəsi və təsdiqi.
2. ASC-nin gəlirlə işləməməsinin səbəblərinin araşdırılması, yeni maliyyə mənbələrinin cəlb edilməsi.
3. Digər məsələlər.

# “MODA” ASC səhmdarlarının nəzərinə!

29 iyun 2025- ci il saat 12.00-da “MODA” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. 2024-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına aid idarə heyyətinin hesabatı.
2. Maliyyə təsərrüfat - fəaliyyətinin təftişinə dair maliyyə-təftiş komissiyasının hesabatı.
3. Maliyyə-təsərrüfat ilinin yekunlarına dair müşahidə şurasının hesabatı.
4. Cəmiyyətin illik hesabatlarının və balansının təsdiqi.
5. Cəmiyyətin illik mənfəətinin bölüşdürülməsi.

Telefon- (055) 226-82-01.

Ünvan- Bakı şəhəri, Nəsimi rayonu, Qulu Quluyev küçəsi 11/13.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 100 (30794) 16 may 2025-ci il, cümə

İdman

## MDB Oyunları: 7 ölkə iştirakını rəsmən təsdiqləyib

**Yeddi ölkə, o cümlədən ev sahibi Azərbaycan 2025-ci ildə keçiriləcək III MDB Oyunlarında iştirakını təsdiqləyib.**

Bakı Şəhər Halqasından "Xalq qəzeti"nə verilən məlumata görə, hazırda Oyunlarda iştirak edəcək nümayəndə heyətlərinin qeydiyyatı davam edir. Bu günə olan məlumata əsasən, MDB məkanını təmsil edən 7 ölkədən – Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Özbəkistan, Tacikistandan 23 idman növü üzrə, ümumilikdə, 1659 idmançı qeydiyyatdan keçib. Qeydiyyatdan keçmiş nümayəndələrin ümumi sayı isə 2385 nəfərdir.

Komanda idman növləri üzrə – futbol (U-16), basketbol 3x3 və voleybol yarışlarında altı ölkə iştirakını təsdiqləyib. Güləş, boks, cüdo və taekvondo kimi fərdi növlərdə isə 100-dən çox idmançı qeydiyyatdan keçib.

Qeyd edək ki, ilkin mərhələdə yalnız MDB ölkələrinin nümayəndə heyətləri qeydiyyatdan keçirilir. İkinci mərhələdə isə qeydiyyat MDB-yə üzv olmayan, Oyunlarda xüsusi dəvət əsasında iştirak edən ölkələrin nümayəndə heyətləri üçün aparılır. Ümumilikdə, Oyunlarda dünyanın 23 ölkəsindən 5 min 500-ə yaxın iştirakçının qatılması gözlənilir.

III MDB Oyunları 2025-ci il 28 sentyabr – 8 oktyabr tarixlərində Azərbaycanın yeddi şəhərində – Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndidə keçiriləcək.

III MDB Oyunları gənc idmançılar arasında dostluğun, birliyin və idman ruhunun təcəssümünə çevriləcək və regionun ən mötəbər idman tədbirlərindən biri olacaq.

## Boksçularımız "Heydər Əliyev Kuboku-2025"də mübarizəyə başlayırlar




**Bu gün yeniyetmə oğlan və qız boksçular arasında "Heydər Əliyev Kuboku-2025" beynəlxalq turniri start götürür.**

Boks Federasiyasından "XQ"yə bildiriblər ki, Bakı Boks Mərkəzində keçiriləcək ənənəvi yarışda Azərbaycan millisi ilə yanaşı, Özbəkistan, Qazaxıstan, Monteneqro, Rusiya, Belarus, Türkiyə və Gürcüstanın yığmaları iştirak edəcəklər. 200-dən çox boksçunun qatılacağı turnirdə oğlanların mübarizəsində 14, qızlarda 9 çəki dərəcəsi üzrə qaliblər müəyyənləşəcək. "Heydər Əliyev kuboku-2025"in final görüşləri mayın 21-də olacaq.

Azərbaycan millisi yarışda geniş heyətlə mübarizə aparacaq. Komandamızın baş məşqçisi Vaqif Kazımov turnirdə 60 yeniyetməni sınaqdan keçirəcək. Yarışın ilk günü saat 14:00-da açılış mərasimi təşkil olunacaq, ardınca döyüşlər başlayacaq.

## Stolüstü tennis üzrə güclü komandalar müəyyənləşib



**Stolüstü tennis üzrə Azərbaycan çempionatının komanda yarışlarında qalib və mükafatçılar məlum olub.**

Kişilərin mübarizəsi "Bakı-1" komandasının qələbəsi ilə yekunlaşıb. "Bakı-2" 2-ci, "Bakı-3" və "Şabran" kollektivləri 3-cü yeri tutublar. Qadınların yarışından "Sumqayıt-1" qalib ayrılıb. "Bakı-1" 2-ci, "Bakı-2" və "Sumqayıt-2" 3-cü pillədə qərarlaşıb. Çempionatın növbəti günlərində idmançılar şəxsi, qoşa və qarışıq-qoşa növlərdə bacarıqlarını göstərəcəklər.

Yarışa mayın 17-də yekun vurulacaq.

***L.AZAD***
***XQ***

*16 may Beynəlxalq İşıq Günüdür*

# İşığa doğru...



**İşığa məhəbbət dünyaya göz açdığımız vaxtdan başlayıb. 9 ay ana bətnində yatdığımız qaranlıq dünyadan sonra işıqlı dünyaya can atmışıq. Nağıllarda "it hürənə yox, işıq gələnə" üz tutub Divlə üzləşsək belə... İşıq həyatdır, işıq sabahdır, gələcəkdir. Harda işıq varsa, orda həyat var, ümid var...İşıq həmişə özünə çəkir – lap tunelin o başında olsa da...**

İşıq həyatın özüdür və insan fəaliyyətində əsas rol oynayır. İşığın öyrənilməsi perspektivli alternativ enerji mənbələrinə, xəstəliklərin diaqnostikası və müalicəsi texnologiyalarında əhəmiyyətli tibbi irəliləyişlərə, yüksəksürətli internetin yaradılmasına, cəmiyyətdə inqilaba və kainat haqqında anlayışı formalaşdıran bir çox başqa kəşflərə gətirib çıxarıb. XX əsrin əvvəllərində işığın xassələri ilə bağlı əsrlər boyu aparılan fundamental tədqiqatlar yeni texnologiyaların yaranması ilə nəticələnib.

Kiçik dövlət hesab olunan ailədə, evdə də işığa ehtiyac var. İşıqsız yaşamağın mənası olmazdı... Necə ki, şair deyib:

***İşıq gəlməyəndə pəncərələrdən***
***Qəlbimdə parlayan işıq da sönür.***
***Evə yaxınlaşmaq istəmirəm mən***
***Hər tərəf gözümdə zülmətə dönür.***

Onu hər yerdə axtarırıq – sübh tezdən dan yerində, dünyamıza nur ələyən Günəşdə, zülmətdə şaqqıldayan ildırımın çaxmasında, kəhkəşana uzanan süd yolunda, qaranlıq komada lampanın yanmağında...

Çox vaxt insanın üzündə, çöhrəsində, əməlində də işıq axtarırıq. İşıqlı insanlar dünyanı işıqlı gələcəyə aparır. Beşinci ildir ki, günəşli Azərbaycanda çöhrələri uzun illərdən bəri həsrətində olduğumuz Zəfər işığı da nurlandırır.

Çinlilərin bir sözü var: Qaranlığı söyməkdənsə özün bir şam yandır! Bu gün Beynəlxalq İşıq Günündə ən gözəl diləklər də işıqla bağlıdır: Yolunuz işıqlı olsun! İşığınız gur yansın! Evinizdən, ömrünüzdən, üzünüzdən işıq əskik olmasın!

***Süleyman QARADAĞLI***

# "Bu mövsüm basketbolumuz üçün uğurlu oldu"

## Əsas hədəf avrokuboklardır



**Azərbaycan basketbolsevərləri ötən ilin oktyabrından davam edən 30-cu ölkə çempionatında bir-birindən maraqlı oyunlar izlədilər. Azərbaycan Basketbol Liqasının (ABL) final oyununda "Sabah" və "Neftçi" komandaları arasında qalib adı uğrunda gərgin rəqabət getdi. Maraqlı mübarizə şəraitində keçirilən oyun "tələbələr"in üstünlüyü ilə başa çatdı.**

"Netçi" üzərində mübarizə asan olmasa da, çempionluq əldə edildi. Seriyada 4:2 hesablı qalibiyyət əldə edən "Sabah" ardıcıl 3-cü dəfə ABL-in qızıl medallarına sahib çıxdı. Bundan əvvəl "Sabah" 2024-cü ildə isə "Xəzri"ni, 2023-cü ildə isə "Gəncə"ni məğlub edərək bu titula sahib olub.

Federasiyanın mətbuat xidmətinin rəhbəri Sənan Əliyev "Xalq qəzeti"nə açıqlamasında budəfəki çempionatda yeni reqlamentin tətbiq olunduğunu, ümumilikdə, 12 komandanın mübarizə apardığını dedi. O qeyd etdi ki, ötən ilin nəticələrinə görə, A və B qruplarının hərəsində 6 komanda mübarizə aparırdı. B qrupunda, əsasən, region komandaları yarışırdı. Onların arasında "Şəki" komandasının yüksək səviyyəli oyun sərgiləməsi sürpriz nəticə sayıla bilər. Komandadan bu nəticəni çoxları gözləmirdi. Ötən il "Gəncə" komandasında çalışan türkiyəli baş məşqçi Bedri Meriç "Şəki"nin sükanı arxasında onu qrup qalibi edə bildi.

Düzdür, A qrupunda "Sabah"ın qələbəsi gözlənilən idi. Ancaq "Neftçi" final oyununda rəqibə çətin anlar yaşatdı. Hesab 2:0 "Sabah"ın xeyrinə olduğu bir zamanda "ağ-qaralar" onu bərabərləşdirə bildilər. Onu da deyək ki, "Neftçi mövsümə pis başlamışdı. Amma klub 6 oyunluq məğlubiyyət seriyasından sonra oyun strategiyasını dəyişdi. Eyni zamanda, məşqçi dəyişikliyi oldu. Nəticədə, komanda pley-offa vəsiqə qazana bildi. Final seriyasının bütün matçlarında kollektiv böyük səylə mübarizə apardı.

Əslində, 2 qələbənin özü də "Neftçi" üçün böyük uğurdur. "Gəncə" güclü heyətə rəğmən istədiyi mübarizəni göstərə bilmədi. Əsas rəqibləri Şəkiyə 4/1 finalda məğlub oldu. A qrupunda "Abşeron" potensialından maksimum istifadə etdi. Ötən ilin finalçısı "Naxçıvan"ı məğlubiyyətə uğratdı.

A qrupunun ən dəyərli basketbolçusu Hassani Qravet, "B" qrupunda mövsümün ən yaxşısı isə "Şəki"nin oyunçusu Roti Veyr seçilmişdi.

Sənan Əliyev Azərbaycan kuboku oyunlarında da basketbol klublarının fəal mübarizəsini qeyd etdi: "NTD klubunun basketbolçuları da əla mövsüm keçirdilər. Kollektiv Azərbaycan Kubokunun final oyununda "Gəncə" klubunu məğlub edərək qalib adını qazandı. Finalın ən dəyərli basketbolçusu (MVP) NTD-nin müdafiəçisi Detrek Brauninq seçildi.

"Sabah" klubunun prezidenti Maqsud Adıgözəlov çempionluğun asan olmadığını, "Neftçi"nin sonacan mübarizə apardığını dedi. O qeyd etdi ki, ardıcıl 3-cü dəfə bu adı qazanmaq gözəl hissdir.

"Sabah" ölkə çempionatının qalibi olmaqla, FIBA Çempionlar Liqasında iştirak hüququ əldə etdi. İndi əsas məqsəd qrup mərhələsinə vəsiqə qazanmaqdır. Bunun üçün komanda əlindən gələni etməlidir. Əsas hədəf isə avrokuboklara yaxşı hazırlaşıb, Azərbaycanı beynəlxalq arenada layiqincə təmsil etməkdir.

***Leyla QURBANOVA***
***XQ***



HAVA

# Abşeronda yağmursuz, bölgələrdə yağış



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 16-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 13-16°, gündüz 17-20° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 55-60 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam yağıntılar əksər rayonlarda tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 12-15°, gündüz 20-24°, dağlarda gecə 0-5°, gündüz 5-10° isti olacaq.

***Q.QASIMOV***
***XQ***


## "Rabitə Tikinti" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2025-ci il saat 11.00-da cəmiyyətin inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2024-cü ilin yekunlarına aid idarə heyətinin hesabatı.
**2.** Təşkilati məsələlər.
**3.** İdarə heyətinin sədrinin və üzvlərinin seçilməsi.
**4.** Müşahidə şurasının sədrinin və üzvlərinin seçilməsi.
**5.** Daxili auditin (təftiş komitəsi), müfəttişin seçilməsi.
**6.** Digər məsələlər:


## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Zaqatala hərbi prokuroru Emin Quliyevə anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 980
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00